Azərbaycan Respublikasının Təhsil İnstitutu

AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

ARTİ
AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL İNSTİTUTU



# Ümumi təhsil müəssisələrində peşəyönümü xidmətinin təşkili

(Metodik vəsait)

Bakı - 2021

**Elmi redaktor:** **İlham Cavadov**
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun*
*Elmi-pedaqoji tədqiqatlar mərkəzinin direktoru*
*Pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

**Rəyçilər:** **Müseyib İlyasov,**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Məktəbəqədər təhsilin pedaqogikası kafedrasının*
*müdiri, pedaqogika üzrə elmlər doktoru, professor*

**Səbinə Babayeva,**
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun*
*Ömür boyu təhsil üzrə Milli Kvalifikasiyalar*
*şöbəsinin müdiri*

**E.B.Bəylərov, E.M.Kərimova, A.Q.Həşimova, R.E.Quliyeva, T.Ə.Hüseynova, G.Q.Əhmədova, G.İ.Tahirli. Ümumi təhsil müəssisələrində peşəyönümü xidmətinin təşkili**. Bakı: XXXXXX, 2021, 100 səh.

Təqdim olunan metodik vəsait bu gün cəmiyyəti daha çox maraqlandıran şagirdlərin peşə seçimi məsələsinə həsr edilmişdir. Vəsaitdə ümumi təhsil müəssisələrində peşə seçimin mahiyyəti və məzmunu, peşə seçimində istifadə olunan üsul və vasitələr öz əksini tapmışdır. Metodik vəsait məktəb rəhbərlərinə, metodistlərə və müəllimlərə ümumi təhsil müəssisələrində şagirdlərlə peşəyönümü işinin aparılmasına dəstək məqsədi daşıyır.

Həmçinin metodik vəsaitdən təhsil mütəxəssisləri və tədqiqatçıları, tələbələr, valideynlər, ümumiyyətlə,peşə seçi-mi ilə məşğul olan hər kəs istifadə edə bilər.

**©ARTİ, 2021**

# Mündəricat


**Giriş** **4**

**I Fəsil. Ümumi təhsil müəssisələrində peşəyönümünün mahiyyəti, məzmunu və vəzifələri** **5**

1.1 Peşəyönümü xidmətinin təşkilinin hüquqi əsasları 5

1.2 Peşə seçiminə təsir edən amillər 6

1.3 Peşəyönümü işinin prinsipləri 7

1.4 Peşəyönümü xidmətinin məzmunu 11

1.5 Peşəyönümü fəaliyyətinin təşkilində pedaqoji heyətin vəzifələri 16

1.6 Peşəyönümü işində XXI əsrdə yaranmış peşələrin əhatə olunması 19

1.7 Peşəyönümü işində sahibkarlığın əhatə olunması 22

**II Fəsil. Ümumi təhsil müəssisələrində peşəyönümü fəaliyyətinin təşkili** **24**

2.1 Peşəyönümü işinin təşkili üsulları 24

2.2 Peşəyönümü fəaliyyətinin planlaşdırılması 36

2.3 Peşə təmayüllü siniflərin komplektləşdirilməsi 38

2.4 Peşə təmayüllü siniflərdə müxtəlif peşə sahələrinə aid modulların tədrisi 39

2.5 Peşə təmayüllü siniflərində şagird nailiyyətlərinin qiymətləndirilməsi 44

2.6 Karyera planlaşdırılmasına dair tövsiyələr 46

**III Fəsil. Peşə maraqlarının və motivlərinin diaqnostikası** **51**

3.1 Şagirdlərin peşə seçimi motivasiyasının müəyyənləşdirilməsi metodikaları 51

3.2 Şagirdlərin müxtəlif fəaliyyət sahələrinə olan meyl və maraqlarının müəyyən olunması metodikaları 55

3.3 Şagirdlərin peşə maraqlarının müşahidə metodu ilə təyini 62

3.4 Valideynlərlə işin təşkili 64

**Əlavə 1:** “Peşə təmayüllü layihələr barədə ümumi məlumat, iş şəraitində əmək, təhlükəsizlik və sağlamlıq qaydaları” üzrə proqram materiallarının nümunəvi planı 67

**Əlavə 2:** Çiyələk əkini modulu üzrə proqram materiallarının nümunəvi planı 70

**Əlavə 3:** Çilingər köməkçisi modulu üzrə proqram materiallarının nümunəvi planı 72

**Əlavə 4:** İT proqramçı modulu üzrə proqram materiallarının nümunəvi planı 78

**Əlavə 5:** Peşə seçimində şəxsi motivlərin rolunun müəyyənləşdirilməsi üçün sorğu anketi 83

**Əlavə 6:** Peşə seçimində daxili və xarici motivlərin müəyyənləşdirilməsi üçün sorğu anketi 84

**Əlavə 7:** Peşənin cəmiyyətdə rolu və maddiyyat motivinin müəyyənləşdirilməsi üçün sorğu anketi 85

**Əlavə 8:** J.L.Hollandın “Fərdin peşə yönümünün növünün təyin edilməsi” 86

**Əlavə 9:** Şagirdlərin müxtəlif fəaliyyət sahələrinə olan maraqlarının müəyyən olunması üçün sorğu anketi 88

**Əlavə 9 (davamı)** Şagirdlərin müxtəlif fəaliyyət sahələrinə olan maraqlarının müəyyən olunması üçün sorğunun cavab kartı 93

**Əlavə 10:** Fəaliyyət sahələri üzrə “maraqlar və meyllər” sorğu anketi 94

**Əlavə 10 (davamı):** Fəaliyyət sahələri üzrə “maraqlar və meyllər” sorğu anketinin cavab kartı 96

**Əlavə 11:** Şagirdlərin peşə istiqaməti ilə bağlı müşahidə protokolu 97

**Əlavə 12:** Şagirdin peşəyönümü üzrə valideynlər üçün sorğu 98

**İstifadə edilmiş ədəbiyyat** **99**

# Giriş

Ölkə başçısı cənab İlham Əliyevin 2 fevral 2021-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də təhsil sisteminin hər bir insanın fərdi uğurları və ölkənin uzunmüddətli inkişafı üçün həlledici rol oynadığı xüsusi qeyd olunur. Sənəddə güclü təhsil hesabına yüksək peşə bacarıqlarına malik insan kapitalı yaratmaq təhsil sisteminin qarşısında mühüm vəzifə kimi qoyulur. Bu çağırışlar ümumi təhsil məktəblərində peşəyönümü işinin təşkilini, təhsilalanların peşə seçiminə istiqamətləndirilməsini aktuallaşdırır.

Peşə seçimi hər bir insanın həyatında verdiyi vacib qərarlardan biridir. “Mən bu peşəni seçirəm” deməklə əslində o, öz gələcək həyat leytmotivini müəyyənləşdirir. Çünki onun gələcəkdə həyatda tutacağı mövqe, karyerası, gəliri və s. bu seçimlə bağlıdır. Müasir dövrdə texnologiyaların sürətlə inkişafı, iqtisadiyyatın dinamikası yerli və xarici əmək bazarındakı peşələrə ciddi təsir göstərir. Peşələr sürətlə dəyişir, bəzi peşələrə tələbat olmadığından onlar sıradan çıxır, yeni peşələr meydana gəlir. Əmək bazarında rəqabətqabilliyi qoruyub saxlaya bilmək, daim tələb olunan mütəxəssis olmaq üçün fasiləsiz öyrənmək, peşəkar bilik və bacarıqlara yiyələnmək, sosial səriştələri inkişaf etdirmək həyati zərurətə çevrilir. Bu mənada hər kəs peşə seçimi ilə bağlı qərar verməzdən əvvəl əmək bazarının tələbləri baxımından öz bilik və bacarıqlarını dəyərləndirməlidir.

Məktəb illəri şagirdlərin peşə seçimi üçün vacib dövr hesab edilir. Onlar bu dövrdə seçdikləri peşə haqqında qərar verirlər. Bu gün şagirdləri peşəyə hazırlamaq və iş həyatı ilə məktəb arasındakı əlaqələri sıxlaşdırmaq təhsilin qarşısında duran vəzifələrdən biridir. Öz qabiliyyətləri, maraq və ehtiyacları haqqında doğru məlumat və qiymətləndirməyə sahib olmayan şagirdlər peşənin verdiyi fürsətlər, onun üstünlükləri, mənfi cəhətləri və s. haqqında çox vaxt kimdənsə eşitdikləri səthi məlumatlarla ali təhsilə və yaxud iş həyatına gəlirlər. Təhsil aldığı dövrdə bir çox şagirdlər adətən öz maraq, istək və qabiliyyətlərinin hansı peşə sahəsinə daha uyğun olduğunu bilmədən, peşələri tanımadan peşə seçimi ilə bağlı qərar verirlər. Əsaslandırılmış mövqeyə malik olmadıqlarından universitetə qəbul imtahanı verən şagirdlər qərarsız qalırlar. Burada yeniyetmə və gənclərə doğru, şüurlu, əsaslandırılmış qərar verməkdə köməkçi olmaq üçün valideynlər və pedaqoji heyət xüsusi rol oynayır.

Vəsait ümumi təhsil müəssisələrində peşəyönümü işinin təşkil edilməsində pedaqoji heyətə dəstək və şagirdlərin peşə seçimində düzgün qərar vermələri məqsədilə hazırlanmışdır. Vəsait şagirdlərin peşəyönümü işinin təşkili ilə bağlı müxtəlif vasitələr, üsullar və metodları əhatə etdiyi üçün peşə seçimi edən hər bir gəncə yol xəritəsi, onların müəllim və valideynlərinə isə metodik yardımçı olacaqdır.

# I Fəsil. Ümumi təhsil müəssisələrində peşəyönümünün mahiyyəti, məzmunu və vəzifələri

## *1.1 Peşəyönümü xidmətinin təşkilinin hüquqi əsasları*

Azərbaycan Respublikasında ümumi təhsil müəssisələrində peşəyönümü xidmətinin təşkili və idarəolunması təhsil siyasətinin prioritetlərindəndir və aşağıdakı hüquqi-normativ sənədlərdə öz əksini tapmışdır:

“2019–2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı;

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi;

“Məşğulluq haqqında” Azərbaycan Respublikasının Qanunu;

“Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu;

“Ümumi təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu;

Nazirlər Kabinetinin 11 iyun 2019-cu il tarixli, 266 nömrəli qərarı ilə təsdiq edilmiş “Peşəyönümünə dair məsləhət xidmətlərinin göstərilməsi Qaydası”;

Nazirlər Kabinetinin 2020-ci il 12 may tarixli 167 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ümumi təhsil müəssisələrində peşəyönümü xidmətinin həyata keçirilməsi Qaydası”;

Nazirlər Kabinetinin 2002-ci il 10 may tarixli 78 nömrəli qərarı ilə təsdiq edilmiş “Xüsusi təhsil müəssisələri haqqında Əsasnamə”.

“Məşğulluq haqqında” Azərbaycan Respublikasının Qanunu peşəyönümünə dair məsləhət xidmətlərinin 4 qrup şəxslərə göstərilməsini təsbit edir ki, buraya daxildir:

- Yeniyetmə-gənclər (təhsil müəssisələrinin tələbə və şagirdləri);
- Valideynlər (təhsil müəssisələrinin tələbə və şagirdlərinin valideynləri);
- İşaxtaranlar;
- İşsiz şəxslər.

Peşəyönümü işi qeyd olunan şəxslərlə müsahibə və testlərin keçirilməsi, təhsilinə, bacarığına və şəxsi keyfiyyətlərinə uyğun olaraq peşə və ixtisas seçiminə, peşə maraqlarının formalaşdırılmasına yönəldilmiş məsləhət xidmətlərinin göstərilməsi, peşəyönümünə dair məsləhət xidmətlərinin istiqamətləri (əmək bazarının cari vəziyyəti və əmək bazarında ən çox tələb olunan peşə və ixtisaslar barədə məlumatlandırma; mövcud peşə və ixtisaslar üzrə işlə təmin edilmə və ya peşə hazırlığı və əlavə təhsilə cəlb olunma imkanları barədə məlumatlandırma; işsiz şəxsin sosial-psixoloji xüsusiyyətləri, peşə, bilik, bacarıq və səriştələri, sağlamlıq vəziyyəti nəzərə alınaraq, əmək bazarının tələbatı əsasında ona iş yerinin və peşənin seçimində köməkliyin göstərilməsi) kimi vasitələrlə təşkil olunur.

“Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən ümumi orta təhsilin məqsədləri sırasında təhsilalanlara öz gələcək həyat yolunu və fəaliyyət istiqamətlərini müəyyənləşdirmək, müstəqil öyrənmə və qərar qəbuletmə bacarığını, peşə seçiminə və əmək fəaliyyətinə hazırlığını təmin etmək də yer alır ki, bu məqsədlərin realizəsi bilavasitə təhsil sistemində peşəyönümü işinin səmərəli təşkili ilə əlaqədardır.

Peşəyönümü xidmətinin vacibliyi "Peşə təhsili haqqında" qanunda da təsbit olunmuşdur. Eləcə də Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 may tarixli 167 nömrəli qərarı ilə "Ümumi təhsil müəssisələrində peşəyönümü xidmətinin həyata keçirilməsi qaydası" təsdiq olunmuşdur ki, burada da peşəyönümü xidmətinin məqsədləri və təşkili qaydaları, tam orta təhsil səviyyəsində peşə təmayüllü siniflərin təşkili məsələsi öz əksini tapmışdır

## *1.2 Peşə seçiminə təsir edən amillər*

Peşə seçimi prosesi şəxsin öz işini seçməkdən çox əvvəl başlayır. Peşə seçimi mövcud olan işlər arasından ən uyğun gələnə qərar verməkdən ibarət deyil. Fərdin keçmişi və fundamenti, rol modelləri, təcrübələri, maraq dairəsi, şəxsiyyəti, təhsildəki uğurları və mühit peşə seçməyə təsir edən mühüm amillərdəndir. Qeyd olunanları nəzərə alaraq fərdin peşə seçiminə təsir edən amilləri aşağıdakı kimi təsnif etmək olar.




Nəticə olaraq, bir çox amillərin peşə seçiminə təsiri olduğu qeyd edilir.

Fərd almaq istədiyi təhsili, xüsusilə də bu təhsildən sonra əldə edəcəyi peşəni seçərkən sosial mühitin təzyiqini hiss edir.

## 1.3 Peşəyönümü işinin prinsipləri

**1.3.1 Peşəyönümünün dövlət əhəmiyyətliyi prinsipi.** Dövlətimiz yeni nəslin yüksək səviyyədə hazırlanmasına böyük əhəmiyyət verir və bunu cəmiyyətin gələcəyinin təmin edilməsinin əsas amillərindən biri sayır. Təlim-tərbiyənin mühüm tərkib hissələrindən biri olan peşəyönümü də bu sahələrdəndir. Peşəyönümü dövlət əhəmiyyətli işdir. Bu iş elə bir istiqamətə yönəldilir ki, onun müvəffəqiyyətlə həll edilməsi nəticə etibarilə dövlətin kadr hazırlığı siyasətinin həyata keçirilməsinə səbəb olur. Bu baxımdan da peşəyönümü işində dövlət maraqlarının olması və onun bu maraqlara uyğun şəkildə qurulması fəaliyyət prosesində əsaslanılan əsas prinsiplərdən birinə çevrilməlidir. Müəllimlər, tərbiyəçi və valideynlər bu məsələnin dövlətimiz və cəmiyyətimiz üçün nə dərəcədə vacib olduğunu dərindən dərk etməklə onun həyata keçirilməsində dövlət və cəmiyyətin tələblərini nəzərdən qaçırmamalıdırlar.

**1.3.2 Peşəyönümü işinin elmiliyi.** Bu prinsip təlimin prinsiplərindən olsa da, peşəyönümü işində daha yeni məzmun kəsb edir. Bu prinsip hər şeydən əvvəl peşəyönümü işinə elmi şəkildə yanaşmağı tələb edir. Onun əsasında formalizmə yol verməmək, şagirdlərin maraq göstərdikləri peşələrin məzmunu, peşələr sistemində yeri, gələcək perspektivləri haqqında əsaslı biliklər vermək, elmin və texnikanın son nailiyyətləri və istiqamətləri ilə bağlı meydana çıxan yeni peşələr və peşə sahələri ilə tanışlıq, işə düzəlmə imkanları haqqında məlumatlar, şagirdlərin marağı ilə real seçmə imkanları arasında nisbətin nəzərə alınması və digər bir sıra məsələlər durur. Buna görə də peşəyönümü işində elmilik prinsipinin nəzərə alınması, bir tərəfdən şagirdin seçmək istədiyi peşə haqqında məzmunlu elmi məlumatlarının olmasına, digər tərəfdən isə, peşə- seçmənin düzgün həll edilməsinə səbəb olar.

**1.3.3. Peşəyönümündə şüurluluq prinsipi.** Peşəyönümü işində məktəblilərin şüurluluğu təmin olunmadan müvəffəqiyyətli nəticəyə nail olmaq olmaz. Şagirdin maraq göstərdiyi peşənin mahiyyətini, çətinliklərini, tələblərini, ona yiyələnməyin mümkünlüyünü, gələcək perspektivlərini şüurlu olaraq dərk etməsi peşəyönümü işində kortəbiiliyin, təsadüfiliyin qarşısını alır, onlarda bu sahəyə inamlı münasibətin yaranmasına, peşə planının və həyat yolunun dəqiqləşməsinə və əqidənin formalaşmasına səbəb olur. Təcrübə göstərir ki, peşəyönümü işi məhz şüurlu surətdə yerinə yetirildikdə seçilən peşə fərəh mənbəyinə çevrilir və onun sahibi bu sahədə müvəffəqiyyətlə fəaliyyət göstərə bilir. Bu baxımdan da məktəbdə və ailədə aparılan peşəyönümü işlərində şüurluluq prinsipinin gözlənilməsi vacibdir.

**1.3.4. Peşəyönümündə məktəblilərin yaş xüsusiyyətlərinin nəzərə alınması.** Təlim və tərbiyə üçün xarakterik olan bu prinsipin peşəyönümü işində də nəzərə alınması mühüm əhəmiyyət kəsb edir. Psixologiya və fiziologiya elmləri sübut edir ki, məktəbli şəxsiyyətində hər bir yaş dövrü müxtəlif üzvlərin və onların funksiyalarının yetkinləşməsi ilə xarakterik olur. Müəllim kiçik yaşlı məktəblilərin peşə maraq və münasibətlərinin keçici, dəyişkən olmasını, yeniyetmələrin peşələrin romantikasına daha çox maraq göstərməsini, müəyyən sahə üzrə bacarıq və qabiliyyətlərinin tam formalaşmamasını, gənclərin isə peşəseçməyə daha realist, bəzən praqmatik mövqedən yanaşmasını və qabiliyyətlərinin qabarıq şəkildə üzə çıxmasını, bu sahədə özünütərbiyə meylinin güclənməsini yaddan çıxarmamalı, peşəyönümü işində hər bir yaş dövründə nəyə istinad etməyi, nəyə əsaslanmağı bilməlidir.

**1.3.5. Peşəyönümündə şagirdlərin fərdi xüsusiyyətlərinin nəzərə alınması.** Peşəyönümü işində heç də az əhəmiyyət kəsb etməyən bu prinsip hər bir şagirdin fərdi xüsusiyyətlərini - maraqlarını, temperamentini, bacarığını, qabiliyyətlərini və digər bir sıra xüsusiyyətlərini nəzərə almağı tələb edir. Burada ən əvvəl hər bir şagirdin psixoloji, intellektual, fiziki və mənəvi inkişaf səviyyəsi, maraqların qabiliyyətlərə müvafiqlik səviyyəsi və şəxsiyyətin digər xarakterik cizgiləri nəzərə alınmalıdır. Hər bir şagirdin öz səviyyəsinə, gücünə, qabiliyyətinə müvafiq peşə seçməsi üçün bu prinsipə ciddi riayət olunmalı və peşəyönümü işinin diferensial şəkildə, fərdi xüsusiyyətləri nəzərə almaqla aparılmasına nail olunmalıdır. Aparılan tədbirlərin




hər bir şagird üçün həm maraqlı, həm də gərəkli olmasını təmin etmək üçün bu, olduqca vacibdir.

Ölkəmizdə ümumtəhsil məktəblərinin yuxarı (X-XI) siniflərinin təmayül siniflərə ayrılması peşəyönümü işinin diferensiallaşdırılmasına geniş meydan açır və zəmin yaradır. Belə ki, siniflərin humanitar və təbiət-riyaziyyat təmayüllər üzrə diferensiallaşdırılması və ayrı-ayrı siniflərdə şagirdlərin maraq göstərdikləri fənlərin daha dərindən və xüsusi proqramlarla keçilməsi peşəyönümü işinin səmərəli aparılmasına səbəb olur və buna şərait yaradır. Lakin peşəyönümü işini fənn maraqlarına qurban verərək onunla məhdudlaşdırmaq olmaz. Bu imkanlardan hərtərəfli istifadə edilməsi nəticəsində real müvəffəqiyyət qazanmaq mümkündür. Burada hər bir təmayül sinfi özündə belə peşəyönümü işinin diferensial şəkildə aparılması məsələsi meydana çıxır. Belə ki, hər bir sinifdə təhsil alan şagirdin fərdi maraqları bacarıq və qabiliyyətləri əsas götürməklə ayrı-ayrı peşələr və ixtisaslar üzrə fərdi işlər aparılmalıdır.



Diferensiallaşdırma fərdi xüsusiyyətlərin nəzərə alınması prinsipinə yaxın olsa da, onu təkrarlamır və onunla eyniyyət təşkil etmir. Əgər şagirdlərin fərdi xüsusiyyətlərinin nəzərə alınması fərdin ayrı-ayrı psixoloji xüsusiyyətlərinin xarakterini (məsələn, marağının davamlılığı və dərinliyini, diqqətinin, hafizəsinin səviyyəsini və s.) nəzərə almağı tələb edirsə, diferensiallaşdırma hər bir şagirdin fərdi xüsusiyyətlərinə - marağına, qabiliyyətlərinə uyğun sahədə peşə seçməyə hazırlanmasına xidmət etməlidir. Buna görə də peşəyönümü işində bu prinsiplərin hər ikisinin qarşılıqlı əlaqəsinə də xüsusi diqqət verilməlidir.

**1.3.7. Peşəyönümündə sistemlilik və ardıcıllıq prinsipi.** Peşəyönümü işində sistemlilik və ardıcıllığın gözlənilməsi onun səmərəliliyinin təmin olunmasının əsas şərtlərindən biridir. Bu prinsipin gözlənilməsi istər nəzəri şəkildə aparılan işlərdə, istərsə də praktik formada həyata keçirilən tədbirlərdə şagirdlərin aldıqları bilik, bacarıq və vərdişlərin müəyyən sistem halında, məntiqi əlaqə yaradılmaqla formalaşmasına gətirib çıxarır. Digər tərəfdən isə, aparılan peşəyönümü işlərindən hansı tədbirin, nə vaxt, harada, kimlərlə keçiriləcəyi, hansı məqsədə nail olunacağı və s. haqqında müəllimdə əvvəlcədən aydın təsəvvürlər olur. Eyni zamanda problemin həllində fasiləsizlik kimi mühüm bir amil öz həllini tapmış olur.

**1.3.8. Peşəyönümündə varislik prinsipi.** Peşəyönümü işlərində sistemliliyin və ardıcıllığın gözlənilməsi bu prosesdə varislik kimi mühüm bir prinsipin də gözlənilməsinə və həyata keçirilməsinə gətirib çıxarır. Buna görə də sistemli və ardıcıl şəkildə həyata keçirilən tədbirlər elə təşkil edilməlidir ki, əvvəlki tədbirlər sonrakıların aparılmasına zəmin yaratsın və sonra aparılan müəyyən işlər əvvəlki tədbirlərin məntiqi davamı olsun.

**1.3.9. Şəxsiyyətin imkan və qabiliyyətlərinin seçilmiş peşənin tələblərinə uyğunluğu prinsipi.** Hər bir peşənin tələb etdiyi müəyyən amillər, göstəricilər vardır ki, onları nəzərə almadan peşəyönümü işini müvəffəqiyyətlə aparmaq mümkün deyildir. Peşə seçimində proses birtərəfli olmadığından bu prosesdə hər iki tərəfin göstəriciləri bir-birinə uyğun gəlməlidir. Başqa sözlə desək, peşənin verdiyi tələblərə şəxsiyyət (şagird) psixoloji, fiziki, əqli, mənəvi və s. cəhətdən müsbət cavab verməlidir. Həyatdan götürülmüş çoxlu misallar, nümunələr göstərmək olar ki, şagird peşənin tələb etdiyi keyfiyyətləri nəzərə almadan müəyyən peşəni seçmiş, sonradan onun imkan və qabiliyyətləri bu peşənin tələblərinə uyğun gəlmədiyi üçün o ya təhsilini yarımçıq qoymuş, ya da peşəsini, ixtisasını dəyişməyə məcbur olmuşdur. Buna görə də bu prinsipin başlıca tələbi ondan ibarətdir ki, peşə, ixtisas seçimindən əvvəl seçiləcək peşənin tələb etdiyi bir sıra keyfiyyətlər və peşə seçən şəxsin bütün psixofizioloji xüsusiyyətləri dərindən öyrənilməli, onlar müqayisə edilməli və ondan sonra müəyyən qərara gəlinməlidir. Burada fəaliyyət sahəsi - açıq hava və ya qapalı mühit, yerin altı və ya gərgin sosial mühit, xüsusi rejim və ya yüksək fiziki sağlamlıq tələb edilən şərait və s. amillərlə paralel surətdə şagirdlərin psixo-fizioloji xüsusiyyətləri - sağlamlığı, fiziki dözümlülüyü, psixoloji keyfiyyətləri, qabiliyyəti, nitqi, təfəkkürü və s. nəzərə alınmalıdır.

**1.3.10. Peşəyönümündə müstəqillik və sərbəstlik prinsipi.** Peşəyönümü elə bir problemdir ki, burada şagirdlərin müstəqilliyinə və seçim qarşısında sərbəstliyinə əsaslanmaq lazımdır. Əks halda seçilən peşə nə onun sahibinə, nə də cəmiyyətə elə bir fayda gətirməz. Azərbaycan Respublikasının Konstitusiyasının 35- ci maddəsində deyilir: «Hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ vardır».

Buna görə də şagirdlərin bu konstitusiya hüququndan düzgün istifadə edə bilməsi üçün onlara peşəyönümü prosesində elə bir mənəvi-psixoloji şərait yaradılmalıdır ki, şagird sevdiyi, maraq göstərdiyi, qabiliyyət və bacarığına müvafiq olan peşəni sərbəst, müstəqil surətdə seçə bilsin. Belə olduqda şagirdlərə öz imkanlarını dəfələrlə ölçüb-biçməyə, qabiliyyətlərinə müvafiq əmək sahəsi seçməyə imkan yaranar və seçilən peşə daha çox uğur qazandırar.

**1.3.11. Peşəyönümündə kadrlara olan tələbatın nəzərə alınması prinsipi.** Bu prinsipin əsas mahiyyəti respublikamızın iqtisadiyyatının başlıca inkişaf istiqamətlərini nəzərə almaqla əmək bazarına tələbatların formalaşdırılmasıdır. Əks halda, yəni tələblə təklifin, hazırlıqla tələbatın uyğunsuzluğu yaranır ki, bu da iqtisadiyyatda kadrların düzgün yerləşdirilməməsinə, işsizliyin artmasına, bir sıra zəruri sahələrdə kadr çatışmazlığına və ya əksinə, tələb olunmayan sahələrdə kadr «bolluğuna» gətirib çıxarır. Buna görə də peşəyönümü prosesində kadrlara olan sosial tələbat nəzərə alınmalı və işin bu istiqamətdə aparılmasına diqqət artırılmalıdır. Şagirdlər yaşadıqları regionun, ölkənin iqtisadiyyatı ilə dərindən tanış edilməli, kadr tələbatları haqqında müntəzəm məlumatlar almalıdırlar.

Beləliklə, göstərilən prinsiplər müasir dövrdə şagirdlərin peşəyönümü probleminin düzgün həll edilməsi üçün məktəb rəhbərləri və müəllimlərin əldə rəhbər tutduğu ideyalar olub, problemin müvəffəqiyyətlə həll edilməsində mühüm yer tutur. İş üsullarının əlverişli və müvafiq seçilməsi isə bu prosesin səmərəliliyini daha da artırır.



## *1.4 Peşəyönümü xidmətinin məzmunu*

Uşaq təbiəti elədir ki, müxtəlif yaşlarda onların fizioloji, psixoloji və s. xüsusiyyətləri nəzərə çarpacaq dərəcədə bir-birindən fərqlənir. Onlar böyüdükcə, sinifdən-sinfə keçdikcə fiziki və psixi inkişaflarında, ilk növbədə, maraq və meyllərində, əməyə və peşəyə münasibətlərində, təfəkkür, təxəyyül və hafizəsində mühüm dəyişikliklər baş verir. Bu baxımdan məktəbdə aparılan bütün təlim-tərbiyə işlərində müxtəlif yaş dövrlərində şagirdlərin fizioloji, psixoloji və s. inkişaf xüsusiyyətlərini nəzərə almaq mühüm əhəmiyyət kəsb edir. Təlim-tərbiyə prosesinin başlıca tərkib hissəsi kimi şagirdlərin peşə seçməyə hazırlanması işi də bu prinsipdən kənarda qalmamalı və müxtəlif yaş qruplarında diferensiallaşdırılmış məzmunda aparılmalıdır.

Təcrübə göstərir ki, ümumtəhsil məktəblərində özünə kök salan kütləvilik, çox vaxt yaş və fərdi xüsusiyyətləri nəzərə almamaq elə deformasiyalara səbəb olmuşdur ki, keçirilən müxtəlif tədbirlər, işlər şagirdlərin peşə niyyətlərinin reallaşmasına az təsir edir. Buna görə də peşəyönümü işi özünün forma müxtəlifliyi ilə seçildiyi kimi, müxtəlif yaş qruplarında məzmununa görə də bir-birindən fərqlənməli, hər qrupun özünəməxsus yaş xüsusiyyətləri baxımından aparılmalı və biri digərini tamamlamalıdır. Bu baxımdan ayrı-ayrı yaş qruplarında şagirdlərlə aparılan peşəyönümü işlərinin məqsədi, məzmunu və xüsusiyyətlərini nəzərdən keçirək.

### İbtidai təhsil səviyyəsində şagirdlər ilə aparılan peşəyönümü işlərinin məqsədi, vəzifələri və məzmunu

İbtidai təhsil səviyyəsi 6-10 yaşları əhatə edir. Bu dövrdə uşaqların həyatında ciddi dəyişikliklər baş verir. Uşaq oyunları ciddi əməklə - təlim əməyi ilə əvəz olunur. Bu dövrdə uşaqların psixi və fizioloji inkişafında müəyyən dəyişikliklər baş verir. Onların hafizəsi, təfəkkürü, diqqəti, maraq dairəsi, eləcə də boyu, əzələləri və s. sürətlə inkişaf edir

Bu çoxcəhətli prosesə düzgün istiqamət vermək üçün kiçik məktəblilərə daha çox qayğı ilə, diqqətlə yanaşmaq vacibdir.

İbtidai siniflərdə şagirdlərin təlim əməyini maraqlı şəkildə qurmaq tələb olunur. Şagirdlərin sonrakı illərdəki fəaliyyəti bu dövrdəki təlim-tərbiyə prosesinin düzgün təşkilindən həlledici dərəcədə asılı olduğundan onlarda təlimə ciddi münasibət və maraqlar tərbiyə etmək xüsusi əhəmiyyət kəsb edir. Belə münasibət onlarla aparılan peşəyönümü işində də vacibdir.

Uşaqların əməklə, peşə ilə tanışlığı ailədə başlayır. Onlar ailədə valideynlərin və ailənin böyük yaşlı üzvlərinin əməyi ilə tanış olur, məişət əməyində bilavasitə iştirak edir, gücləri çatan ev işlərində valideynlərə kömək edirlər. Bununla yanaşı, kiçik yaşlı şagirdlər çox vaxt ailədə əmək, peşə, iş və s. haqqında ailə üzvlərinin söhbətlərini də eşidir, onların peşələri haqqında müəyyən məlumata yiyələnirlər. Bütün bunlar isə şagirdlərdə ilk əmək vərdişlərinin və peşələrlə tanışlığın yaranmasında müəyyən rol oynayır. Kiçik yaşlı məktəblilərlə aparılan peşəyönümü işində şagirdlərin peşələr aləmi ilə tanış edilməsi, onlarda əməyə və əmək adamlarına hörmət aşılanması başlıca yer tutur.

Əməyə və peşəyə meyllilik ona hörmət və məhəbbətlə sıx bağlıdır. Bu baxımdan kiçik yaşlı məktəblilərlə aparılan peşəyönümü işinin mərkəzində məhz bu məsələ dayanmalı və şagirdlərin peşələr aləmi ilə daha tez tanış edilməsi ilə sıx bağlanmalıdır. Kiçik məktəblilər nə qədər çox peşə ilə tanış olsalar və onlar haqqında müəyyən məlumatlara yiyələnsələr gələcək peşəseçmə işi də bir o qədər düzgün və şüurlu olar. Həyatda çox belə faktlara rast gəlmək olur ki, şagirdlərin ibtidai siniflərdə maraq göstərdikləri müəyyən bir peşə onların sonrakı həyat yoluna, peşə planına çevrilir və elə həmin peşəyə də bağlanırlar.




**Bu vəzifələrin yerinə yetirilməsi və reallaşmasında müəllim:**



***elmlərin əsaslarını öyrətməyi***



***sinifdənxaric və məktəbdənkənar tərbiyəvi tədbirlər prosesinin imkanlarından geniş istifadə etməyi bacarmalıdır.***

Kiçik yaşlı məktəblilər elmlərin əsaslarını öyrənərkən «Azərbaycan dili» dərslərində ilin fəsilləri, fəsillərə müvafiq əmək prosesləri, əmək adamlarının həyatı, fəaliyyəti haqqında müxtəlif şeirlər, hekayələr, mətnlər oxuyur, öyrənirlər. “Həyat bilgisi” dərslərində ətraf aləm, mühitlə tanış olur, müxtəlif hadisələrə münasibət bildirir, sağlamlıq və təhlükəsizlik qaydaları, iqtisadi bilik və bacarıqların təməlini nümayiş etdirirlər. “Texnologiya” dərslərində müvafiq texnologiyalardan istifadə etməklə məmulatlar, model və layihələr hazırlayır, məişət xidmətlərini yerinə yetirməklə peşələrin əsaslarını, əməyə qiymət verilməsini mənimsəyirlər. Bütün bunlar şagirdlərin peşələr aləmi ilə, əmək adamları ilə tanışlıqlarında mühüm rol oynayır.

Kiçik yaşlı məktəblilərlə müxtəlif fənlər üzrə aparılan kompleks ekskursiyaların peşəyönümü vəzifələrinin həllində böyük təsir gücü vardır.

Belə ekskursiyalar şagirdlərin dünyagörüşünü, ətraf aləm haqqında biliklərini genişləndirir və müxtəlif peşələr haqqında məlumatlarını dərinləşdirir. Kiçik yaşlı məktəblilərlə müxtəlif kəndli təsərrüfatlarına, texnoparklara, fabriklərə, innovasiya mərkəzlərinə, STEAM mərkəzlərinə, elmi-texniki muzeylərə, meşəyə, təbiət qoynuna təşkil edilən ekskursiyalar bu cəhətdən çox faydalıdır.



STEAM mərkəzlərinə, elmi-texniki muzeylərə, meşəyə, təbiət qoynuna təşkil edilən ekskursiyalar bu cəhətdən çox faydalıdır. İbtidai siniflərdə aparılan peşəyönümü işində müxtəlif peşə sahibləri və mütəxəssislərlə, sahibkarlarla, elm və incəsənət xadimləri ilə görüşlər də mühüm rol oynayır. Belə görüşlər, bir tərəfdən, şagirdlərin peşələr aləmi haqqında təsəvvürlərinin genişlənməsinə, digər tərəfdən də bu adamların əməyinə, işinə hörmət və maraq

göstərmələrinə səbəb olur, şagirdlərlə əmək kollektivləri, təhsil müəssisələri, sənət adamları və peşə sahibləri arasında əlaqənin yaranmasına təsir göstərir.

## Ümumi orta təhsil səviyyəsində şagirdlər ilə aparılan peşəyönümü üzrə işlərin məqsədi, vəzifələri və məzmunu

- ***V-VII sinif şagirdləri ilə peşəyönümü işinin məqsədi, vəzifələri və məzmunu.***

Bu yaş dövründə şagirdlərdə həm uşaqlıq, həm də qismən gənclik xüsusiyyətləri özünü göstərir. Onların fiziki və psixi inkişaflarında ciddi dəyişikliklər baş verir. Şagirdlər təlim materialını şüurlu mənimsəməyə və onun mahiyyətini dərk etməyə səy göstərirlər. Onlarda bu dövrdə mücərrəd təfəkkür də xeyli inkişaf edir. Bu dövrdə müşahidə edilən xüsusiyyətlərdən biri şagirdlərin fiziki əməyə münasibətləri ilə bağlıdır. Onlar bu yaşda fiziki əməyə və bir çox peşələrə daha çox maraq göstərir, bu sahələrdə həvəslə məşğul olurlar.
Bütün bunlar şagirdlərlə aparılan peşəyönümü işlərində bir sıra xüsusiyyətləri nəzərə almağı tələb edir.

Aşağı siniflərdən fərqli olaraq bu yaşda şagirdlərin peşə maraqlarının fəallaşması, müəyyən peşələr istiqamətində daha çox öyrənmə meyllərinin güclənməsi müşahidə olunur. Odur ki, bu yaş dövründə şagirdlərin aşağı siniflərdə aldıqları peşə təsəvvürləri ilə kifayətlənmək olmaz. Həm tədris olunan yeni-yeni fənlər, həm də şagirdlərin psixofizioloji inkişaf səviyyələri daha çox bilik və təsəvvürlər əldə edilməsinə ehtiyac yaradır. Bu dövrdə şagirdlərin fiziki əməyə münasibətlərinin müsbət istiqamətdə dəyişildiyini nəzərə alaraq "Texnologiya" dərslərində istehsalatın texnikası, texnologiyası, sənayenin, kənd təsərrüfatının təşkili, neft-qaz və alternativ enerji mənbələri, informasiya texnologiyaları, rəqəmsal platformaların həyatımızda rolu eləcə də əməyin təhlükəsizliyi, dayanıqlı inkişaf hədəfləri, iqtisadiyyatın müxtəlif sahələrindəki başlıca peşələr və s. ilə şagirdlərin tanış edilmələrinə və praktik bacarıqlar əldə edilməsinə ciddi yanaşılmalıdır.

V-VII siniflərdə şagirdlərin peşə maraqlarının, meyllərinin və qabiliyyətlərinin inkişaf etdirilməsi məqsədilə onların müxtəlif növ fəaliyyətə (idrak, əmək, oyun) cəlb edilməsi üçün şəraitin yaradılması mühüm əhəmiyyət kəsb edir. İdrak fəaliyyəti üçün emosional fon, psixoloji iqlim, idrak maraqları və motivləri, əmək fəaliyyəti üçün zəruri avadanlıq və əşyalar, kommunikativ fəaliyyəti üçün etik və estetik şərait belə şərtlərdən olub, bu tələbin yerinə yetirilməsində mühüm yer tutur.

Bu yaşda şagirdlərlə təşkil edilən məşğələlər onların "güclərini sınamaları" və bu sınaqların müvəffəqiyyəti bəzən gələcək peşəseçmə işinə əsaslı təsir göstərir. Şagirdlər müəyyən bir peşə üzrə məşğələlərdə iştirak edir, öz zəhmətinin nəticəsini görür, onun sevincini duyurlar. Şagirdlərin "güclərini sınamaları" işi davam etdirilməli və məktəbdə təşkil edilən müxtəlif dərnəklər, fakültativ məşğələlər, maraqlar üzrə klublar daha da genişləndirilməlidir.

- ***VIII-IX sinif şagirdləri ilə aparılan peşəyönümü üzrə işlərin məqsədi, vəzifələri və məzmunu***

Bu yaş dövründə şagirdlərdə idrak prosesləri sürətlə inkişaf edir, onlar əhatələrində olan adamların hərəkət və davranışlarına tənqidi yanaşır, onlara öz münasibətlərini bildirirlər. Bu dövrdə şagirdlərdə hisslərin güclü inkişafı davam edir. Xüsusən vətənpərvərlik, qəhrəmanlıq kimi hisslər özünü göstərir, bu mövzularda olan söhbətlərə, əsərlərə, kinofilmlərə ciddi maraq yaranır.

VIII-IX sinif şagirdləri ilə aparılan peşəyönümü işi özünün bir sıra xüsusiyyətləri və keyfiyyətləri ilə əvvəlki siniflərdə aparılan peşəyönümü işindən fərqlənir. Bu aşağıdakı məsələlərlə əlaqədardır:

Şagirdlər bu dövrdə müstəqilliyə can atır, texnikaya, macəraya, romantikaya, səyahətə aid kitablara və filmlərə maraq göstərir, peşə seçməyə meyl edirlər.

Şagirdlərdə özünütərbiyə meylləri gücləndiyindən onlar seçəcəkləri peşə haqqında özlərinin imkanlarına tənqidi nəzərlərlə baxmağa meyl göstərirlər.

Müşahidə və tədqiqatlar göstərir ki, şagirdlər ən çox bu siniflərdə «Hansı peşəni seçmək» sualı qarşısında tərəddüd edir və düşünürlər. Peşəseçmə işinin bu mərhələsi qərarvermə mərhələsinə yaxın olduğu üçün həmin dövrdə pedaqoji heyətin və valideynlərin yardımına, məsləhətinə daha çox ehtiyac duyulur. İstər peşəyönümü mütəxəssisləri, müəllimlər və məktəb psixoloqları, istərsə də, valideynlər şagirdlərin marağına, bacarıq və qabiliyyətinə həssaslıqla yanaşmalı və real, düzgün qiymət verməyi bacarmalıdırlar.

Peşəseçmə işinin forma və üsulları fəallaşdırılmalı, optimal üsullardan istifadə edilməlidir.

Şagirdlər özünü tərbiyə işləri genişləndirilməlidir.

Şagirdlərin şəxsi potensial imkanlarına verdikləri qiymətlərin dəqiqləşdirilməsinə və real vəziyyətin üzə çıxarılmasına nail olunmalıdır.

Şagirdlərin maraq göstərdiyi peşəyə və ya ixtisas qruplarına yiyələnmələri üçün lazım olan peşə keyfiyyətləri inkişaf etdirilməlidir.

Şagirdlərlə aparılan peşəyönümü işində məktəblilərin yaşadığı konkret iqtisadi rayonun cari və perspektiv peşə tələbatının nəzərə alınmasına da xüsusi fikir verilməlidir. Şagirdlərin əmək bazarının başlıca və aparıcı sahələrinin – sahibkarlıq, informasiya texnologiyaları, sənaye, kənd təsərrüfatı, texnika və digər sahələrin iqtisadiyyatı, əməyin xarakteri, elmi təşkili və s. haqqında biliklərini genişləndirmək lazımdır. Belə biliklər peşə maraqlarının konkretləşməsinə və müəyyən bir peşə sahəsində reallaşmasına səbəb olur.

Peşəyönümü işinin müxtəlif fənlərin tərkibində tədrisi həm dərslərin maraqlı və rəngarəng təşkilinə, həm də şagirdlərin fərqli fənlərdə aldığı biliklərin həyatda praktik tətbiqi ilə bağlı dünyagörüşünün formalaşmasına yardımçı olar. Tədris prosesində müəllim yeri gəldikcə peşələrin təsnifatı haqqında məlumat verməli və şagirdlərdə peşələrin növləri haqqında düzgün təsəvvür formalaşdırmalı, onları ayrı-ayrı nümunələrlə tanış etməlidir. IX sinifdə şagirdlər öz seçimlərini etdikdən, peşə, ixtisas yönümlərini müəyyənləşdirdikdən sonra X-XI siniflərdə müəyyən təmayüllər üzrə müvəffəqiyyətlə oxuya, təhsilin növbəti pilləsinə keçid edə, seçdikləri peşələr üzrə biliklərini dərinləşdirə bilərlər.



• ***X-XI sinif şagirdləri ilə aparılan peşə yönümü işlərinin məqsədi, vəzifələri və məzmunu***

Bu yaş dövründə şagird şəxsiyyətinin peşəyönümü üçün nəzərə alınması vacib olan bir sıra yeni keyfiyyətləri, xüsusilə öz gələcəyini düşünmə və özünüdərketmə meylinin daha sürətli inkişafı nəzərə çarpır. Onlar özlərini daha çox anlamağa başlayır, özlərinin müsbət və mənfi cəhətlərini görməyi bacarır, özünütərbiyə, özünüidarə, özünü təyinetmə formalaşır.

Böyük məktəb yaşlı şagirdlər özlərini qiymətləndirir və bunu kənar adamların onlara verdikləri qiymətlərlə müqayisə edirlər. Həmçinin onlar öz qüsurlarını aradan qaldırmağa, özünütərbiyə ilə məşğul olmağa səy göstərirlər. Bu yaşda şagirdlərdə müxtəlif yaradıcılıq sahəsinə - ədəbiyyata, incəsənətə, musiqiyə, teatra, sahibkarlıqa, texnikaya maraq artır, yaradıcı təxəyyülləri inkişaf edir, yaradıcılıq sahələrilə bağlı peşələrə meyl göstərirlər. İlk gənclik yaşı dövründə şagirdlərdə müəyyən peşə, xüsusilə musiqi, incəsənət sahəsində və əmək prosesində öz qüvvələrini nümayiş etdirmək meyli aydın nəzərə çarpır. Böyük məktəblilər zehni cəhətdən yetkinləşir, təhsilə düzgün qiymət verir, təlimə ciddi münasibət göstərirlər və peşəseçmə niyyətlərini dəqiqləşdirirlər.

Bu mərhələdə peşəyönümü işinin məqsədi şagirdlərin seçdikləri peşələr sahəsində bilik, bacarıq və vərdişlərini genişləndirmək, dərinləşdirmək və peşəseçmə işinin şüurlu surətdə başa çatdırılması üçün lazımi şəraitin yaradılmasıdır. X-XI siniflərdə aparılan peşəyönümü işinin xarakterik xüsusiyyətlərindən biri ondan ibarətdir ki, bu dövrdə şagirdlərin əməyə və peşəyə ümumi və psixoloji hazırlığına daha ciddi yanaşılmalıdır. Şagirdlər seçdikləri peşənin bütün tələbləri ilə özlərinin psixofizioloji imkanlarının nisbətini aydın ayırd edə bilməli, peşə sahibi üçün zəruri olan əxlaqi keyfiyyətləri mənimsəyib onlara yiyələnməlidirlər. Şagirdlərin gələcək həyat yolları haqqında qəti qərarları da bu mərhələdə reallaşmalı, lazım gələrsə dəqiqləşdirilməlidir.

Kütləvilikdən fərdiliyə real keçid olmalıdır. Xüsusən indiki dövrdə - bir sıra yeni peşələrin meydana gəldiyi şəraitdə bu məsələ daha aktuallıq kəsb edir. Biznesmen, menecer, marketoloq, dizayner, sistem administratoru, rəqəmsal marketoloq, kompüter proqramçısı və s. kimi peşə və ixtisaslar bu qəbildən olub, bu sahədə

hərtərəfli izahat və məsləhət tələb edir. Şagirdlərin yaradıcı qabiliyyətinə, müstəqil düşünmə tərzinə diqqətlə yanaşılmalı, onların peşə niyyətləri ilə qabiliyyətlərinin üzvi əlaqəsinə nail olunmalıdır.

Son siniflərdə məktəbin, texniki peşə, ali və orta ixtisas təhsili müəssisələri, ailə, ictimaiyyət ilə əlaqəsi daha optimal və səmərəli təşkil edilməlidir. Məktəb təhsilini davam etdirmək istəyən şagirdlərin seçdikləri sahə üzrə təhsil müəssisələri və istehsalatda çalışacaq məzunları isə işləyəcəkləri müəssisələrlə, onların kollektivi ilə yaxından əlaqə saxlamağa, oradakı təhsil, peşə, iş şəraiti və şərtləri ilə tanış olmağa kömək etməlidir. Şagirdlərin peşə özünütəyini tamamlanmalı və onlarla ixtisaslı peşəyönümü işi aparılmalıdır. Hər bir məzun özünün gələcək peşəsi, ixtisası haqqında qənaətbəxş biliyə malik olmalıdır.

Peşəyönümü işinin bu mərhələsində pedaqoji kollektiv bu işə ciddi münasibət bəsləməli və şagirdlərin peşəyönümü işinin şüurlu surətdə, ictimai tələbat nəzərə alınmaqla və qabiliyyətə müvafiq şəkildə həll olunmasına öz köməyini, yardımını göstərməlidir. Peşəyönümü işi müasir dövrdə elə bir həll yoluna ehtiyac duyur ki, bu iş təkcə yaş xüsusiyyətlərini deyil, həm də fərdi xüsusiyyətləri nəzərə almaqla həyata keçirilsin.

## 1.5 Peşəyönümü fəaliyyətinin təşkilində pedaqoji heyətin vəzifələri

Peşəyönümü xidmətinin həyata keçirilməsində ümumtəhsil müəssisələrinin bir çox pedaqoji işçiləri kompleks şəkildə çalışırlar. Bu xidmətin yerinə yetirilməsini bilavasitə icra edən pedaqoji işçilər daima müasir əmək bazarının tendensiyaları, ölkə üzrə, regional və spesifik bölgədə təhsil və məşğulluq imkanları barədə məlumatlı olmalı, regional məşğulluq mərkəzləri ilə əməkdaşlıq etməlidirlər. Keçiriləcək tədbirlər Pedaqoji Şuralarda müzakirə edilir və illik fəaliyyət planında nəzərdə tutulur.

Peşəyönümü xidmətinin təşkili ilə bağlı pedaqoji işçilərin funksiyaları:

***1. Pedaqoji Şura:***

- Peşəyönümü koordinatorunun müəyyən edilməsi;
- Növbəti tədris ili üçün peşəyönümü xidmətinin təşkili üzrə Fəaliyyət Planının hazırlanması;
- Peşəyönümü xidmətinin təşkili üzrə Fəaliyyət Planının müzakirəsi və təsdiqi.

***2. Məktəb direktoru:***

- Peşəyönümü xidmətinin təşkili üzrə Fəaliyyət Planının icrasına nəzarət;
- Tam orta təhsil səviyyəsində peşə təmayüllü siniflərin komplektləşdirilməsi;
- Müxtəlif təhsil müəssisələrinin nümayəndələri ilə görüşlərin, ekskursiyaların, sərgi və müsabiqələrin təşkilinə şərait yaradılması;
- Peşə təmayüllü siniflərdə tədrisin təşkili;
- Peşə təmayüllü siniflərdə tədrisin təşkili məqsədilə peşə təhsili müəssisələri ilə müqavilələrin bağlanması.

***3. Peşəyönümü koordinatoru:***

- Sinif rəhbərləri, fənn müəllimləri, uşaq birliyi təşkilatının rəhbəri, məktəb psixoloqunun iştirakı ilə növbəti tədris ili üçün peşəyönümü xidmətinin təşkili üzrə Fəaliyyət Planının tərtibi;
- Ümumi orta təhsil və tam orta təhsil səviyyələrində təhsilalanların fərdi və psixoloji xüsusiyyətlərinin, qabiliyyətlərinin, eləcə də peşə istiqaməti üzrə əmək və sahibkarlıq fəaliyyətinə marağının öyrənilməsi məqsədilə sorğuların və testlərin keçirilməsinin təşkili, nəticələrə müvafiq olaraq tədbirlərin planlaşdırılması;

- Təhsilalanlara ali, orta ixtisas və peşə təhsili müəssisələri tərəfindən təklif edilən proqramlar barədə məlumatların verilməsi və istiqamətləndirilməsi;
- Fərdi və qrup şəklində məsləhət sessiyalarının keçirilməsi;
- Karyeranın planlaşdırılması üzrə məsləhətlərin verilməsi;
- Təhsil müəssisələri və müxtəlif peşə sahələrinin nümayəndələri ilə görüşlərin təşkili;
- Peşəyönümü ilə əlaqəli ümumi orta və tam orta təhsil səviyyəsində ekskursiyaların, müsabiqə və sərgilərin təşkil olunmasında iştirak;
- Valideynlər ilə təhsilalanların maraq dairəsinə və bacarıqlarına dair sorğuların keçirilməsinin təşkili;
- Tam orta təhsil səviyyəsində peşə təmayüllü sinfin komplektləşdirilməsi;
- İstedadlı uşaqların müxtəlif səviyyələrdə fənn olimpiadalarında iştirakının təşkili;
- Dərsdənkənar STEAM laboratoriyasında və ya mərkəzində şagirdlərin iştirakının təşkili;
- Sinif rəhbərləri, fənn müəllimləri, məktəb psixoloqlarının peşəyönümü maarifləndirmə;
- Pedaqoji kollektivin peşəyönümü maarifləndirmə, peşəyönümü məsləhət və fərdi inkişaf trayektoriyasının müəyyənləşdirilməsi;
- Sinif rəhbərləri, fənn müəllimləri, məktəb psixoloqlarının şagirdlərin peşəyönümü probleminin həll olunması ilə bağlı kvalifikasiyalarının artırılması sisteminin təşkili;
- Yay tətili ərzində iş təcrübəsinin təşkili.

***4. Sinif rəhbəri:***

- Peşəyönümü xidmətinin təşkili üzrə Fəaliyyət Planının tərtibində iştirak etmək;
- Peşəyönümü mövzusunda fərdi və qrup söhbətlərinin aparılması, disput və konfransların təşkili;
- Təhsilanların meyl və maraqlarının psixoloji-pedaqoji müşahidəsi;
- Təhsilalana fərdi təhsil trayektoriyasının hazırlanmasında, öz nailiyyətlərinin təhlili və peşə təhsili alternativlərinin müəyyənləşdirilməsində dəstək;
- Təhsilalanların təhsil müəssisələrinə, müxtəlif sənaye obyektlərinə ekskursiyaya aparılması;
- Şagirdlərin peşəyönümü və peşə hazırlığı ilə əlaqədar valideyn iclaslarının təşkili;
- Şagirdlər və onların valideynlərinin peşəyönümü test və sorğularının keçirilməsində dəstək.

***5. Fənn müəllimləri:***

- Peşəyönümü xidmətinin təşkili üzrə Fəaliyyət Planının tərtib olunmasında iştirak edir;
- Müxtəlif metod və vasitələrdən - layihə metodu, seminar, konfrans, fənn həftələri, oyunlar, olimpiadalar, STEAM və digər fakültətiv məşğələlər istifadə edərək, şagirdlərin maraqlarının, yaradıcılıq qabiliyyətlərinin inkişafına kömək;
- Dərslərin peşəyönümü istiqamətinin təmin olunması, təhsilalanlarda ümumi peşə bacarıqlarının formalaşdırılması;
- Təhsilalanların adekvat özünü qiymətləndirməsinə kömək;
- Şagirdlərin meyl və maraqlarının müəyyən edilməsi üçün müşahidələrin aparılması;
- Sinfin və təhsilalanların xüsusiyyətlərindən asılı olaraq proqramın adaptasiyası.

***6. Məktəb psixoloqu:***

- Peşəyönümü xidmətinin təşkili üzrə Fəaliyyət Planının tərtibində iştirak;
- Təhsilalanların fərdi və psixoloji xüsusiyyətlərinin, qabiliyyətlərinin, eləcə də peşə istiqaməti və sahibkarlıq marağının öyrənilməsi məqsədilə Əlavə 5, 6, 7, 9, 10-da verilmiş sorğuların və Əlavə 8-də verilmiş testin keçirilməsi;

- Valideynlər ilə peşə istiqaməti və peşə seçimi ilə bağlı Əlavə 12-də verilmiş sorğu anketinin keçirilməsi;
- Valideyn və müəllimlər üçün peşə seçimi ilə bağlı maarifləndirmə sessiyalarının keçirilməsi;
- Təhsilalanlar üçün peşəyönümü təlimlərinin təşkili;
- Təhsilalanların yaş xüsusiyyətləri nəzərə alınmaqla psixoloji məsləhətlərin keçirilməsi;
- Şagirdlərin adekvat özünüqiymətləndirməsinin formalaşdırılması;
- Valideynlərin öz peşələri haqqında təhsilalanlar qarşısında çıxış etməyə dəvət;
- Şagirdlərin meyl və maraqlarının analiz və qiymətləndirilməsində sinif rəhbərinə kömək;
- Peşəyönümü diaqnostikası üzrə məlumat bazasının yaradılması.
- Şagirdlərin meyl və maraqlarının analiz və qiymətləndirilməsində sinif rəhbərinə kömək;
- Peşəyönümü diaqnostikası üzrə məlumat bazasının yaradılması.

***<u>7. Kitabxanaçı:</u>***

- Müntəzəm olaraq müəllimlər və şagirdlər (yaş xüsusiyyətləri nəzərə alınmaqla) üçün peşəyönümündə yardımçı olacaq ədəbiyyatların seçilməsi;
- Şagirdlərin mütaliə maraqlarının öyrənilməsi və peşə seçiminə kömək etmək üçün ədəbiyyatın tövsiyə edilməsi;
- Mütəmadi olaraq iqtisadiyyatın müxtəlif sahələri və sahələr üzrə peşələr (maşınqayırma, nəqliyyat, tikinti, sənət dünyası və s.) haqqında kitab sərgiləri, oxucu diskussiyaları və seminarların təşkili.



## *1.6 Peşəyönümü işində XXI əsrdə yaranmış peşələrin əhatə olunması*

Müasir dünyada elm və texnologiyanın sürətli inkişafı bir tərəfdən əl əməyindən istifadəni azaldır, istehsalı asanlaşdırır və əlçatan edir, az vaxta daha çox və keyfiyyətli iş icrasına imkan yaradır, digər tərəfdən isə ortaya bir sıra çətinliklər çıxır. Bu çətinliklər mövcud kadr potensialının bu texnoloji yeniliklərin tələblərinə uyğun hazırlığı məsələsidir. Əgər insan resurslarımızı təhsil yolu ilə bu texnoloji yeniliklərə planlı şəkildə uyğunlaşdıra bilsək, qeyd olunan çətinliyin zamanla aradan qalxdığının şahidi olarıq.

Bunun üçün ümumtəhsil dövründən başlayaraq təhsilalanları bir sıra yeni peşələr və onların tətbiq sahələri ilə tanış etmək labüddür. Hazırda məktəblərdə fəaliyyət göstərən STEAM laboratoriyalarında və ya ayrı-ayrı bölgələrdə istifadəyə verilmiş STEAM mərkəzlərində yeni dövrün peşələri ilə bağlı texnologiyalar ilə tanış olmaq və layihə əsaslı modular vasitəsilə yeni bacarıqlara yiyələnmək mümkündür. Peşəyönümü işi koordinatoru yaxında olan STEAM mərkəzi (laboratoriyası) ilə əməkdaşlıq edib, yeni peşələr və onların tətbiq sahələri ilə şagirdlərin tanışlığın təmin etməlidir. Mövcud STEAM mərkəzlərində şagirdlər aşağıdakı peşə sahələri ilə tanış ola bilərlər.

**3D çap.** 3D printerlər vasitəsilə həyata keçirilən, kompüter nəzarəti altında material qatının ardıcıl olaraq əlavə edilməsinə əsaslanaraq üçölçülü obyektin qurulması prosesidir. 3D çap, ənənəvi istehsal üsullarına nisbətən daha az materialdan istifadə edərək mürəkkəb formalar yaratmağa imkan verir. Hal- hazırda bir çox üstünlükləri hesabına 3D çap artıq bir sənaye istehsalı texnologiyasına çevrilmişdir. 3D Çapın aşağıda göstərilən tətbiq sahələri vardır:

**Rəqəmsal istehsal:** modellər, maşınlar, robotlar, oyuncaqlar və digər məhsulların hazırlanması;

**Tibb:** pasientin hüceyrələrindən istifadə edərək transplantasiya üçün orqanların hazırlanması;

**İnşaat mühəndisliyi:** ev, körpü və s.-nin daha qısa zaman ərzində inşası;

**İncəsənət:** kino və ya teatr səhnələrinin dizaynında, həmçinin heykəltəraşlıqda tətbiqi;

**Kosmik tədqiqatlar:** kosmik gəmilər, kosmik obyektlərin inşasında və tətbiqində istifadəsi;

**Qida sənayesi:** müxtəlif qənnadı məhsulların hazırlanması;

**Təhsil:** 3D çap kurikulumunun təhsilalanlarda yaradıcılığı stimullaşdırması, onların gələcək texnoloji problemlərin həllinə hazırlaması və İKT savadlılığını, innovativ texnologiyalarla işləmək bacarığını artırması.



CNC (computer numerical control) - sənayedə tətbiq olunan, rəqəmsal idarəolunan proqram təminatlı cihazların istifadəsi ilə əlaqəli texnologiya sahəsidir. Bu texnologiya hesabına istifadə ediləcək materialdan kodlaşdırılmış proqrama əsasən müxtəlif çeşidli mallar istehsal edilir.

**CNC dəzgahlarının aşağıdakı tətbiq sahələri vardır:**



**Maşınqayırma:** avtomobil hissələrinin istehsalı;



**İnşaat:** üzlük daşların kəsimi və oyma işlərinin aparılması;



**Mebel sənayesi:** ağac üzərində kəsim və oyma işlərinin aparılaraq müxtəlif profilli mebellərin hazırlanması;



**Oyun avadanlıqlarının istehsalı:** məntiqi təfəkkürə əsaslanan və qurma-yaratma bacarıqlarının artırılması məqsədilə hazırlanan oyuncaq hissələrinin istehsalı;



**Zərgərlik:** qiymətli metal və daşlardan yüksək dəqiqlik tələb edən zərgərlik və bəzək əşyalarının istehsalı;



**Kosmik sənaye:** kosmik aparat hissələrinin istehsalı;



**Yüngül sənaye:** müxtəlif geyim və aksesuarların istehsalı.

**Robototexnika.** XXI əsr sənayesinin avtomatlaşdırılmasının sürətli inkişafına böyük təsir göstərir. Robototexnika - texnologiya ilə bağlı bir sahə olaraq, robotları, onların dizayn edilməsini, qurulmasını, idarə edilməsi metodlarını, informasiya emalı üçün yaradılan kompüter sistemlərini öyrənir. Robototexnika sahəsi və süni intellekt elmi bir-biri ilə sıx əlaqədardır. Robototexnikada süni intellektdən istifadə edilərək intellektual robotlar yaradılır.

**Robototexnikanın aşağıdakı tətbiq sahələri vardır:**
- Kosmik sənaye;
- Maşınqayırma;
- Qida sənayesi;
- Dağ-mədən sənayesi;
- Yüngül sənaye;
- Nəqliyyat;
- Hərb;
- Tibb;
- Logistika;
- Təhsil və s

**Süni intellekt** insan məntiqini yaradılan innovativ texnologiyalarda tətbiq etmək məqsədi daşıyan riyazi və proqramlaşdırmaya əsaslanır. Süni intellektin tətbiqində elm və mühəndislikdən geniş şəkildə istifadə olunur. Bu sahə insanın sahib olduğu intellektin texnologiya tərəfindən dəqiq şəkildə simulyasiya olunması məqsədilə yaradılıb və inkişaf etdirilib. Müxtəlif çətin hesablamalarda və digər hərəkət ardıcıllıqlarının həyata keçirilməsində süni intellektin rolu böyükdür.

**Süni intellektin aşağıdakı tətbiq sahələri:**
Müxtəlif sahələr üzrə intellektual robotların yaradılması;
- Ağıllı sensorlar;
- Dil emalı;
- Təcrübi sistemlər;
- Mətn, dil, təsvir tanınma;
- Biznes-analitika;
- Məlumat təhlükəsizliyi;
- İnkişaf yönümlü digər texnologiyaların yaradılması.

Kodlaşdırma (proqramlaşdırma) - məlumatın birbaşa istifadəsi üçün siqnalın ötürülməsi, saxlanması və ya avtomatik işlənməsi üçün əlverişli bir formaya çevrilməsi prosesidir.
- Süni intellektin yaradılması;
- Robototexnika;
- İdarəetmə;
- Nəqliyyat;
- İstehsal;
- Kosmik mühəndislik;
- Təhlükəsizlik və s.

Yuxarıda göstərilən yeni peşələr ilə bağlı fəaliyyət göstərən STEAM laboratoriyalarında və mərkəzlərində layihə əsaslı təlimlər keçirilməkdədir. Hər sahəyə ilə bağlı ali təhsilli kadrlarla yanaşı texniki peşə təhsilli operatorlara, ustalara, laborantlara, təmir və inspeksiya həyatinə böyük ehtiyac vardır.

## 1.7 Peşəyönümü işində sahibkarlığın əhatə olunması

Azərbaycan Respublikasında sahibkarlığın inkişafı iqtisadiyyatın diversifikasiyası, rəqabət qabiliyyətliliyinin artırılması, məşğulluğun təmin edilməsi, istehlak mallarına olan tələbatın yerli resurslar hesabına ödənilməsi və iqtisadi inkişafın təmin edilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Belə ki, inkişaf etmiş ölkələrdə biznes sektorunun ÜDM və məşğulluqdakı xüsusi çəkisinə nəzər saldıqda belə qənaətə gəlmək olur ki, Azərbaycanda da davamlı iqtisadi inkişafın təmin edilməsində sahibkarlıq subyektlərinin əsas hərəkətverici amilə çevrilməsi qarşıda duran əsas çağırışlardandır.

Təhsil sistemi gənc nəsli gələcək müstəqil həyata hazırlamaq, ölkə iqtisadiyyatının prioritetlərinə və beynəlxalq rəqabətə davamlı mütəxəssis kimi yetişdirilməsinə nail olmaq üçün təhsilalanların bir sıra mühüm səriştələri əldə etməsinə çalışır. Azərbaycanın 2030-cu ilədək sosial-iqtisadi inkişafına dair milli prioritetləri yaxın illərdə özəl sektorun, xüsusilə də kiçik və orta sahibkarlığın iqtisadi artımın və məşğulluğun başlıca mənbəyinə çevrilməsini, bununla əlaqədar vəzifələrin yerinə yetirilməsi üçün isə kompetensiya, sosial vərdişlər və bacarıqların harmoniyada inkişafına əsaslanan "ömürboyu təhsil"in xüsusi önəmini qeyd edir. Ömürboyu təhsil konsepsiyasının başlıca xüsusiyyətlərindən biri əmək bazarının tələblərinə uyğun mütəxəssis hazırlığıdır. Bu səbəbdən də əmək bazarının bütün peşə və ixtisaslar üçün tələb etdiyi 8 əsas səriştədən birisi sahibkarlıqdır.

Sahibkarlıq səriştəsinin əhəmiyyəti təhsilin müxtəlif pillələrində sahibkarlıq modulunun təhsil proqramlarına (kurikulumlarına) daxil edilməsi, təhsilalanlar üçün müxtəlif təlimlərin təşkili, sahibkar düşüncə tərzinin formalaşmasının təşviq edilməsini zəruri etmişdir. Ölkədə sahibkar düşüncə tərzinin inkişafı, sahibkarlığın təşviqi, sahibkarlıq səriştələrinin formalaşdırılması ümumi təhsil müəssisələrində peşəyönümü ilə bağlı fəaliyyətdə öz əksini tapmalıdır. Əgər ibtidai siniflərdə maarifləndirmə ilə kifayətlənmək mümkündürsə, ümumi orta və tam orta təhsil səviyyələrində tələbələrin ilk sahibkarlıq vərdişlərinin, təhsilalanlar arasında sabibkarlıq fəaliyyətinə marağın formalaşdırılmasına çalışılmalıdır. Bunun üçün şagirdlər arasında mütəmadi qaydada sorğular keçirilməli, sahibkarlıq fəaliyyəti ilə bağlı maraq və meyllər qiymətləndirilməli, nəticələrə müvafiq tədbirlər təşkil edilməlidir. Tələbələrə nəzəri biliklərlə yanaşı, praktiki biliklər verən xüsusi təlimlərin keçirilməsi də məqsədəmüvafiqdir. Bütün sektorlarda sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün lazımi aşağıdakı bacarıqların, səriştələrin formalaşmasına yönəlmiş təlimləri qeyd etmək mümkündür:



Sahibkar düşüncə tərzinin təşviqi. Sahibkarlıq peşə ilə yanaşı, həm də bir düşüncə tərzidir. Hər bir gənc anlamalıdır ki, müəyyən peşəyə yiyələnib onun əsasında öz biznesini qura bilər. Biznes qurub sahibkar olmaq üçün dərin maliyyə və iqtisadi biliklər mütləq deyildir. Sahibkarlıq düşüncə tərzi mövcud bazar imkanlarını analiz edib, uyğun vaxtda səmərəli həll yollarını təklif etməyə əsaslanır. İstər çilingər, istər dülgər, istərsə də dam örtüyü ustası öz kiçik biznesini qura bilər və onu gələcək nəsillərə ötürə bilər. Biznes sahibi olmağa marağın artırılması üçün onun faydaları haqqında məlumatlılığın və özünəinamın daha da möhkəmləndirilməsi, eləcə də sahibkarlıq fəaliyyətinin Azərbaycan iqtisadiyyatı üçün əhəmiyyəti haqqında biliklərin artırılması istiqamətində maarifləndirmə və təbliğat tədbirlərinin keçirilməsi peşəyönümü işinin bütün pillələrində əhatə olunmalıdır. Peşəyönümü işinin təşkili zamanı şagirdlər üçün müxtəlif həvəsləndirici proqramların təşkili, uğur sahibi olmuş sahibkarlar ilə görüşlər, gənc sahibkarların dəstəklənməsi layihələri çərçivəsində innovativ layihələr üzrə müsabiqələrin təşkili zəruridir.

# II Fəsil. Ümumi təhsil müəssisələrində peşəyönümü fəaliyyətinin təşkili

## *2.1 Peşəyönümü işinin təşkili üsulları*

### İbtidai təhsil səviyyəsində peşəyönümü işinin təşkili üsulları

Daha çox məlumatlandırma, maarifləndirmə işi ilə xarakterizə olunan ibtidai təhsil səviyyəsində şagirdlərlə iş "Əmək nədir", "Valideynlərimin peşəsi", "Mən böyüyəndə kim olmaq istəyirəm", "Hər bir peşə lazımlıdır" və s. mövzularında tədbirlərin təşkili ilə aparıla bilər. Bu səviyyədə, əsasən, peşə marağının və qabiliyyətlərin öyrənilməsi, maarifləndirmə tədbirləri fənlərin və dərsdənkənar məşğələlərin məzmununda nəzərdə tutulur.

Keçiriləcək tədbirlər sırasına aid etmək mümkündür:

- *Təqdimatların və sərgilərin keçirilməsi;*
- *Təhsilalanlarla söhbətlərin aparılması;*
- *Müxtəlif peşə sahələrinə aid animasiya və videofilmlərin nümayiş etdirilməsi;*
- *Yaxın ərazidə yerləşən müəssisələrə ekskursiya;*
- *Peşələrə dair "peşə əlifbası", "iş alətlərinə görə peşəni tap" kimi oyunların keçirilməsi;*
- *Rəsm, inşa, foto müsabiqələrin təşkili və s.*

***Nümunə: "Mən böyüyəndə kim olmaq istəyirəm" mövzusunda dərs saatlarının keçirilməsi.***

Təhsilalanlara böyüyəndə hansı peşəyə yiyələnmək istəməsi soruşulur. Müzakirə zamanı şagirdlərin seçdiyi peşələr barədə onlara ətraflı məlumatlar verilir. Həmin peşəyə sahib olduqdan sonra işləyə biləcəyi müəssisələr, iş mühiti barədə danışılır. Seçim əsasında peşələr üzrə səhnəciklər keçirilir. Xüsusi istedad tələb edən peşələr üzrə seçim edən təhsilalanın istedadının müəyyənləşdirilməsi üçün fəaliyyət təşkil olunur. Eyni zamanda yeni yaranmış peşələr, əmək bazarının cari tələbi barədə şagirdlərə məlumatlar verilir. Bu zaman təhsilalanlarda peşələrlə bağlı ilkin təsəvvürlər yaranır.

**"Peşələrin əlifbası" oyunu.**

Təlimat: Oyun bir neçə mərhələdən ibarət ola və komandalar şəklində yarış olaraq təşkil oluna bilər. Şagirdlər komandalara bölünür. Hər bir komanda tapşırıqların göstərildiyi bir marşrut vərəqəsi alır. Hər mərhələdə komanda ona verilən tapşırıqları ayrılmış dəqiq vaxt ərzində yerinə yetirir. Düzgün tamamlanmış bir tapşırıq üçün iştirakçılar bal alırlar. Mərhələdə müəyyən edilmiş qayda pozuntusuna görə ballar çıxılır.

Marşrutun sonunda ən çox bal toplamış komanda qalib olur. Komandalara həvəsləndirici hədiyyələrin verilməsi onları daha çox motivasiya edir.

**1. Mərhələ**

**"Düzgün peşəni tap"**

**Tapşırıq 1: Verilmiş sözlərdə ardıcıllığı elə düzəldin ki, peşə adı alınsın.**

AMİL-Alim
MİKAH-Hakim
ZİRƏD-Dərzi
TACISI-Satıcı
OLİPS- Polis

**1. Mərhələ**

**Tapşırıq 2:**

"Alətlərə görə peşəni tap". Nisbətən çətin tapılan iş alətlərinin şəklini nümayiş etdirib hansı peşədə istifadə olunduğu soruşulur. Komandalar vərəqə cavabı yazıb oyunu aparana təqdim edirlər. Ən çox suala düz cavab verən komanda qalib olur.

**1. Mərhələ**

**Tapşırıq 3.**

"Yadımda". Komanda iki dəqiqə ərzində peşələrin adını xatırlayır və yazır (peşələri müəyyən sahəyə aid olması, hər hansı hərfin istifadəsi ilə məhdudlaşdırmaq da olar). Mümkün qədər çox peşə yazmaq lazımdır. Aparıcı sözlərin sayını hesablayır (1 söz - 1 bal). Mərhələnin ümumi balı marşrut vərəqində qeyd olunur.

**2. Mərhələ**

**Tapşırıq 1.**

"Anla məni". Hər komandadan bir nəfər seçilir, aparıcı vərəqdə yazılmış sözü ona göstərir. Seçilmiş oyunçu verilmiş vaxt ərzində komanda yoldaşlarına peşəni jest, mimika ilə izah etməyə çalışır.

**2. Mərhələ**

**Tapşırıq 2.**

Vərəqlərə əmək, iş, peşələrlə bağlı atalar sözlərinin bir hissəsi yazılır, komandaya ikinci hissəni tapmaqla ifadəni tamamlamaq təklif olunur. Daha çox ifadəni düzgün tapan komanda qalib sayılır.

**3. Mərhələ**

**Tapşırıq 1.**

"Zəncirbənd". Aparıcı ilk peşənin adını çəkir. Oyunçular peşənin sonuncu hərfi ilə başlayan digər peşə adı deyirlər. Peşə təkrarlanırsa, komanda uduzmuş hesab olunur.

**3. Mərhələ**

**Tapşırıq 2**

"Komanda işi". Aparıcı komandalara bir sahə üzrə müəssisə yaradılacağı (məs., tikinti, səhiyyə və s.), həmin müəssisəyə işçilərin yığılması barədə məlumat verir. Ayrılmış vaxt ərzində hər bir komanda müssisədə çalışacaq ən az 5 peşə adı yazır. Sahə üzrə ən çox və ən doğru peşələri yazan komanda qalib olur

Oyunun bütün mərhələlərinin nəticələri ümumiləşdirilir, balları yüksək olan komanda qalib elan edilir.

## Ümumi orta təhsil səviyyəsində peşəyönümü işinin təşkili üsulları

- ***V-VII sinifdə peşəyönümü işinin təşkili üsulları***

Ümumi orta təhsil səviyyəsində peşəyönümü tədbirlərinin təşkili zamanı şərti olaraq 5-7-ci siniflər və 8-9-cu siniflərdə işin təşkilini fərqləndirmək mümkündür

5-7-ci siniflərdə peşə fəaliyyətinə şəxsi marağın artması, öz maraq, meyl və imkanları barədə fikirlərinin formalaşması, müxtəlif sosial və peşə praktikası sahələrində (incəsənət, səhiyyə, kənd təsərrüfatı, mədəniyyət və s.) ilkin təcrübənin əldə olunması ilə səciyyələnir. Bu siniflərdə təhsilalanlara yönəlmiş peşəyönümü tədbirləri sırasında səmərəli ola biləcək tədbirlərə aşağıdakılar misal ola bilər:

*Şagirdlərlə fərdi söhbət və ya kollektiv müzakirə;*

*Şagirdlərin müxtəlif dərnək, bölmə və ya qruplara cəlb olunması;*

*Peşə həftəsinin təşkili;*

*Peşələrə dair rol oyunlarının və yarışların keçirilməsi;*

*Rəsm, inşa, foto müsabiqələrin təşkili və s.*

*Müxtəlif peşə sahələrinə aid videofilmlərin nümayiş etdirilməsi;*

*Peşə təhsili müəssisələrinə və yaxın ərazidə yerləşən sənaye müəssisələrinə ekskursiya;*

*Yaradıcılıq müsabiqələrinin (əl işləri sərgisi) keçirilməsi;*

*Peşə maraqları və qabiliyyətinin qiymətləndirilməsi üçün diaqnostik testlərin və sorğuların keçirilməsi.*

***Nümunə: Müəssisəyə ekskursiya (ssenarisi)***

Təlimat: Ekskursiya təşkil edilməzdən öncə şagirdlər arasında hazırlıq aparılır.

Ekskursiyaların keçirilməsində valideynlərin iştirakı arzuolunandır. Belə ki, bu yaş dövrlərində valideynlərin övladlarının peşə seçimində rolu danılmazdır.

Müəllim: Tezliklə hamınız öz peşə yolunuzu seçəcək, insanlarla münasibət qurmağı, həyatda doğru yolu tapmağı öyrənəcəksiniz. Sağlamlıq, sevimli iş, yaxşı ailə, böyük sevgi, sadiq dostlar- bunlar hər kəsin arzu etdiyi dəyərlərdir. Burada xüsusi olaraq peşə seçiminiz haqqında danışmaq istəyərdim. İnsanlar zamanının böyük bir hissəsini işdə keçirirlər, yeni insanlarla tanış olur, ünsiyyət qurur, maraqlı layihələr üzərində çalışır, cəmiyyətin inkişafına töhfə verirlər. İnsanın seçdiyi peşə onun həyatına əhəmiyyətli təsir göstərir, layiqli həyat şəraiti qurması, seçdiyi peşədə uğur əldə etməsi, işinin cəmiyyətə fayda gətirməsi insanların maddi və mənəvi ehtiyaclarını ödəməyə yardım edir. Bu gün biz ........ peşəsi, valideynlərimizin birinin peşəsi ilə tanış olacağıq. İlk öncə ...... peşəsi haqqında nə dərəcədə məlumatlı olduğumuza baxaq.

Daha sonra dərsin (ekskursiyanın) həsr olunduğu peşə ilə tanışlıq (kollektiv müzakirə):

- Bu peşə haqqında biliklər;
- Bu peşə ilə məşğul olan insanlar nələri edə bilməlidir;
- Peşə bacarıqlarına yiyələnmək üçün nələri öyrənmək və harada öyrənmək mümkündür;
- Valideynlərimdən, tanışlarımdan, kitablardan və s. peşə haqqında nə öyrənmişəm?

Müəllim: ......... müəssisəsinə ekskursiya edəcəyik. Bizə orada ekskursiyanın aparılmasında yoldaşlarınızdan birinin valideyni (ata, ana, nənə, baba və s.) kömək edəcəkdir. Zəhmət olmasa, diqqətlə baxın və qulaq asın, sizi maraqlandıran məqamlarla bağlı səfər zamanı suallar verin.

2-ci hissə bilavasitə müəssisədə, valideynlərin iş yerində aparılır.

Valideynlər iş yerlərini göstərir, işin nüanslarını izah edir, yaranmış suallara cavab verirlər. Müəllim uşaqları motivasiya etmək məqsədi ilə özü bir neçə sual verir. Uşaqlar sualla çıxış etmirlərsə, valideyn onlara yönəldici suallar verir.

3-cü hissə şagirdlərin peşə barəsində refleksiyasına həsr olunur. Müəllim uşaqlara suallar verir, onlar cavablandırmağa çətinlik çəkirlərsə, ekskursiyanı aparan valideyn yardımçı olur.

Refleksiya üçün suallar:

1. …. peşə haqqında hansı yeniliyi öyrəndiniz?
2. …. peşəni yerinə yetirmək üçün hansı bilik, bacarıqlara sahib olmaq lazımdır?
3. …. peşə sahibi olmaq üçün hansı təhsilə tələb var?
4. …... peşəyə yiyələnmək üçün harada təhsil almaq olar?
4. Yaşadığımız bölgədə …. peşə mütəxəssisləri hazırlayan təhsil müəssisəsi varmı?
5. …. peşənin əks göstərişləri nədir?
6. Bu işdə işləmək asandırmı?
7. Hər kəs rahatlıqla …… peşəsində çalışa bilərmi?

Belə görüşlərin keçirilməsi təhsilalanlarda iş mühiti, işin onlara verəcəyi üstünlüklər, işin çətin tərəfləri barədə təsəvvürlər yaradacaq, peşəni düzgün seçmə barədə qərarın qəbul edilməsinə kömək edəcək. Təhsilalanların peşə təhsili müəssisələrinə cəlb olunması, peşə bacarıqlarının aşkarlanması üçün mühüm rol oynaya bilər.

- ***VII-IX siniflərdə peşəyönümü işinin təşkili üsulları.***

Ümumtəhsil müəssisələrinin 7-9-cu siniflərində şagirdlərin peşə istiqamətinin müəyyənləşdirilməsi xüsusən vacibdir. Belə ki, məhz bu mərhələdə təhsilalanların ilkin peşə-təhsil seçimi baş verir. Buradan çıxış edərək, peşəyönümlü diaqnostik tədbirlərin məhz 7-ci sinifdən aktiv surətdə aparılması məqsədəuyğundur.

8-9-cu siniflərdə artıq təhsilalanların əmək fəaliyyətinin konkret növləri ilə tanışlığı, fərdin maraq və meyllərinə uyğun gələcək təhsil istiqaməti və peşə seçimi barədə adekvat qərar qəbul etməsi, müxtəlif peşələrə istiqamətləndirilməsi peşəyönümü xidmətinin əsas məqsədidir. Bu səviyyədə peşəyönümü xidmətinin təşkilində aşağıdakı tədbirlərin görülməsi məqsədəuyğundur:



*Əmək bazarı, ixtisas, kvalifikasiya anlayışları, təhsil sistemində qəbul aparılan ixtisas təsnifatları, məşğulluq təsnifatı, məşğulluq xidmətləri barədə məlumat-maarifləndirmə sessiyalarının təşkili;*



*Diaqnostik testlərin və sorğuların keçirilməsi;*



*Ali, orta ixtisas, peşə təhsili müəssisələrinə, müxtəlif sənaye müəssisələrinə ekskursiyaların təşkili;*



*İnteraktiv oyunların təşkili;*



*Müxtəlif peşə sahələrinə aid videofilmlərin, sənədli filmlərin nümayiş etdirilməsi;*



*Peşə seçiminə dair konfransların təşkili;*



*Təhsil müəssisələrinin nümayəndələri ilə görüşlər;*



*"Peşəkarlarla tanışlıq" mövzusunda müxtəlif peşə sahələrinin nümayəndələri ilə görüşlərin təşkili;*



*Fərdi və qrup məsləhət xidmətlərinin verilməsi;*



*İxtisaslaşmış sərgilərin və digər tədbirlərin həyata keçirilməsi.*

Bu mərhələdə valideynlərlə fəal surətdə iş aparılması, valideynlərin anket sorğusunda iştirakı, "Yeniyetmələrə peşə seçimində kömək" seminarı, eləcə də valideynlər tərəfindən öz peşələri haqqında təqdimat, master klasların təşkili tövsiyə olunur.

***Nümunə 1: "Peşəkar" seminarının keçirilməsi.***

Müxtəlif peşələrdə uğur qazanmış şəxslərlə silsilə görüşlər təşkil olunur. Məktəblərdə təşkil edilmiş bu növ görüşlərdə təhsilalanlar üçün peşələr üzrə seminarlar keçirilir. Seminarlarda həm ali təhsil səviyyəsini bitirərək müvafiq ixtisas üzrə uğur qazanmış şəxslər, həm də peşə təhsili müəssisələrindən məzun olmuş və iş həyatında uğur qazanmış şəxslərin iştirak etməsi vacibdir. Onlar bu seminarlarda keçdikləri təhsil yolu, peşənin seçilməsi və uğur qazanmağın yolları ilə bağlı məlumatlar verir.

Bu tədbirlərin müsahibə-seminar formasında təşkil edilməsi təqdirəlayiqdir. Bu zaman sinif otağı, akt zalı televiziya studiyası şəklində dizayn edilir, mütəxəssis "Qonaq", şagirdlər "Müxbir" rolunda çıxış edirlər. Tədbirin bir neçə məktəbin eyni sinif şagirdləri olmaqla, daha çox qonaq mütəxəssislərin dəvət olunması, müəllimin aparıcı rolunda çıxış etməsi ilə "Talk show" formatında da təşkil edilməsi mümkündür. Bu tip tədbirlər çərçivəsində rayon Dövlət Məşğulluq xidmətinin əməkdaşlarının "Tələb olunan peşələr" və "Gələcəyin peşələri" mövzusunda təhsilalanlara təqdimatlar keçirməsi də mümkün ssenarilərdən biridir.

Bu seminarların nəticəsində təhsilalanda təhsil səviyyəsinin düzgün seçilməsi ilə bağlı təsəvvürlər formalaşır.

***Nümunə 2: "Çağrı mərkəzi operatoru" peşəsi üzrə rollu oyunun keçirilməsi.***

Seçilən peşə üzrə rollu oyunların keçirilməsi peşə seçiminə müsbət təsir edən tədbirlərdəndir. Belə ki, peşə haqqında yalnız şifahi məlumatı olan təhsilalanlarda peşə üzrə əyani təsəvvür yaranır.

Mobil telefon şirkətinin "Çağrı mərkəzi" təşkil olunur. 2 və yaxud 3 şagird telefon və kompüterlə təmin olunur. Müəllim oyunun aparıcısı rolunda çıxış edir. Operatorların sayına müvafiq olaraq müşahidəçi rolunda çıxış edən şagirdlər müəyyənləşdirilir. Hər bir "operatora" müəyyən müddət ərzində sorğunu cavablandırmaq lazım olduğu, "müşahidəçi" yə isə operatorların davranışı ilə bağlı qeydlər götürülməsi barədə təlimat verilir. Bir neçə şagird məlumat əldə etmək məqsədi ilə müxtəlif sorğularla zəng edir. Çağrı mərkəzi operatoru sorğuya cavab əldə etmək üçün kompüterdə araşdırma aparır və sorğunu cavablandırır. Oyun öncə az sayda zənglərin cavablandırılması, daha sonra onların sayının intensivləşməsi ilə xarakterizə olunur. Eyni zamanda bir operatora 2 və ya daha artıq zəng daxil ola bilər. Müəllimin təlimatı ilə müəyyən məqamda "çətin müştəri" oyuna daxil olur. "Operatorlar" vəziyyəti idarə etməyə, "çətin müştərilər" isə daha da gərginləşdirməyə çalışırlar. Daha sonra "operatorlar" zamanın idarəedilməsi, ünsiyyət bacarıqları, səs-küylü mühitdə yüksək konsentrasiya, konfliktin idarəolunması kimi fərqli səriştələrin də peşə həyatında əhəmiyyətini öyrənmiş olurlar.

***Nümunə 3: Məzəli viktorina.***

Təlimat: Müəllim aparıcı rolunda çıxış edir. Şagirdlər sıra ilə yarımdairə halında düzülürlər. Müəllim peşələrlə bağlı növbə ilə şagirdlərə suallar verir. Şagirdlər çox qısa zaman ərzində (məs. 10 saniyə) cavablandırmalıdırlar. Ən yüksək bal toplamış 3 şagird növbəti mərhələyə keçir. Sonda 5 sual verilir. Hər 5 suala ilk və doğru cavab verən şagird viktorinanın qalibi olur.

***Suallara nümunə:***

1. Hansı peşə mövcud deyil?
a) kibrit qutusu dizayneri
b) şokolad mühəndisi

2. Qrumer kimdir?
a) Heyvan baxıcısı
b) Fond birjası mütəxəssisi

3. Metranpaj peşədir ya ölçü vahidi?
Peşə

4. Mövcud olmayan peşəni deyin - heyvan yemi dequstatoru, somelye
Heç birisi

5. Orta əsr Yaponiyasında gizli tapşırıqları yerinə yetirən peşəkar xəfiyyələr necə adlanırdı?
Nindza

6. Florist güllər üzrə mütəxəssisdir ya dərmanlardır?
Güllər

7. Pinokkionun atasının peşəsi

**a) Ağac oymaçısı**

b) Pinəçi

8. Nalbənd peşədir ya dərəcə?

**Peşə**

9. Xalqın mədəni irsini öyrənən alim necə adlanır?

**a)Kulturoloq**

b) Kultivator

10. Kinoloq mədəniyyət işçisidirmi?

**Xeyr. İtləri təlimləndirən mütəxəssisdir.**

**Müsahibə və intervyular** fərdin imkanları, meyli və marağının aşkarlanmasında müəyyən yer tutan üsullardandır. Müşahidə nəticəsində toplanmış məlumatların bir daha dəqiqləşdirilməsi və bu prosesdə məlum olmayan bir sıra məsələlərin ətraflı öyrənilməsi üçün müsahibə və intervyudan istifadə edilir. Bu üsulun tətbiqi zamanı şagirdlərin peşələrə olan münasibəti, maraq və meyllərində olan inkişafın səbəbi, konkret olaraq hansı peşə və ixtisasla maraqlandığı və s. məsələlər daha qabarıq şəkildə üzə çıxır. Müsahibə və intervyu təkcə şagirdlərlə deyil, eyni zamanda məktəb və sinif rəhbərləri, müəllimlər və valideynlərlə də aparıla bilər. Bu üsuldan istifadə olunması şagirdlər haqqında daha obyektiv məlumatların əldə edilməsinə imkan yaradır.

**Anketləşdirmə**. Maraq və meyli müəyyənləşdirmək işində bu üsul xüsusi yer tutur və ona tez-tez müraciət edilir. Anketləşdirmə qısa müddət ərzində şagirdin peşə maraq və meyllərini, konkret olaraq hansı peşə sahəsi ilə maraqlandığını, peşə motivlərini, tələbatlarını aşkara çıxarmaqda bir sıra imkanlara malikdir. Anket sorğusu müəyyən bir məsələni aydınlaşdırmaq üçün aparıldığından onda konkret məqsəd olmalıdır. Bu üsulun xüsusiyyətlərindən biri ondan ibarətdir ki, verilən suallar kompleks xarakter daşımalı, şagirdlərin verdikləri cavablar maraq və meyli haqqında konkret təsəvvür yaratmalıdır. Belə sorğu zamanı şagirdlər müstəqil olaraq müəyyən suallar qarşısında düşünür və bu suallara yazılı şəkildə cavab verirlər. Buna görə də anketdə verilən suallar həm düşündürücü, həm də elə olmalıdır ki, şagirdlər ona aydın və konkret cavab verə bilsinlər.

Peşəyönümü işində istifadə edilən üsullar içində xüsusi yer tutan üsullardan biri **testləşdirmədir**. Test üsulu şagirdlərin peşə yararlılığını, meyllərini və qabiliyyətlərini müəyyənləşdirmək işində əlverişli üsullardandır. Bu üsulun faydalı cəhətlərindən biri ondan ibarətdir ki, test sualları özünün dərinliyi, çevikliyi və dəqiqliyi ilə şagirdlərin meyl və qabiliyyətlərini daha dərindən əks etdirə bilmək xüsusiyyətini özündə daşıyır.

**Nümunə 1. Şagirdin aktyorluq peşəsinə maraq və meylini aşkarlamaq üçün test:**

1. «Ton» və «nüans» sözlərinin fərqi varmı?
2. Fərqinə varmadan darısqal və səliqəsiz mənzildə yaşaya bilərsinizmi?
3. Rəsm çəkməyi xoşlayırsınızmı?
4. Siz şəxsi zövqünüzə, yoxsa modaya əsasən geyinirsiniz?
5. Aşağıdakı adlar sizə bir şey deyirmi? Mane, Van Deyk, Xose de Ribera, Falkone?
6. Yazınız çoxmu pisdir?
7. Çalışırsınızmı geyiminiz bir rəngli olsun?
8. Muzeylərə getməyi xoşlayırsınızmı?
9. Qürub çağına baxarkən xoşhal olursunuzmu?
10. Həndəsi fiqurlar çəkməyi sevirsinizmi?
11. Bədii salonlara tez-tezmi gedirsiniz?
12. Küçələrdə uzun müddət dolaşmağa meyliniz çoxdurmu?
13. Təkliyi sevirsinizmi?
14. Kimsə şeir oxumağa başlayanda, bu sizə mənasız görünmürmü?
15. Musiqini yalnız əylənmək xatirinə sevirsinizmi?
16. Gözəl mənzərəni uzun müddət yadda saxlaya bilirsinizmi?
17. Dəniz daşları sizə çoxmu gözəl görünür?
18. Yeni görüşləri və tanışlıqları sevirsinizmi?
19. Ucadan şer oxumaq xoşunuza gəlirmi?
20. Otağınızdakı divar mənzərələrini silmək arzunuz olubmu?
21. Saçınızın formasını tez-tezmi dəyişirsiniz?
22. Mənzilinizdə mebelin yerini dəyişirsinizmi?
23. Mahnı bəstələmək üçün özünüzü sınamısınızmı?
24. Şeir yazırsınızmı?

Göründüyü kimi, belə testlər aktyorluq peşəsi seçmək üçün birbaşa bir şey deməsə də, buradakı balları ümumiləşdirməklə həmin şəxsin artistliyə qarşı duyumunun olub-olmamasını müəyyənləşdirmək mümkündür. Belə ki, şagirdlərdən alınan cavabların hər birinə bir bal verilir və nəticə hesablanır: 1, 3, 4, 5, 7, 8, 9, 11, 12, 13, 16, 17, 19, 20, 21, 22, 23, 24-cü suallara – "hə", 2, 6, 10, 14, 15, 18-ci suallara isə - "yox" cavabı düzgün cavab - seçim hesab olunur. Əgər şagird 16 baldan artıq yığıbsa, onda onun artistlərə məxsus duyumu var, əgər 8-16 bal yığıbsa, o, xəyalpərvərdir, gözəlliyə biganə deyildir. Əgər şagirdin topladığı bal 4-dən azdırsa, onun gözəllik duyumu və aktyorluğa meyli yoxdur.

**Nümunə 2. Şagirdlərin "İqtisadiyyat" sahəsi üzrə meyl və marağını aşkarlamaq üçün test:**

1. «Maliyyə», «iqtisad» və «kredit» sözləri, sizcə, eyni mənalıdırmı?
2. Bəzi misalları kağız və qələmdən istifadə etmədən (şifahi) həll etməyi xoşlayırsınızmı?
3. Diqqətinizi uzun müddət bir obyekt üzərində saxlamaq sizi yorurmu?
4. Müəyyən bir hesablama apardıqdan sonra onun düzgünlüyünü yenidən yoxlayırsınızmı?
5. Sizi əhatə edən mühitdə baş verən hadisələrə nəzarət etmək istərdinizmi?
6. Evinizə bazarlıq etməyi xoşlayırsınızmı?
7. Necə varlanmaq sizi düşündürürmü?
8. Müəyyən miqdarda pul xərcləndikdən sonra onun haqq-hesabını aparmaq məqsədə uyğundurmu?
9. Kompüterlə saatlarla işləməyi xoşlayırsınızmı?
10. Mağazadan alacağınız şeylərin siyahısının əvvəlcədən tərtib edilməsi sizi qane edirmi?
11. Lotereya biletləri vasitəsilə bəxtinizi tez-tezmi sınayırsınız?
12. Pullarınızın əmanət banklarında saxlanılmasını istərdinizmi?
13. Gün ərzində gördüyünüz işlər barədə özünüzə hesabat verirsinizmi?
14. Müxtəlif xasiyyətli adamlarla ünsiyyətdə olmağı xoşlayırsınızmı?
15. Ailədə pul gəlirinin və xərclərinin dəqiq haqq-hesabını aparmaq vacibdirmi?
16. Sizə lazım olmayan, lakin xoşunuza gələn bir şeyə pul verirsinizmi?
17. Qənaətçillik xəsislik deyilmi?
18. Əsəbi və hövsələsiz adamlarla münasibətdə olarkən nəzakətli olmağı bacarırsınızmı?
19. İqtisadi hesablamalar və təhlillər aparmaq xoşunuza gəlirmi?
20. Uzun müddət bir yerdə oturub işləmək sizi yormur ki?
21. Riyazi qayda, qanun, işarə və düsturlar yadınızda asan qalırmı?
22. Diqqətinizi eyni vaxtda bir neçə məsələyə yönəldə bilirsinizmi?
23. Müqayisələr aparmağı və nəticələr çıxarmağı xoşlayırsınızmı?
24. Hadisə və proseslərin gedişini rəqəmlərlə ifadə etmək məqsədəuyğundurmu?
25. Bir-birinin əksi olan məlumatları təhlil edib, nəticə çıxarmağı xoşlayırsınızmı?

Bu testdə şagirdlərin cavablandırdığı hər suala bir bal verilir. 2, 4, 5, 6, 7, 8, 9, 13, 14, 15, 18, 19, 21, 22, 23, 24 və 25-ci suallara "hə", 1, 3, 10, 11, 12, 16, 17 və 20-ci suallara "yox" cavabı düzgün cavab sayılır. Əgər şagird 17 baldan artıq yığıbsa, onun iqtisadiyyat sahəsində müəyyən peşə və ixtisas seçməyə meylinin düzgün olduğunu qiymətləndirmək olar. Şagird 9-17 bal toplayıbsa, bu sahədə müəyyən təsəvvürləri var və onları genişləndirmək mümkündür. Əgər yığılan ballar 9 baldan aşağıdırsa, şagirdin bu sahədə heç bir təsəvvür və meyli olmadığı qənaətinə gəlmək olar.

**Nümunə 3. Şagirdlərin pedaqoji peşələr üzrə meyl və marağını aşkarlamaq üçün test:**

1. Özündən kiçik uşaqlarla söhbət etməyi, gəzintiyə getməyi xoşlayırsanmı?
2. Çətin vəziyyətlərdə özünə, danışığına, hərəkət və davranışına nəzarət edə bilirsənmi?
3. Şeir, hekayə və başqa mətnləri ifadəli oxumağı xoşlayırsmızmı?
4. Xeyirxahlıqla obyektivlik, humanizmlə prinsipiallıq keyfiyyətləri bir yerdə mümkündürmü?
5. Boş vaxtlarımızda mütaliə ilə məşğul olursunuzmu?
6. Adamlarla ünsiyyətə tez girə bilirsinizmi?
7. Təşkilatçılıq etməyi, tələblər və komanda verməyi xoşlayırsınızmı?
8. Gördüyümüz işlərdə rejimə əməl etməyi xoşlayırsınızmı?
9. Radio və televiziyada məktəb, müəllim, şagird və tərbiyə məsələlərinə həsr olunmuş verilişlərə baxırsmızmı?
10. Səhnədə olmaq, adamlar qarşısında çıxış etmək istərdinmi?
11. Adamların üz ifadələrindən onun əhvali-ruhiyyəsini təyin edə bilirsənmi?
12. Çətin anlarda tez qərar qəbul edə bilirsinizmi?
13. Bir işlə məşğul olduqda diqqətinizi başqa bir işə, obyektə yönəldə bilirsinizmi?
14. Geyiminizə qarşı çoxmu diqqətlisiniz?
15. Bildiyiniz məsələlər haqqında başqalarına məlumat verməyi xoşlayırsınızmı?
16. Yenilikləri tez qəbul edirsinizmi?
17. Hər günün sonunda gördüyünüz işlər haqqında özünüzə hesabat verirsinizmi?
18. Sabah və ya bir neçə gün sonra görəcəyiniz işləri əvvəlcədən planlaşdırırsınızmı?
19. Yoldaşlarınızla ünsiyyətdə əl, üz ifadələrindən, təsirli baxışlardan istifadə edirsinizmi?
20. Müsahibə vasitəsilə adamlar haqqında fikir söyləməyi düzgün hesab etmək olarmı?
21. Yumor hissiniz varmı?
22. Yenilikləri öyrənməyə, hər gün bir yenilik haqqında məlumat əldə etməyə həvəsiniz varmı?
23. Gündəlik yazırsınızmı?
24. Başqa adamların taleyinin sizə etibar edilməsini istərdinizmi?
25. Xəttinizi yaxşılaşdırmaq üçün əlavə təmrinlərdən istifadə edirsiniz?

Bu testdə də şagirdlərin cavablarında hər suala bir bal verilir. Bütün suallarda «hə» cavabı müsbətdir. Yəni düzgün cavab hesab edilir. Əgər şagird 17 baldan yuxarı toplayıbsa, deməli, onun pedaqoji sahəyə - müəllimliyə həvəsi və meyli yüksəkdir. Əgər müsbət cavablar 9-17 bal toplayıbsa, onun müəllimlik peşəsinə meylinin zəif olduğu görünür. Əgər şagird 9 baldan aşağı toplayıbsa, onun bu sahədə maraq və meylinin olmadığı üzə çıxır.

Bu tipli testlər və onlara alternativ cavablar tərtib edib şagirdlərin maraq göstərdikləri peşələr və ixtisaslara nə səviyyədə - psixoloji, fizioloji, əqli, intellektual və mənəvi cəhətdən hazır olub-olmadığını yoxlamaq və öyrənmək olduqca faydalı olardı. Bunun üçün suallara düzgün cavab tərtib etmək də mühüm əhəmiyyət kəsb edir.

## Tam orta təhsil səviyyəsində peşəyönümü işinin təşkili üsulları

Tam orta təhsil səviyyəsində artıq təhsilalanların böyük bir qismi gələcək təhsil və peşə inkişafı ilə bağlı müəyyən planlara malik olurlar. Peşə planlarına bu mərhələdə erkən korreksiyaların edilməsi resurslara qənaət edilməsi, gələcəkdə təhsilalanların düzgün seçim etməməsi ilə bağlı məyusluğun aradan qaldırılması baxımından əhəmiyyətlidir. Bununla əlaqədar olaraq, müxtəlif diaqnostik testlərin və təhsil müəssisələrinin maarifləndirmə tədbirlərinin tədris ilinin əvvəlinə planlaşdırılması prosesin effektivliyini təmin edəcəkdir. Ali təhsil müəssisələrinin karyera mərkəzləri və ümumtəhsil müəssisələri arasında əməkdaşlığın burada ciddi rolu vardır. Şagirdlər tərəfindən təhsilin müxtəlif pillələri üzrə təhsil müəssisələrinin təklif etdiyi imkanlar və proqramlar barədə məlumatın erkən əldə olunması müxtəlif alternativlərin dəyərləndirilməsi, düzgün qərar verilməsi və qərarın realizəsi ilə bağlı fəaliyyətlərə yardımçı olur. Ali təhsil müəssisələri hədəf auditoriya olaraq 9-cu sinifdən etibarən özlərinin maarifləndirmə işlərinə başlamaları məqsədəuyğundur.

Tam orta təhsil səviyyəsində peşəyönümündə peşə təmayüllü siniflər xüsusi yerə malikdir. Təhsil Nazirliyinin qərarı ilə maddi-texniki tədris imkanları, ərazi (yerləşmə) prinsipləri (rayon (şəhər) mərkəzinə yaxınlığı, nəqliyyat qovşaqlarına münasibətdə yerləşməsi), təhsilalanların və pedaqoji heyətin sayı və digər infrastruktur göstəriciləri nəzərə alınmaqla müəyyən edilmiş ümumi təhsil müəssisələrində peşə təmayüllü siniflərin təşkili ilə həyata keçirilir. Bu siniflərdə ümumi təhsil fənləri ilə yanaşı, müxtəlif peşələrin əsasları praktik surətdə tədris olunur. Bu siniflərin məzunları artıq 11-ci sinfi bitirdikdə, əmək bazarında tələbat duyulan peşələrin aşağı səviyyəli kvalifikasiyasına malik olurlar. Bu cür siniflərdə tədris şagirdlərə həm alternativ seçim imkanları verir, həm də bilavasitə əmək bazarına daxil olmaq istəyənləri minimum kvalifikasiyalarla təmin edir.

Tam orta təhsil səviyyəsində əvvəlki səviyyələr ilə müqayisədə effektiv peşəyönümü alətləri aşağıdakılar ola bilər:


*Peşəyönümü xidməti barədə maarifləndirmə;*


*Diaqnostik qiymətləndirmə;*


*Məsləhət xidməti;*


*Təhsil müəssisələri ilə tanışlıq;*


*Praktiki təcrübə vasitələri ilə fəaliyyət;*


*Ayrı-ayrı peşələr haqqında araşdırmaların aparılması və təqdimatların hazırlanması;*


*Peşəkarlarla görüşlər;*


*Sosial səriştələrin əldə olunması ilə bağlı təlimlərin keçirilməsi;*

 *Ali təhsil müəssisələrinin tələbələri tərəfindən təqdimatların keçirilməsi;*

 *Təhsilalanların aşağı sinif şagirdləri üçün peşəyönümü ilə bağlı tədbirlərdə iştirakı;*

 *Müxtəlif təhsil müəssisəsi haqqında çəkilmiş videoçarxlar, təhsil müəssisəsinin şəraiti ilə yerində tanışlıq, "açıq qapı" günlərində iştirak.*

***Nümunə 1. "İş müsahibəsinə hazırlıq" rollu oyunu.***

Təlimat: Dərsi aparan şəxs öncədən müvafiq maarifləndirici təqdimatı və yoxlama vərəqəsini hazırlayır. Təqdimatda iş müsahibəsi nədir, müsahibənin formaları və müsahibəyə gedən şəxsin hansı məqamlara diqqət olmalı olduğu barədə ətraflı təqdimat hazırlayır. Daha sonra şagirdlərə yoxlama vərəqəsi paylanır. Vərəqələr daha çox özlərini müsahibəyə gedərkən hansı hallarda daha rahat hiss etmələri ilə bağlı suallar şəklində tərtib olunur. İştirakçılar arasından bir və ya iki nəfər seçilərək rollu oyun keçirilir. Digər iştirakçılar müşahidə edirlər. İştirakçıya iş təklifindən imtina edildiyi halda nə üçün imtina edildiyi barədə refleksiya aparılır.

***Nümunə 2: Təhsil müəssisələri və ixtisaslar haqqında məlumat xarakterli təqdimatlar***

Aşağı siniflərdən başlayan peşəyönümü üzrə keçirilən tədbirlər vasitəsilə artıq 10-11-ci sinif şagirdləri peşələr barədə təsəvvürə malikdirlər. Qərar qəbuletmənin düzgün istiqamətləndirilməsi məqsədilə peşəyönümü üzrə məsləhətçi ali və peşə təhsili müəssisələri ilə bağlı, ixtisaslar barədə, ixtisasların hansı təhsil müəssisəsində tədris olunması ilə bağlı təqdimat hazırlayır. Bununla təhsilalan, tam orta təhsil səviyyəsindən əmək bazarına necə inteqrasiya edəcəyi barədə məsləhətlər əldə edir, təhsilini hansı təhsil pilləsində, hansı istiqamətdə davam etdirməsi ilə bağlı müzakirələrdə iştirak edir.

## 2.2 Peşəyönümü fəaliyyətinin planlaşdırılması

Peşəyönümü işi məktəbdə aparılan bütün təlim və dərsdənkənar tədbirlər sisteminə daxil olduğundan mürəkkəb, çoxcəhətli, geniş və məqsədyönlü fəaliyyət tələb edir. Yalnız dəqiq planlaşdırdıqda bu fəaliyyətin təkmilləşdirilməsinə və optimal yollarla aparılmasına imkan verən tədbirləri qabaqcadan müəyyənləşdirmək mümkündür. Bu cəhətdən məktəbdə peşəyönümü işinin düzgün planlaşdırılması mühüm əhəmiyyət kəsb edir.

Məktəbdə peşəyönümü işinin planlaşdırılması mürəkkəb bir proses olub, pedaqoji kollektivlərin, təhsil və əmək müəssisələri nümayəndələrinin, məktəb və ictimaiyyətin birgə fəaliyyətini tələb edir. Bu işə yaradıcı, yüksək mədəniyyət və pedaqoji ustalıqla yanaşmaq lazımdır. Buna görə də:

**01** məktəbdə fəaliyyət göstərən ictimai təşkilatların peşəyönümü işini planlaşdırmaq bacarığı olmalı

**02** kollektiv daxilində ayrı-ayrı şagirdlərlə peşəyönümü işini planlaşdırmalı

**03** sinifdə peşəyönümü işinin planlaşdırılmasına məktəb işinin planlaşdırılması tələbləri baxımından yanaşmalı

**04** tədbirlərin və onların aparılması formalarının düzgün müəyyənləşdirilməsinə nail olmalı;

**05** şagirdlərin müxtəlif yaş qrupları ilə tədbirlərin keçirilməsini nəzərə almalı;

**06** planda müxtəlif formalardan istifadə edilməlidir.

Buradan da göründüyü kimi məktəbdə peşəyönümü işinin düzgün planlaşdırılması onun səmərəli təşkilinin əsas şərtlərindəndir. Ona görə də məktəbin peşəyönümü üzrə iş planları hazırlanarkən bu planlar həm məktəbin ayrı-ayrı sahələrini əhatə etməli, həm də bu planlar arasında sıx əlaqə gözlənilməlidir. Belə olduqda planın qarşısındakı məqsəd və vəzifələri yerinə yetirmək mümkündür. Məktəbin peşəyönümü planlarının xarakterik xüsusiyyətlərindən biri və başlıcası bu planların peşəyönümü sisteminin bütün komponentlərini özündə ehtiva etməsidir. Planda nəzərdə tutulan tədbirlər elə verilməlidir ki, o, peşəyönümünə, peşə məsləhətlərinə, peşə seçməyə və peşə adaptasiyasına xidmət etsin. Planın belə tərtibi məktəbdə peşəyönümü işinin sistemli, ardıcıl və məqsədyönlü aparılmasına əlverişli zəmin yaratmış olur. Bu zəmindən səmərəli istifadə isə məktəbdə peşəyönümü işinin müvəffəqiyyətlə yerinə yetirilməsinə səbəb olar. Məktəbdə peşəyönümü üzrə iş planı özünün sistemliliyi, dəqiqliyi ilə seçilməlidir. Həmçinin iş planında məktəblilərin yaş xüsusiyyətləri nəzərə alınmalıdır. Plan perspektiv olmalı və şagirdlərin inkişafında perspektiv xətləri nəzərə almalıdır. Şagirdlərin peşəyönümü üzrə iş planı ilk növbədə məktəbdə peşəyönümünün məqsədini nəzərə almaqla tərtib edilməli və bu məqsədin həyata keçirilməsinə yönəldilməlidir.

Məktəbdə peşəyönümü işinin düzgün planlaşdırılmasında əsas amillərdən biri bu işdə müəyyən prinsiplərin gözlənilməsidir. Buna görə də iş planı tərtib edilərkən aşağıdakı bir sıra prinsiplərin gözlənilməsi mühüm əhəmiyyət kəsb edir:

- Tərbiyəvilik
- Elmilik
- Perspektivlik və dinamiklik
- Komplekslik
- Optimallıq

Məktəbin peşəyönümü işinin planlaşdırılması zamanı qeyd olunan prinsiplərin gözlənilməsi həmin planın həm məzmunlu və operativ olmasına, həm də şagirdlərin nəzəri və praktik cəhətdən hərtərəfli hazırlığının təmin edilməsinə səbəb olur.

İş planı tərtib edilərkən bu prinsiplərin əldə rəhbər tutulması bir sıra digər tələblərlə də əlaqələnir. Buna görə də məktəbdə peşəyönümü işlərinin planlaşdırılması zamanı bir sıra pedaqoji tələblərin də gözlənilməsi vacibdir. Bu tələblər əsasən aşağıdakılardan ibarətdir:




Ümumtəhsil məktəblərində peşəyönümü üzrə aparılacaq işlər məktəbin ümumi iş planında, sinifdən və məktəbdənkənar tərbiyə işləri üzrə təşkilatçının, uşaq birliyi təşkilatının, sinif rəhbərlərinin iş planlarında, tədris məşğələlərinin tematik planlarında qeyd oluna bilər.

Məktəbdə peşəyönümü işini daha səmərəli təşkil etmək üçün ayrı fəaliyyət planı da tərtib etmək olar. Bu zaman hazırlanmış plan məktəbdə təlim-tərbiyə işlərinin planlaşdırılmasına verilən pedaqoji tələblərə, məktəbin şəraitinə, yerləşdiyi regionun spesifik xüsusiyyətlərinə uyğun olmalıdır. İş planında yeni dərs ilində görüləcək işlər, yerinə yetiriləcək vəzifələr konkret qeyd olunmalıdır. Görüləcək işlər xüsusi bölmələr üzrə verilməli, tədbirlərin keçirilmə vaxtı və yeri, bunun üçün məsul şəxslər göstərilməlidir.

Məktəbdə peşəyönümü işinin planlaşdırılmasma verilən ümumi tələblər.

- Məktəb direktorunun və məktəbin peşəyönümü komissiyasının ümumməktəb peşəyönümü tədbirlərini planlaşdırması;
- pedaqoji kollektivlə işlər;
- peşə məlumatı işləri;
- peşə məsləhəti işləri;
- Məktəb metodbirləşmələrinin peşəyönümü tədbirlərini planlaşdırması.
- Sinif rəhbərlərinin peşəyönümü işlərini planlaşdırması.
- Fənn müəllimlərinin peşəyönümü işlərini planlaşdırması.
- Məktəb uşaqlar birliyinin peşəyönümü üzrə işlərin planlaşdırılması.
- Məktəb kitabxanasının peşəyönümü işini planlaşdırılması.
- Məktəb həkiminin peşəyönümü işlərini planlaşdırması.
- Məktəb valideyn komitəsinin peşəyönümü işlərini planlaşdırması.
- Məktəb hərbi rəhbərinin peşəyönümü tədbirlərini planlaşdırması.

Belə olduqda məktəbdə peşəyönümü işi planlaşdırılarkən məktəbin pedaqoji kollektivlərinin bütün üzvləri ümumi iş planına uyğun peşəyönümü planları tərtib etməlidirlər. Burada ayrı-ayrı siniflərin spesifikasiyasını, şagirdlərin yaş xüsusiyyətlərini nəzərə almaq lazımdır. Məsələyə bu baxımdan yanaşdıqda məktəbdə peşəyönümü üzrə aşağıdakı iş planlarının olması vacibdir:

- Məktəbin ümumi (perspektiv) iş planı.
- Məktəb uşaq birliyi təşkilatlarının iş planı.
- Sinif rəhbərlərinin iş planı.
- Müxtəlif tədbirlərin cari iş planları.
- Fənn müəllimlərinin peşəyönümü üzrə tematik planları.

Lakin yaddan çıxarmaq olmaz ki, təkcə planlaşdırma ilə məktəbdə peşəyönümü işini müvəffəqiyyətlə yerinə yetirmək olmaz. Bu, işin təşkili üçün yalnız səmərəli başlanğıc və elmi istiqamət ola bilər. Hətta öz məzmununa və formasına görə ideal olan planlaşdırma, planların yerinə yetirilməsi üzərində nəzarət və bütün pedaqoji kollektiv qəbul etdikləri plan tapşırıqlarını və öhdəliklərini vaxtında və bütünlüklə həyata keçirmək üçün səfərbər olmazsa, müsbət nəticə verə bilməz.

## *2.3 Peşə təmayüllü siniflərin komplektləşdirilməsi*

Müşahidələr onu deməyə əsas verir ki, yuxarı siniflərdə təhsil alan şagirdlər məktəb mühitində şəxsi inkişaf və fərdi qabiliyyətlərin üzə çıxarılması üçün kifayət qədər imkanların olmaması, öz maraq, meyl və bacarıqlarına uyğun fənləri və yaxud müəllimləri seçmək kimi bir şanslarının olmadığını düşünürlər. Effektiv peşəyönümü xidmətini həyata keçirmək üçün kütləvilikdən uzaqlaşaraq, hər bir təhsilalana fərdi yanaşmağın vacibliyini artıq qeyd etmişik. Müasir məktəb şəraitində bu prosesin səmərəli idarəolunması üçün təhsilalanların peşə diaqnostikasından sonra əldə olunan nəticələr nəzərə alınaraq qruplaşdırılması, maraq və meylləri oxşar olan təhsilalanları qruplaşdıraraq uyğun məsləhət və təlim tədbirlərinin aparılması məqsədəmüvafiqdir. Ümumi orta təhsil səviyyəsində qruplaşdırmanı peşəyönümü şəxsiyyət növünə (realist, intellektual, artistik, sosial, sahibkar, konvensial), diaqnostik testləşdirmənin nəticələrinə görə aparmaq olar. Amma təkcə diaqnostik testlərin və sorğuların nəticələrinə əsaslanaraq qruplaşdırmanı etmək düzgün nəticə verməyə bilər. Belə ki, təhsilalanın motivasiyası və stimulu da çox vacibdir.

Bununla əlaqədar olaraq, təhsilalanla şifahi müsahibənin aparılması, həm testlərin, həm də müsahibənin nəticələrini ümumiləşdirərək qrupları müəyyənləşdirmək mümkündür.

Qrupların tərkibi müşahidələr əsasında zamanla dəyişə bilər. Əgər bir müddətdən sonra şagirdin başqa bir qrupda daha uğurlu ola biləcəyi düşünülərsə, peşəyönümü koordinatoru, sinif rəhbəri, fənn müəllimi, valideynlər də cəlb olunmaqla məşvərətləşərək, qrupu dəyişmək mümkündür. Lakin ilk və başlıca nəzərə almalı olduğumuz məqam şagirdin könüllü surətdə hər hansı qrupda olmaq istəyidir.

Tam orta təhsil səviyyəsində peşəyönümü işinin təşkil formalarından biri də təmayül siniflərinin yaradılmasıdır. Bu zaman şagirdlər özünün seçdiyi və sevdiyi istiqamət üzrə tam orta təhsil alır. Təmayülləşmənin tətbiqində əsas məqsəd ümumi orta təhsil səviyyəsində təhsil nailiyyəti ilə fərqlənən, bu və ya digər fənn qrupu üzrə təhsil almağa xüsusi meyl və maraq göstərən şagirdlərin müəyyən edilməsi və onlar üçün əmək bazarı ehtiyacları nəzərə alınmaqla səmərəli təhsil şəraitinin yaradılmasıdır. Artıq iki ildir ki, "Texniki", "Riyaziyyat-iqtisadiyyat", "Humanitar" və "Təbiət" təmayül istiqamətlərindən savayı, müxtəlif regionlarda peşə təmayül sinifləri də təşkil olunur. Bu siniflərdə ölkə və regional səviyyədə mövcud olan əmək bazarı ehtiyacları nəzərə alınmaqla, praktik bilik və bacarıqların formalaşdırılması üçün müxtəlif peşə sahələrinə aid modullar tədris edilir. Bütövlükdə təmayül siniflərin təşkil edilməsində nəzərə alınmalı bir neçə faktor mövcuddur

1. Bu siniflərə qəbul könüllülük prinsipi əsasında həyata keçirilir;
2. Təmayül siniflərində tədris şagirdlərin peşə özünütəyini və öz imkanları barədə adekvat təsəvvürün formalaşdırılması məqsədi daşıyır;
3. Əvvəlki səviyyələrdə əldə olunmuş bilik, bacarıq, səriştələrin dərinləşdirilməsinə xidmət edir;
4. Fərdi yanaşma tələb olunduğu üçün şagird sayı məhdud olur;
5. Təmayül siniflərin təşkili üçün məktəbin yetərli infrastrukturu, maddi-tədris bazası, yüksək ixtisaslı kadr potensialı, eləcə də müvafiq sosial sifarişin olmasına diqqət edilməlidir.

Təmayül siniflərin komplektləşdirilməsi üçün qanunvericiliklə şagird sayına məhdudiyyət tətbiq olunur. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12 may 2020-ci il tarixli, 167 nömrəli qərarına əsasən "Peşə təmayüllü siniflər 15 nəfərdən az, 20 nəfərdən artıq şagird olmamaqla təşkil olunur. Qəbul zamanı eyni təmayüllü sinfə müraciət edənlərin sayı 20 nəfərədək olduqda, müraciət edənlər təmayüllü sinfə müsabiqəsiz qəbul edilirlər, 20 nəfərdən çox olduqda isə müəssisənin rəhbərliyi tərəfindən müsabiqə təşkil olunur. Müsabiqə təhsilalanların IX sinif buraxılış imtahanları üzrə nəticələrinə əsasən həyata keçirilir və həmin nəticələrə əsasən göstəriciləri daha yaxşı olanlar qəbul edilirlər. Peşə təmayüllü siniflərdə təhsil almaq istəyənlər həmin siniflərin təşkil olunduğu müəssisənin rəhbərliyinə ərizə ilə müraciət edirlər".

## 2.4 Peşə təmayüllü siniflərdə müxtəlif peşə sahələrinə aid modulların tədrisi

Peşə təmayüllü siniflərdə ölkə və regional səviyyədə mövcud olan əmək bazarı ehtiyacları nəzərə alınmaqla, praktik bilik və bacarıqların formalaşdırılması üçün müxtəlif peşə sahələrinə aid modullar tədris edilir.

Peşə təmayüllü siniflər üçün tədris planı və tədris resursları Nazirlik tərəfindən hazırlanır. Peşə sahələrinə aid modullar və ya ümumi peşə səriştələrinin tədrisinə ayrılan saatların miqdarı (o cümlədən, təcrübə məşğələləri nəzərə alınmaqla) Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 3 iyun tarixli 103 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)"nda nəzərdə tutulan tam orta təhsil səviyyəsi üzrə həftəlik dərs saatlarının maksimum miqdarının ən azı 1/3-ni təşkil etməlidir.

Peşə təmayüllü siniflərin yerləşdiyi ümumtəhsil məktəbləri müxtəlif peşələrə uyğun yeni emalatxanalar, sinif otaqları və müvafiq avadanlıqlarla təchiz edilmişdir. 2019-2020-ci tədris ilində ümumtəhsil məktəblərinin peşə təmayüllü siniflərində dülgər, çilingər, aşpaz, kombi-kondisioner ustası və santexnik, mebel quraşdırma, aqronom, dərzi peşə ixtisasları tədris edilirdisə, 2020-2021-ci tədris ilində isə əlavə dörd peşə ixtisasının (qənnadçı, bərbər, xalçaçılıq, İKT) tədrisinə başlanılmışdır. Həmçinin, cari ildən daha 20 məktəbdə isə 417 nəfər şagird üçün "Sürücülük" modulunun tətbiqinə başlanılmışdır.

2019-2020-ci tədris ilindən etibarən respublikanın 14 şəhər və rayonlarının 20, 2020-2021-ci tədris ilində isə daha 15 şəhər və rayon əlavə olunmaqla 35 ümumtəhsil müəssisəsinin hər birində bir peşə təmayüllü sinif yaradılmışdır. Bu işlərin arialının növbəti tədris ilindən daha da genişləndirilməsi nəzərdə tutulur. Ümumtəhsil məktəblərinin X-XI siniflərində yaradılmış peşə təmayüllü siniflərində dülgər, çilingər, aşpaz, kombi-kondisioner ustası, santexnik, mebel quraşdırma, aqronom, dərzi, qənnadçı, bərbər, xalçaçı, İKT və sürücülük peşə ixtisasları tədris olunur. Müxtəlif peşə sahələrinə aid hər bir modulun tədrisindən öncə "Peşə təmayüllü siniflərdə (kənd təsərrüfatı, xidmət və tikinti-təmir) barədə ümumi məlumat, iş şəraitində əmək, təhlükəsizlik və sağlamlıq qaydaları" üzrə proqram tədris edilir. Bu proqram materiallarının nümunəvi planı əlavədə verilmişdir (**Əlavə 1).**

Peşə təmayüllü siniflərində tədris olunan bəzi peşə ixtisaslarına dair modul üzrə təlim nəticələrinə diqqət yetirək.



**Modulun adı: Çiyələk əkini**
**Modulun nömrəsi: B.3.4.1.**

**Təlim nəticəsi: Bu modulu bitirdikdən sonra şagird:**
B.3.4.1.1. Çiyələk bitkisi haqqında ümumi məlumatları və bio-botaniki xarakteristikasını bilir.
B.3.4.1.2 . Çiyələyin əkilmə qaydasını bilir və əkin sahəsini hazırlamağı, çiyələyin əkilmə prosesini bacarır.
B.3.4.1.3. Çiyələyin çoxaldılması, suvarılması üsullarını, qida maddələrinin qəbulunu bilir və tətbiqini bacarır.
B.3.4.1.4. Qida maddələrinin çatışmazlıq və xəstəliklərini bilir və onlara qarşı mühafizə tədbirləri həyata keçirməyi bacarır
B.3.4.1.5. Çiyələyin toplanması, çiyələk meyvəsinin texniki emalını və bazara hazırlanmasını bacarır.



**Modulun adı: Kartof əkini**
**Modulun nömrəsi: B.3.4.2.**

**Təlim nəticəsi: Bu modulu bitirdikdən sonra şagird:**
B.3.4.2.1.Təhsilalan kartof bitkisi əkininin əsaslarını bilir və bununla da həmin bitkinin səmərəli əkilməsi üçün bütün lazımi tədbirləri həyata keçirməyi bacarır.
B.3.4.2.2. Təsərrüfatda növbəli əkini müəyyənləşdirən faktorları bilir və bitki tərkibini tələbata əsasən lazımi qida maddələri ilə təmin etməyi və zərərvericilərdən mühafizə etməyi bacarır.
B.3.4.2.3. Bitkilərin inkişaf mərhələləri haqqında biliklər əsasında və təbiət hadisələrindən asılı olmayaraq yüksək məhsuldarlıq və keyfiyyətli məhsul əldə etmək üçün bütün tədbirləri düzgün və vaxtında tətbiq etmək iqtidarındadır.
B.3.4.2.4. Məhsulun yığılma vaxtını müəyyən edə bilir, məhsul yığımını özü həyata keçirməyi və ya məhsul yığımını təşkil etməyi bacarır.
B.3.4.2.5. Kartofun düzgün saxlanmasını və satışını təşkil edə bilir.



**Modulun adı: Sitrus əkini**
**Modulun nömrəsi: B.3.4.2.**

**Təlim nəticəsi: Bu modulu bitirdikdən sonra şagird:**
B.3.4.2.1.Şagird sitrus bitkilərinin əkininin əsaslarını bilir və bununla da həmin bitkinin səmərəli əkilməsi üçün bütün lazımi tədbirləri həyata keçirməyi bacarır.
B.3.4.2.2. Təsərrüfatda sitrus əkinini müəyyənləşdirən faktorları bilir və bitki tərkibini tələbata əsasən lazımi qida maddələri ilə təmin etməyi və zərərvericilərdən mühafizə etməyi bacarır.
B.3.4.2.3. Bitkilərin inkişaf mərhələləri haqqında bilir.Yüksək məhsuldarlıq və keyfiyyətli məhsul əldə etmək üçün bütün tədbirləri düzgün və vaxtında tətbiq etməyi bacarır.
B.3.4.2.4. Məhsulun yığılma vaxtını müəyyən edə bilir, məhsul yığımını özü həyata keçirə bilir.
B.3.4.2.5. Sitrus meyvəsinin düzgün saxlanmasını və satışını təşkil edə bilir.



**Modulun adı: Meyvəçilik işçisi (tumlu meyvə ağaclarının əkini)**
**Modulun nömrəsi: B.3.4.6.**

**Təlim nəticəsi: Bu modulu bitirdikdən sonra şagird:**
B.3.4.6.1. Tinglik üçün ərazinin seçilməsinə və onun təşkililinə qoyulan tələbləri sadalayır.
B.3.4.6.2. Sahənin seçilməsində təbii və təsərrüfat-təşkilati şəraiti nəzərə alır.
B.3.4.6.3.Sahənin hazırlanması və təşkilini həyata keçirir.
B.3.4.6.4. Tinglikdə əkin dövriyyəsini tərtib edir və bağ sahələrini planlayır.
B.3.4.6.5. Bağlarda bitki xəstəliklərini müəyyən edir və onlardan mühafizə tədbirlərini həyata keçirir.
B.3.4.6.6. Bağlarda bitki zərərvericilərini müəyyən edir və zərərvericilərdən mühafizə tədbirləri həyata keçirə bilir.
B.3.4.6.7. Budama və budamanın dərəcələrini (yüngül, orta, ağır (güclü) fərqləndirir. Bağlarda budama işlərini yerinə yetirir.
B.3.4.6.8. Calaq komponentlərinin qarşılıqlı təsirini bilir. Calaqaltının calaqüstüyə və calaqüstünün calaqaltıya təsirini bilir. Tumlu meyvə bitkilərinin toxmacar calaqaltılarını tanıyır.
B.3.4.6.9. Calaq materialını seçə bilir. Müxtəlif tumlu meyvə bitkilərində müxtəlif calaq növlərini həyata keçirməyi bacarır.
B.3.4.6.10. Bağçılıqda kənd təsərrüfatı texnikasını sadalayır və bu taxnikalardan təyinatına görə istifadə edir.
B.3.4.6.11. Bağçılıqda kənd təsərrüfatı avadanlıqlarını sadalayır və bu avadanlıqlardan istifadə edir.
B.3.4.6.12. Tumlu meyvələrin əkilməsi və çoxaldılması işlərini həyata keçirir.
B. 3.4.6.13. Tumlu meyvələrin budanmsı, suvarılması və gübrələnməsi işlərini həyata keçirir.
B.3.4.6.14. Tumlu meyvə bitkilərinin yığımını və emalını həyata keçirir.
B.3.4.6.15. Tumlu meyvə bitkilərinin saxlanılması və satışa hazırlanması ilə bağlı işləri düzgün həyata keçirməyi bacarır.



**Modulun adı: Aşpaz köməkçisi**
**Modulun nömrəsi: B.3.5.2.**

**Təlim nəticəsi: Bu modulu bitirdikdən sonra şagird:**
B.3.5.2.1. Mətbəxtdə əmək təhlükəsizliyi texnikası və sanitariya – gigiyena qaydalarını bilir,onlara əməl edərək salat və soyuq qəlyanaltılar hazırlayır.
B.3.5.2.2. Şorbaların hazırlama qaydalarını bilir və nəfis tərzdə təqdim edməyi bacarır
B.3.5.2.3. Milli Azərbaycan yeməklərini isti emal üsullarına əsasən hazırlamağı bilir və süfrəyə təqdim etməyi bacarır.
B.3.5.2.4. Dünya mətbəxinə məxsus olan yeməklər haqqında məlumat verməyi bilir və hazırlanma texnologiyasını bacarır.



**Modulun adı: Dərzi köməkçisi**
**Modulun nömrəsi: B.3.5.8.**

**Təlim nəticəsi: Bu modulu bitirdikdən sonra şagird:**
B.3.5.8.1. Tikiş istehsalında tətbiq edilən tikiş maşınları, isti – nəmləndirmə əməliyyatlarının (İNƏ) avadanlıqları haqqında ümumi məlumatı bilir.
B.3.5.8.2. Geyimin bədii layihələndirilməsinin əsaslarını bilir və insan fiqurunun mütənasibliyə görə sxemini qurub çəkməyi bacarır.
B.3.5.8.3. Tikiş məmulatlarının hazırlanma texnologiyasını bilir və əl və maşın işlərini yerinə yetirməyi bacarır.
B.3.5.8.4. Biçmə və geyimin hazırlanmasını bacarır.



**Modulun adı: Dülgər köməkçisi (döşəmə - parket işləri)**
**Modulun nömrəsi: B.3.6.4.**

**Təlim nəticəsi: Bu modulu bitirdikdən sonra şagird:**
B.3.6.4.1. Sxem və çertyojları oxuyur.
B.3.6.4.2. Dülgərlik işi haqqında ümumi məlumatı bilir və materialları təyinatına görə seçməyi bacarır.
B.3.6.4.3. Dülgərlik material, alət və avadanlıqların iş prinsipini bilir və onlardan təyinatına görə istifadə edir.
B.3.6.4.4. Taxta tavanların qurulması ardıcıllığını bilir və icra edir.
B.3.6.4.5. Taxta döşəmə və parketin vurulma prosesini icra edir.



**Modulun adı: Çilingər (su – kanalizasiya quraşdırma) köməkçisi**
**Modulun nömrəsi: B.3.6.2.**

**Təlim nəticəsi: Bu modulu bitirdikdən sonra şagird:**
B.3.6.2.1. Ölçmə, kəsmə, yiyələmə, deşmə, yiv açma alətlərindən istifadə qaydalarını bilir və müvafiq işləri yerinə yetirməyi bacarır.
B.3.6.2.2. Metal, polietilen boruların birləşdirmə üsullarını yerinə yetirməyi bacarır.
B.3.6. 2.3. Kiçik diametrli boruları əyməyi və müxtəlif armaturları təyinatına görə quraşdırmağı, sökməyi, təmir etməyi bacarır.
B.3.6.2.4. Pnevmatik və hidravlik elektrik qurğularından, qaynaq aparatından istifadə etməyi bacarır.
B.3.6.2.5. Bina girişinin, sulama kranlarının, ölçü cihazının və yanğın əleyhinə su təchizatı sistemini quraşdırmağı bacarır.
B.3.6.2.6 Mənzildaxili kanalizasiya xətlərini quraşdırmaq və təmirini bacarır.



**Modulun adı: İT proqramçı**
**Modulun nömrəsi: B.3.5.2.**

**Təlim nəticəsi: Bu modulu bitirdikdən sonra şagird:**
B.3.5.2.1. Rəqəmsal məzmun hazırlamağı bacarır.
B.3.5.2.2. İnformasiya texnologiyalarını idarə etməyi bacarır.
B.3.5.2.3. Bəzi media vasitələrindən istifadə etməklə, peşəkar şəkildə əlaqə qurmağı bacarır.
B.3.5.2.4. Şəbəkə topologiyaları və onların tərkib hissələri haqqında məlumatları bilir.
B.3.5.2.5. Şəbəkə strukturunda texniki vasitələrlə birləşmə yaratmağı bacarır.



**Modulun adı: Mebel quraşdırma ustası**
**Modulun nömrəsi: B.3.6.5.**

**Təlim nəticəsi: Bu modulu bitirdikdən sonra şagird:**
B.3.6.5.1. Sxem və çertyojları oxuyur.
B.3.6.5.2. Dülgərlik işi haqqında ümumi məlumatı bilir və materialları təyinatına görə seçməyi bacarır.
B.3.6.5.3. Dülgərlik materiallar, alət və avadanlıqların iş prinsipi və onlardan təyinatına görə istifadə edilməsi.
B.3.6.5.4. Mebel işində bağlantı və bərkitmələr.
B.3.6.5.5. Tac elementlərinin növləri və montajı.
B.3.6.5.6. Baza ayaqlar formasına görə fərqləndirir və onlardan təyinatı üzrə istifadə etməyi bacarır.
B.3.6.5.7. Arxalıqların təyinatını bilir və quraşdırır.
B.3.6.5.8. Mebel elementlərinin qablaşdırılmasında istifadə olunan ölçü, material və təyinat meyarları və onlara görə qablaşdırmanın həyata keçirilməsi.
B.3.6.5.9. Sabit mebel hissələrinin birləşdirilməsində istifadə olunan farniturları və onların köməyi ilə montajın həyata keçirilməsi.

*Peşə təmayüllü siniflərdə praktik bilik və bacarıqların formalaşdırılması üçün müxtəlif peşə sahələrinə aid bir neçə modulun tədris proqramına dair nümunə əlavədə verilmişdir* ***(Əlavə 2, 3, 4).***

## 2.5 Peşə təmayüllü siniflərində şagird nailiyyətlərinin qiymətləndirilməsi

Ümumi təhsil müəssisələrinin peşə təmayüllü siniflərində təhsilalanların nailiyyətlərinin qiymətləndir- ilməsi üç istiqamətdə aparılır:

- təhsilalanların ümumi təhsil fənləri üzrə bilik, bacarıq və səriştələrinin qiymətləndirilməsi (attestasi yası);
- təhsilalanların peşə fənləri üzrə bilik, bacarıq və səriştələrinin qiymətləndirilməsi;
- təhsilalanların yekun attestasiyası.

Təhsilalanların ümumi təhsil fənləri üzrə bilik, bacarıq və səriştələrinin qiymətləndirilməsi (attestasi- yası). Təhsilalanların ümumi təhsil fənləri üzrə bilik, bacarıq və səriştələrinin qiymətləndirilməsi (attestasiyası) Azər- baycan Respublikasının Təhsil Nazirliyinin Kollegiyasının 2020-ci il 21 may tarixli KQ-03 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ümumi təhsil pilləsində təhsilalanların attestasiyasının (məktəbdaxili qiymətləndirmə) aparıl- masının müvəqqəti Qaydası”na uyğun aparılır.

Qaydalara əsasən məktəbdaxili qiymətləndirmədə tapşırıqvermə üsulundan (test, inşa, imla, çalışma) istifadə olunur, nəticələr 100 ballıq şkala ilə ölçülür, illik ballar və qiymət sinif jurnalı və “Məktəbli kitabçası”n- da yazılır.

Hər hansı fənn üzrə illik qiyməti “2” olan və bu qiymətlə razılaşmayan V-VIII və X sinif şagirdləri (onların valideynləri və ya digər qanuni nümayəndələri) illik qiymətin sinif jurnalına və məktəbli kitabçasına yazıldığı tarixdən 30 gün müddətində məktəbdaxili qiymətləndirmənin təşkili üçün ümumi təhsil müəssisəsi- nin rəhbərinə müraciət edə bilərlər. Həmin şagirdlərin təkrar qiymətləndirilməsi təhsil proqramında (kuriku- lumda) I yarımil üzrə müəyyənləşdirilmiş məzmun standartları əsasında hazırlanmış qiymətləndirmə vasitələri ilə aparılır.

Hər hansı fənn üzrə illik qiyməti “3” və ya “4” olan və bu qiymətlərlə razılaşmayan V-VIII və X sinif şagirdləri (onların valideynləri və ya digər qanuni nümayəndələri) illik qiymətin sinif jurnalına və məktəbli kitabçasına yazıldığı tarixdən 30 gün müddətində məktəbdaxili qiymətləndirmənin təşkili üçün ümumi təhsil müəssisəsinin rəhbərinə müraciət edə bilərlər. Həmin şagirdlərin təkrar qiymətləndirilməsi təhsil proqramında (kurikulumda) II yarımil üzrə müəyyənləşdirilmiş məzmun standartları əsasında hazırlanmış qiymətləndirmə va- sitələri ilə aparılır. Şagirdin tədris ili üzrə illik balları onun həmin qiymətləndirmədə topladığı balların və tədris ilinin I yarımili üçün yarımillik ballarının ədədi ortası kimi hesablanır.

Məktəbdaxili qiymətləndirmədə istifadə olunan qiymətləndirmə vasitələri hər bir sinif və fənn üzrə 4 səviyyədə tərtib edilir. 1-ci və 2-ci səviyyəyə təhsilalanların əksəriyyətinin cavablandıra biləcəyi suallar aid edilir. 3-cü və 4-cü səviyyəyə daha hazırlıqlı şagirdlərin cavablandıra biləcəyi suallar aid edilir. Səviyyələr üzrə sualların qiymətləndirmə ballarının 100 ballıq şkalada bölgüsü aşağıdakı kimi nəzərdə tutulur:

- 1-ci səviyyə üzrə suallar qiymətləndirmənin 20%-ni (və ya 20 bal) təşkil edir;
- 2-ci səviyyə üzrə suallar qiymətləndirmənin 30%-ni (və ya 30 bal) təşkil edir;
- 3-cü səviyyə üzrə suallar qiymətləndirmənin 30%-ni (və ya 30 bal) təşkil edir;
- 4-cü səviyyə üzrə suallar qiymətləndirmənin 20%-ni (və ya 20 bal) təşkil edir.

Tədris ili üzrə şagirdin illik ballarının “2”, “3”, “4”, “5” qiymətlərinə uyğunluğu aşağıdakı qaydada müəyyənləşdirilir:

- 30-dək (30 daxil olmaqla) olan ballar “2” qiyməti ilə;
- 30-dan 60-dək (60 daxil olmaqla) olan ballar “3” qiyməti ilə;
- 60-dan 80-dək (80 daxil olmaqla) olan ballar “4” qiyməti ilə;
- 80-dən 100-dək (100 daxil olmaqla) olan ballar “5” qiyməti ilə.

## Təhsilalanların peşə fənləri üzrə bilik, bacarıq və səriştələrinin qiymətləndirilməsi

Təhsilalanların peşə fənləri üzrə bilik, bacarıq və səriştələrinin qirmətləndirilməsi Azərbaycan Respublikasının Təhsil Nazirliyinin Kollegiyasının 2020-ci il 21 may tarixli KQ-04 nömrəli Qərarı ilə təsdiq edilmiş “Peşə təhsili pilləsində təhsilalanların attestasiyasının aparılmasının müvəqqəti Qaydası”na əsasən həyata keçirilir.

Qaydalara əsasən təhsilalanların peşələr üzrə bilik, bacarıq, səriştə səviyyəsini və müstəqil işə hazırlığını müəyyənləşdirmək məqsədi ilə təhsil proqramının sonunda onların yekun qiymətləndirilməsi keçirilir.

Yekun qiymətləndirmə təhsil proqramında yer alan hər bir modulun təlim nəticələri üzrə nəzəri biliklərin və tətbiqi (praktik) bacarıqların müəyyən edilməsi üçün təhsilalanın səriştəsinin qiymətləndirilməsindən ibarətdir.

Təhsilalanların səriştəsinin qiymətləndirilməsi Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi (bundan sonra – Agentlik) tərəfindən yaradılan Dövlət Attestasiya Komissiyası (bundan sonra – DAK) tərəfindən keçirilir. Komissiyanın tərkibinə şagirdin (tələbənin) təhsil aldığı peşə təhsili müəssisəsinin direktoru, tədris-istehsalat işləri üzrə direktor müavini, baş usta, ixtisası tədris edən istehsalat təlimi ustaları və sahə üzrə mütəxəssis daxil edilir. DAK-ın sədri DAK-ın üzvləri arasından Agentlik tərəfindən təyin olunur. DAK-ın qərarları üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Qərar qəbul edilərkən səslər bərabər olduqda, DAK sədrinin səsi həlledicidir.
Yekun qiymətləndirmədə tapşırıqvermə üsulundan istifadə olunur.

Modulun təlim nəticələri üzrə nəzəri biliklərin və tətbiqi (praktik) bacarıqların müəyyən edilməsi üçün səriştənin qiymətləndirilməsi nəticələri 5 ballıq qiymət şkalası (2,3,4,5) ilə ölçülür. Təhsilalanlar tapşırıq üzrə meyarları 20%-dək yerinə yetirdikdə “2”, 20%-60% yerinə yetirdikdə “3”, 60%-80% yerinə yetirdikdə “4”, 80%-100% yerinə yetirdikdə “5”-lə qiymətləndirilir.
Təhsilalanın səriştəsinin qiymətləndirilməsindən aldığı qiymət onun yekun qiyməti hesab olunur.

Yekun qiymətləndirmənin nəticələri imtahan protokoluna yazılır və DAK-ın sədri və üzvləri tərəfindən imzalanır. DAK-ın qərarı əsasında məzunlara ixtisas dərəcəsi göstərilməklə peşə təhsili haqqında sertifikat verilir. Peşə təhsili müəssisələrinə tələbə qəbulu zamanı sertifikatı olan şəxslər peşə təhsili müəssisəsinə müsabiqədənkənar qəbul edilir və müvafiq ixtisasın proqramında tədris olunmuş modullar nəzərə alınır.

Yekun qiymətləndirmədə iştirak etməyən və ya qeyri-müvəffəq qiymət almış təhsilalanlar peşə təhsili müəssisəsinin müəyyən etdiyi vaxtlarda ildə 1 (bir) dəfə olmaqla növbəti 2 (iki) il müddətində keçirilən yekun qiymətləndirmədə iştirak edə bilərlər. Yekun qiymətləndirmədə iştirak etməyənlərə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 21 yanvar tarixli 12 nömrəli Qərarı ilə təsdiq edilmiş “Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə arayışın verilməsi Qaydası”na əsasən arayış verilir.

Yekun qiymətləndirmənin nəticələri ilə razılaşmayan təhsilalanlar, onların valideynləri və ya digər qanuni nümayəndələrinin müraciətlərinə Agentlik tərəfindən baxılır.

Yekun qiymətləndirmənin nəticələri ilə razılaşmayan təhsilalanlar, onların valideynləri və ya digər qa- nuni nümayəndələrinin müraciətlərinə Agentlik tərəfindən baxılır.

### Təhsilalanların yekun attestasiyası

Təhsilalanların yekun attestasiyası isə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 12 dekabr tarixli 498 nömrəli qərarı ilə təsdiq edilmiş "Ümumi təhsil pilləsində təhsilalanların yekun qiymətləndirilməsinin (attestasiyasının) aparılması Qaydaları"na uyğun olaraq həyata keçirilir.

Ümumi təhsil müəssisələrində təhsilalanların yekun attestasiyası ümumi təhsil pilləsinin ümumi orta və tam orta təhsil səviyyələrini başa vuran təhsilalanların təhsildə nailiyyətlərinin qiymətləndirilməsi məqsədilə Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi (bundan sonra – Mərkəz) tərəfindən aparılır.

Təhsilalanların yekun attestasiyası üçün Mərkəz tərəfindən buraxılış imtahanı keçirilir. Buraxılış imtahanının məzmunu, yəni təhsilalanlara təqdim edilən tapşırıqların növü və qiymətləndirilmə qaydası Mərkəz və Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən birgə müəyyən edilir və hər il tədris ilinin başlanılmasın- dan 1 ay müddət keçənədək elan edilir. Tapşırıqların məzmunu "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 29.0.12-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş dövlət təhsil standartlarına və proqramlarına (kurikulumlara) uyğun müəyyən edilir.

Təhsil sənədinə yazılacaq yekun qiymət (qiymətlər) Mərkəz tərəfindən aşağıdakı qaydada çıxarılır:

- buraxılış imtahanı aparılan hər bir fənn üzrə şagirdin buraxılış sinfinin yekun (illik) qiyməti və
- buraxılış imtahanının balı;
- buraxılış imtahanı aparılmayan hər bir fənn üzrə şagirdin buraxılış sinfinin yekun (illik) qiyməti.

## *2.6 Karyera planlaşdırılmasına dair tövsiyələr*

Təhsil almağımızda, müəyyən bir sənətin mütəxəssisi olmağımızda ən əsas məqsədlərimizdən biri uğurlu karyera qurmaqdır. Karyera - insanın həyatı boyunca işgüzar təcrübə və fəaliyyətlə bağlı fərdi düşünülmüş mövqe və davranışıdır. Karyera planlaşdırma prosesi beş əsas mərhələdən ibarətdir:



**Özünü tanıma.** Özünü tanıma mərhələsində insan, maraqlarını, dəyərlərini və qabiliyyətlərini nəzərə alaraq onun üçün ən uyğun peşənin hansı olduğuna qərar verir. Öz qabiliyyətlərini təyin etdikdən sonra insan karyera hədəflərini müəyyənləşdirə bilər. Müəyyənləşdirdiyi karyera hədəflərinə görə isə uyğun bir peşəyə yönələ və iş tapa bilər. İş həyatında isə qarşısına qoyduğu hədəflərə nə dərəcədə çatdığını ölçə bilər.
**Peşələri tanıma.** Özünüzü tanıdıqdan sonra sizə maraqlı gələn peşələri də tanımanız lazımdır. Peşələr haqqında araşdırmanızda aşağıda qeyd olunan mövzulara xüsusi diqqət yetirmək tövsiyə olunur:
- Maraq göstərdiyiniz peşə mənsublarının gördüyü əsas işlərə;
- İş şəraitinə;
- İş şərtlərinə;
- İşçilərdə tələb olunan keyfiyyətlərə;
- Peşəyə hazırlanmaya;
- Peşədə irəliləməyə;
- Qazanca;
- İş perspektivləri və peşənin gələcəyinə.

Öz xüsusiyyətlərinizi peşə xüsusiyyətləri ilə uyğunlaşdıraraq karyera seçiminizi edə bilərsiniz. Üzərində durmaq lazım olan əsas məqam özünüzü olmaq istədiyiniz kimi deyil, olduğunuz kimi obyektiv olaraq tanımanızıdır. Maraq göstərdiyiniz peşələrin də müsbət və mənfi tərəflərini bilməlisiniz.
**İş dünyasını tanıma.** Peşələri nəzəri olaraq tanıdıqdan sonra onları praktik olaraq da tanımaq lazımdır. Çünki sizə peşələr haqqında məlumat verən insanlar həmin peşələri sizin üçün öz baxışlarına görə şərh edəcəklər. Onlar üçün yaxşı olan bir şey sizin üçün pis ola bilər və ya əksi. Bu baxımdan sizə maraqlı gələn və seçmək istədiyiniz peşəni daha yaxından tanımaq üçün real həyatda tətbiq etmək və təcrübə aparmaq lazımdır. Bunun ən yaxşı yolu bu peşələrin tətbiq olunduğu qurum, təşkilat və ya müəssisələrdə müəyyən müddət işləməkdir. Hər fürsətdə maraq duyduğunuz və seçmək istədiyiniz peşənin tətbiq olunduğu fərqli yerlərə getməli və oradakı vəziyyətlə tanış olmalısınız. Bu şəkildə həmin peşəni daha yaxşı tanıyacaqsınız və məzun olduqdan sonra bir neçə potensial iş fürsəti müəyyənləşdirmiş olacaqsınız.
**Özünə uyğun iş tapma.** Əvvəlki mərhələlərdə qazandığınız təcrübə ilə özünüzü və peşələri tanıdınız və özünüzə uyğun peşələri müəyyənləşdirdiniz. Hətta iş dünyasından sizə və bəyəndiyiniz peşələrə uyğun olan müəssisələri, qurumları və təşkilatları müəyyən etdiniz. İndi isə hədəf seçdiyiniz müəssisə və ya təşkilatın sizi nə üçün seçməsini və nə üçün sizin digərlərindən daha çox bu iş üçün uyğun olduğunuzu ortaya qoymalısınız. Bunun üçün aşağıda qeyd olunanlara diqqət yetirməniz tövsiyə olunur:

İş üçün müraciət edərkən yaxşı bir CV hazırlamalısınız. CV nədir? CV latın dilində Curriculum Vitae (çərçivə, çevrə) sözünün qısaldılmış formasıdır. Şəxsə mənsub olan müəyyən dəyərlərin bir yerə toplandığı və sərgiləndiyi "reklam"dır. CV sizi işəgötürənə tanıdan birinci vasitədir. Müsahibə əsnasında özünüzü tanıtmaq üçün imkan tapacaqsınız, lakin müsahibəyə dəvət olunmağınız üçün CV çox böyük rola sahibdir. Bu səbəbdən xüsusiyyət və bacarıqlarınızı CV-də çox təsirli şəkildə izah etməlisiniz. Ən təsirli CV işəgötürənin hansı məlumatları görmək istədiyini bilib, mövcud bacarıqlarınızdan işəgötürənin dəyər verəcəklərini yazmaqdır. Bu baxımdan işəgötürəni heç maraqlandırmayan məlumatlarla dolu üç səhifəlik CV yazmaqdansa, ən əsas və təməl məlumatları yazdığınız bir səhifəlik CV daha dəyərlidir. Təsirli CV müraciət etdiyiniz vəzifə haqqında işəgötürəni inandırmaqdır. Bunun üçün bu vəzifə üçün nə dərəcədə uyğun olduğunuzu dəyərləndirməyiniz vacibdir. Mövcud bacarıq və qabiliyyətlərinizin işəgötürənin müəssisəsinə xeyir gətirəcəyinə əmin olmalısınız və qarşıdakı tərəfi buna inandırmalısınız. İdeal olan, hər CV üçün müraciət etdiyiniz firmanın/müəssisənin mədəniyyətini, iş təlimatını və iş keyfiyyətini əvvəlcədən araşdırmağınız və hər birinə özəl şəkildə CV hazırlamanızdır.



Əgər CV “copy+paste” hissi oyadırsa artıq təsirini itirəcək.Karyera hədəfinin CV-də göstərilməsi əslində həssas mövzudur. Əgər karyera hədəfiniz elanda göstərilən vəzifəyə uyğundursa CV-də göstərməkdə fayda var. Karyera hədəfiniz elandakı mövqeyə uyğun gəlmirsə bu sizin üçün mənfi sayılacaq.

Əlaqə vasitələrinin qeyd edilməsi - CV-də vacib mövqeyə sahibdir. Ev ünvanı, telefon nömrəsi, email adresi kimi əlaqə məlumatlarının düzgün qeyd edilməsi işəgötürənin sizinlə əlaqəsində önəmli vasitədir. Əlaqə məlumatları əsasən səhifənin üst orta hissəsində yazılır. Sol istiqamətdə yazsanız, sənədlər içində oxunanda gözdən qaça bilər.

Kompüter bacarıqlarının qeyd edilməsi - Əvvəllər CV yazarkən Microsoft Office bacarıqları cümləsini yazmaq kifayət edirdisə, hal-hazırda malik olduğunuz və bacardığınız kompüter bacarıqlarını ətraflı yazmağınız tələb olunur. Əgər hər hansı kurs vasitəsilə bu bilgilərə nail olmusunuzsa bunu CV-də qeyd etməyiniz sizin məlumatları dəstəkləyər.

Təhsil haqqında məlumat - əgər iş təcrübəniz yoxdursa CV-ni təhsil məlumatlarınızdan təşkil etməniz məsləhətdir. Aşağıdakı məlumatları qeyd etməkdə fayda var:

- Məzun olduğunuz il (giriş-çıxış tarixləri ilə birgə)
- Müəssisənin adı
- Oxuduğunuz ixtisasın adı
- Bildiyiniz dillər haqqında məlumat - bildiyiniz əlavə dili, bildiyiniz səviyyəsini yazmaq.



CV-nizi göndərəcəyiniz müəssisəyə CV-lə birgə ön məktub (cover letter) yazmalısınız. Bunun əsas faydası göndərdiyiniz CV-yə maraq oyatmaq və müsahibəyə çağrılmanıza təkan verməsidir. Ön məktubun xitab bölməsində mümkünsə CV göndərdiyiniz müəssisənin səlahiyyətli şəxsinin adını yazmağınızda fayda var. Ön məktubda əsasən: hansı işə müraciət etdiyiniz və nə üçün o işlə maraqlandığınız, sektor və firma haqqında məlumatınızı, işə uyğun keyfiyyətlərinizin ən əsas olanlarını və işə olan istəyinizi qeyd edə bilərsiniz. Tarix, ad və imza hissələri vacibdir .Qısa, açıq və anlaşılan olmalıdır. Əgər müraciət etdiyiniz müəssisənin öz CV blankı varsa, o zaman orada göstərilən suallara tam cavab yazmalısınız.



Müsahibəyə hazırlıqlı gedin. Müəssisəyə göndərdiyiniz CV uyğun görüldüsə, növbəti mərhələdə sizi iş görüşməsi gözləyir. Müsahibə öncəsində bir sıra hazırlıqları etsəniz sizin üçün faydalı olacaq. Belə ki:

- Müəssisə və vəzifə haqqında məlumat toplayın;
- Müsahibədə bildiriləcək əsas mövzuları təyin edin;
- Müsahibədə verilə biləcək sualları hazırlayın;
- Müsahibə olacaq yeri dəqiqləşdirin;
- Müsahibəyə geyiləcək geyimi əvvəlcədən hazırlayın;
- Müsahibəyə aparılacaq əşyaları əvvəlcədən hazırlayın.



Müsahibədə soruşulacaq hər sualın müəyyən bir məqsədi vardır. Əgər hansı sualların hansı məqsədlə verildiyini bilsəniz, onlara bənzəyən suallara da hazırlıqlı olacaqsınız. Müsahibədə ən çox verilən suallara nümunələr aşağıda göstərilmişdir:

A. Ümumi suallar - əsasən müsahibənin əvvəlində bu tip suallar verilir. Burada məqsəd namizədə hər hansı bir məhdudiyyət qoymadan məlumat almaqdır. Bu tip sualların müsbət cəhəti əvvəlcədən hazırladığınız danışmaq istədiyiniz mövzuları ifadə etmə

imkanı verməsidir. Mənfi cəhəti isə danışmağı sevirsinizsə özünüz haqqında yeni sualların verilməsinə zəmin yaranmasıdır. Ümumi suallara misal olaraq:
1. Özünüz haqqında məlumat verin.
2. Sizi nə üçün işə götürməliyik? Digər namizədlərdən əsas fərqiniz nədir?
3. Sonuncu işinizdən ayrılma səbəbiniz nədir?
4. Müəssisəmizə hansı faydaları verəcəksiniz? və s.

B. Şəxsi məlumatlarla bağlı suallar – bu sualların cavabı CV-də olduğu üçün təcrübəli mütəxəssislər bu sualları təkrar verməyəcəklər. Lakin CV-də yer almayan və müəssisə üçün vacib suallar varsa, o zaman bəzi şəxsi məlumatları öyrənmək istəyəcəklər. Məsələn: Sağlamlığınızla bağlı hər hansı probleminiz varmı? Siqaretdən istifadə edirsinizmi? Sürücülük vəsiqəniz varmı? və s.

C. Təhsillə bağlı suallar – bu sualların verilməsində məqsəd keçmişdə aldığnız təhsil, tədris və gələcəkdəki təhsil planlarınız haqqında məlumat toplamaq, təhsil və iş həyatı arasındakı əlaqəni necə dəyərləndiryinizi öyrənməkdir. Əsasən yeni məzun olan namizədlərdən soruşurlar. Misal üçün:
1. Məzun olduğunuz ixtisası niyə seçmisiniz?
2. Ən yaxşı oxuduğunuz dərslər hansılar olub?
3. Hansı tədris kurslarında iştirak etmisiniz?

D. Peşə təcrübəsi/bilik ilə bağlı suallar – bu sualların verilməsində əsas məqsəd öncədən işlədiyiniz iş ilə müraciət etdiyiniz iş arasında uyğunluğu aydınlaşdırmaqdır. Misal olaraq:
1. Bundan əvvəlki işinizlə hazırki iş arasında hansı uyğunluqlar olduğunu düşünürsünüz?
2. Sizin fikrinizcə bu vəzifənin əsas məsuliyyətləri hansılardır?
3. Bundan əvvəlki işinizdə hansı yenilikləri etmisiniz?

E. Şəxsi keyfiyyətlərlə bağlı suallar – bu sualların verilməsində məqsəd şəxsi keyfiyyətlərinin iş üçün nə dərəcədə uyğun olmasını aydınlaşdırmaqdır. Bu məqsədlə tərtib olunmuş bir sıra psixoloji testlər mövcuddur. Lakin bu üsuldan ölkəmizdə elə də çox istifadə edilmir. Əgər müsahibiniz sualları sizə dolayı yolla verirsə, deməli hansısa şəxsi keyfiyyətinizi araşdırmağa çalışır. Bu tip suallara misal olaraq aşağıdakıları göstərmək olar:
1. Rəhbərinizdən layiq olmadığınız halda tənqid alsanız nə edərsiniz?
2. Boş vaxtlarınızda nə edirsiniz?
3. Sizi tərənnüm edən 5 xüsusiyyət söyləyin.
4. Sizi ən çox nə motivasiya edir/edər?
5. Bundan əvvəlki işdə qarşılaşdığınız ən böyük problem nə idi? və s.

**Karyeranın zirvəsinə çatma.** Maraq duyduğunuz bir peşə üzrə işə başlamağı qarşınıza məqsəd qoymuşdunuz və məqsədinizə çatdınız. Qarşınıza yeni bir məqsəd qoymasanız, hara gedəcəyinizi bilmədiyiniz üçün kompassız bir gəmi kimi olacaqsınız. Buna görə bütün iş həyatınızı əhatə edən bir karyera hədəfiniz olmalıdır. Bu hədəf sizi karyeranızın zirvəsinə aparmalıdır. Bu baxımdan yaxşı düşünülmüş və sistematik bir



**Karyera məqsədlərinin müəyyən olunması.** Şəxs karyera məqsədlərini təyin edərkən ən əvvəl uzunmüddətli hədəflərini təyin etməli, hədəflərinin təşkilatın hədəfləri ilə müqayisə etməli, məsuliyyəti tam dərk etmək məcburiyyətindədir. Karyera məqsədlərinin təyin olunmasında əsas addımlar aşağıdakılardır:

- Hədəfləri yeniləmək və təkrar təyin etmək – bu mərhələdə şəxs rəhbərlikdən, məsləhətçilərdən və ya iş yoldaşlarından kömək alır. Xüsusən, müəssisədə özündən daha çox təcrübəsi olan birindən alacağı məsləhətlər mümkün olan karyera inkişaf yollarını və imkanlarını təyin etmədə faydalıdır. Əsas alınan hədəflər uzun müddəti əhatə etməlidir. Mövcud hədəflərə çatmaq mümkünsüz olmamalıdır.

- Nəticəyə çatmaq – nəticələrin necə əldə edilməsi nəticənin özü qədər vacibdir. Bu səbəbdən daim inkişaf naminə qısamüddətli nəticələrə yönəlmək doğru addım sayılmır.

- Bu günü həll et, gələcəyi özünə burax – şəxs prioritetlərini əsas götürməli, eyni zamanda rəhbərliyin ehtiyacları ilə maraqlanmalı, idarənin öhdəliklərinə laqeyd yanaşmamalıdır. Gələcəkdə çatmaq istədiyi hədəfləri üçün hazırki işlərə məsuliyyətsizlik göstərməməlidir.
- 
- Plan, qərar və bacarıq inkişaf etdirmə üsulları – planlı yaşamaq, planlarınızla hərəkət etmək, qərarlarınızı planlarınıza əsasən qurmaq və ünsiyyət bacarıqlarınızı bu yöndə inkişaf etdirmək məcburiyyətindəsiniz.

- Dəyişiklikləri idarə etməyi öyrənin.

- Planlarınızı həyata keçirin.

- Zamanınızı düzgün idarə edin – Zamanı düzgün idarə etmək üçün:




Nəticə olaraq demək olar ki, karyera planlaması uzunmüddətli bir prosesdir. Bu proses şəxsin ibtidai sinifdə təhsil aldığı dövrdən başlayaraq onun bütün həyatı boyunca davam edir. Bu baxımdan karyera planlaşdırılması ilə bağlı qeyd olunan tövsiyələr haqqında şagirdlərin ümumtəhsil dövründə məlumatlandırılması vacib şərtdir.

# III Fəsil. Peşə maraqlarının və motivlərinin diaqnostikası

## *3.1 Şagirdlərin peşə seçimi motivasiyasının müəyyənləşdirilməsi metodikaları*

Peşə seçiminə müxtəlif amillər təsir göstərir. Həyatın bütün sahələrinin qlobal rəqəmsallaşdırılması və vahid informasiya məkanının - "İnternet"in formalaşması kontekstində gənclər müxtəlif mədəniyyət və iq- tisadiyyat modelləri, müxtəlif həyat tərzləri, standartları haqqında fikirlər əldə edirlər. Onların "yaxşı iş", iş dəyərləri və motivləri barədə fikirləri dəyişir. Milli iqtisadi sistemlərin inkişaf xüsusiyyətləri, ölkələrdə əmək ba- zarının vəziyyəti, yaşayış səviyyəsi, ayrı-ayrı sahələrin inkişaf tendensiyaları, müəyyən ölkədəki sosial sahənin inkişaf səviyyəsi və s. insan dəyərlərinə də təsir edərək müəyyən "yaxşı iş" standartlarını meydana gətirir. Fikrimizcə, peşə seçmə motivasiyası qloballaşmanın özü ilə gətirdiyi fikir və standartların milli fikir və standartlarla sintezi ilə müəyyən edilməlidir.



### *3.1.1 Sorğu №1: Peşə seçimində şəxsi motivlərin rolunun müəyyənləşdirilməsi*

**Təlimat**

Şagirdlərin peşə seçimində motivasiyanın müəyyən edilməsinə dair bir sıra metodikalar vardır. Təqdim olunan metodika peşə seçimində müəyyən motivlərin rolunu müəyyənləşdirməyə imkan verir. Sınaqdan keçmək istəyən şəxs mövzu ilə bağlı 18 mühakimədən ibarət bir sorğu anketi ilə təmin edilir. Bu mühakimələr 9 qrup motivi ifadə edir ("Nəticələrin emalı"nda verilir).

**QEYD**: Şagirdlərin peşə seçimi motivasiyasının müəyyənləşdirilməsi üçün sorğu anketi **Əlavə 5**-də verilmişdir.

**Nəticələrin təhlili**

Şagirdlərin peşə seçimi motivasiyasını müəyyənləşdirmək üçün qruplar üzrə aparıcı motivasiya sahəsi müəyyənləşdirilir. Hər sahə üzrə maksimum toplanılan bal həmin sahə üzrə seçilmiş peşə fəaliyyəti ilə uyğunluq təşkil edir.

**Motiv qrupları**

01 Sosial (mühakimə 1 və 2) - öz işləri ilə sosial tərəqqiyə töhfə vermək, ümumbəşəri insani dəyərlərə və ehtiyaclara yönəlmək.

02 Əxlaqi (mühakimə 3 və 4) - əxlaqi xüsusiyyətlərini, mənəvi dünyasını yaxşılaşdırmaq, əxlaqi keyfiyyətləri inkişaf etdirmək.

03 Estetik (mühakimə 5 və 6) - işin estetikasına, onun gözəlliyinə, ahəngdarlığına, gözəlliyin qavranılmasına, fəaliyyətdən sevinc hissi almağa səy göstərmək.

04 OPTION Dərketmə (mühakimə 7 və 8) - xüsusi biliklərə yiyələnmək, konkret bir işin məzmununa dair dərin biliklər əldə etmək.

05 Yaradıcı (mühakimə 9 və 10) - işdə orijinal olmağa çalışmaq, elmi kəşflər etmək, yaradıcılıq imkanları qazanmaq.

06 Əməyin məzmunu ilə əlaqədardır (mühakimə 11 və 12) - əmək prosesi barədə aydın məlumat, əqli və fiziki əməyə yönəlmə.

07 Maddiyatçılıq (mühakimə 13 və 14) - müəyyən fayda əldə etmək.

08 Nüfuza meyl mühakimə (13 və 14) - müəyyən fayda əldə etmək

09 Faydalı (mühakimə 17 və 18) - insanlara rəhbərlik etmək, şəhərdə işləmək, təmiz və rahat iş, ali təhsil almaq.

### *3.1.2 Sorğu 2: Peşə seçimində daxili və xarici motivlərin müəyyənləşdirilməsi*

**Təlimat**

Bu metodika əsasında peşə seçimində vacib rol oynayan daxili və xarici motivləri müəyyən etmək mümkündür. Müəyyən bir peşə seçiminin daxili motivləri peşənin sosial və şəxsi əhəmiyyəti, əməyin yaradıcı təbiətinə görə gətirdiyi məmnunluq, ünsiyyət qurmaq, digər insanlara rəhbərlik etmək və s. ilə müəyyən edilir. Daxili motivasiya insanın öz daxili ehtiyaclarından yaranır, buna görə də insan xarici təzyiq olmadan fəaliyyət göstərir. Xarici motivasiyaya pul qazanmaq, prestij üçün səy göstərmək, qınanma qorxusu, uğursuzluq və s. aid edilir. Xarici motivlər müsbət və mənfi ola bilər. Müsbət motivlərə aşağıdakılar daxildir: maddi stimul, karyerada yüksəliş ehtimalı, iş kollektivində özünü təsdiqləmə, prestij və s., yəni insanın özünün səy göstərməsini lazım bildiyi təşviqlər. Mənfi motivlərə insana peşə seçimində  təzyiq, cəza, tənqid, qınama və digər mənfi təsirlərin edilməsi aiddir.

Təqdim olunan metodika peşə seçərkən aparıcı motivasiya növünü təyin etməyə imkan verir. Anketin mətni hər hansı bir peşəni xarakterizə edən iyirmi ifadədən ibarətdir. Onların hər birinin peşə seçiminə nə dərəcədə təsir etdiyini qiymətləndirmək lazımdır. Metodikadan istifadə edərək üstünlük təşkil edən motivasiya növünü (daxili şəxsi əhəmiyyətli motivlər, daxili sosial əhəmiyyətli motivlər, xarici müsbət və mənfi motivlər) müəyyən etmək mümkündür

**QEYD**: Şagirdlərin peşə seçimi motivasiyasının müəyyənləşdirilməsi üçün sorğu anketi **Əlavə 6-da** verilmişdir.

**Nəticələrin təhlili:**

Daxili şəxsi əhəmiyyətli motivlər: 1, 5, 8, 15, 20.

Daxili sosial əhəmiyyətli motivlər: 3, 7, 12, 14, 17.

Xarici müsbət motivlər: 4, 9, 10, 16, 19.

Xarici mənfi motivlər: 2, 6, 11, 13, 18.

Tədqiqatlar göstərir ki, daxili motivlərin üstünlüyü işdən məmnunluq və məhsuldarlıq baxımından ən təsirli olur. Eyni söz müsbət xarici motivasiya üçün də deyilə bilər. Məsələn: “1”+ “5”+ “8”+ “15”+ “20”=DŞƏM

Daha yüksək balla ifadə olunan motiv dominant motiv hesab ediləcək.

### *3.1.3 Sorğu 3: Peşənin cəmiyyətdə rolu və maddiyyat motivini müəyyənləşdirilməsi*

**Təlimat**

Bu metodika peşə seçərkən hansı motivləri rəhbər tutulacağını - peşənin cəmiyyətdə yüksək qiymətləndirilməsi motivini, yüksək maddiyyat motivi və ya insanlara fayda gətirən fəaliyyət ilə məşğul olmaq motivini müəyyənləşdirməyə imkan verir.

**QEYD:** Şagirdlərin peşə seçimi motivasiyasının müəyyənləşdirilməsi üçün sorğu anketi **Əlavə 7**-də verilmişdir.

**Nəticələrin təhlili:**

| Cavab | | |
|---|---|---|
| A | B | C |
| 6 +/- | 3 +/- | 1 +/- |
| 7 +/- | 4 +/- | 2 +/- |
| 8 +/- | 12 +/- | 5 +/- |
| 9 +/- | 14 +/- | 10 +/- |
| 13 +/- | 18 +/- | 11 +/- |
| 19 +/- | 21 +/- | 15 +/- |
| 20 +/- | 23 +/- | 16 +/- |
| 22 +/- | 24 +/- | 17 +/- |

A, B, C sütunlarındakı “+” işarələrinin cəmini sayın.

Sütundakı “+” işarələrinin üstünlüyü göstərir:

A - peşənin nüfuzuna yönəlik motivlər, cəmiyyətdə mövqe tutmaq, şəxsi istəklərini həyata keçirmək arzusu.

B - maddi rifah, praktik imkanlarla dəstəklənməyən böyük pul qazanmaq istəyi.

C - insanlara fayda verən yaradıcı iş istəyi, şəxsi məsuliyyət hissi.

## *3.2 Şagirdlərin müxtəlif fəaliyyət sahələrinə olan meyl və maraqlarının müəyyən olunması metodikaları*

Peşə seçimi - yeniyetmə və gənclərin qarşısında duran əsas vəzifələrdən biridir, çünki insanın peşəsi, onun həyat tərzini, dəyərlərini, sosial statusunu müəyyən etmədə vacib rol oynayır. Bundan əlavə, seçilən peşədə icra edilən fəaliyyətlər insanın psixi ehtiyaclarını ödəməyə və öz qüvvəsini nümayiş etdirməyə fürsət yaradır.

Seçilən peşə insana fərəh hissi, mənəvi zövq gətirməli və başqalarına da fayda verməlidir. Peşə təkcə vasitə yox, zəruri ehtiyacdır. Bu ehtiyacın təmin olunması insanı bir çox cəhətdən - həm mənəvi, həm də maddi tərəfdən təmin etmiş olur.

Qeyd etmək vacibdir ki, seçilmiş peşə gəncin zövqünə, biliyinə, bacarıq, qabiliyyət və imkanlarına uyğun gəldikdə o həmişə öz işindən zövq alır. Eyni zamanda, işini sevir, onu həvəslə, zövqlə icra edir. Bu seçim düzgün aparılmadıqda isə insan həmişə özündən, öz peşə və ixtisasından narazı qalır. Bu zaman o, bütün həyatı boyu narazılıqlar içərisində yaşayır və ya ixtisas sahəsini dəyişmək, başqa sahələrə üz tutmaq məcburiyyətində qalır. Bu isə əlavə vaxt və vəsait itkisi, əlavə çətinliklərlə qarşılaşmaq deməkdir. Deyilənləri nəzərə alaraq, yeniyetmə və gənclərin düzgün peşə seçimi etməsi üçün onların maraq və meyllərini müəyyən etmək zəruridir.

Maraq insanın hər hansı fəaliyyəti məsələn, kitab oxumaq, musiqi, idman, peşə, təsviri sənət və s.-lə bağlı fəaliyyətini həyata keçirməkdə böyük rol oynayır. O, insanın arzu olunan fəaliyyət sahəsinə aid biliklərini artırmasına, dünyagörüşünü genişləndirməyə, idraki fəallığa stimullaşdırır. Maraq insanın öz istəyi, zövqü əsasında formalaşsa da onun yaranmasına bir çox amillər - məsələn, ailə, dostlar, yoldaşlar, sosial mühit, şəxsin özünün istedadı və s. təsir göstərir.



### *3.2.1 Sorğu 4. Holland Testi. "Fərdin peşə yönümünün növünün təyin edilməsi" testi*

**Təlimat**. Peşəyönümü marağının müəyyənləşdirilməsi üçün bir çox ölkələrdə C.L.Holland tərəfindən hazırlanmış şəxsiyyət nəzəriyyəsi və Holland testi baza alət olaraq istifadə edilir. C.L.Holland peşə seçimini şəxsiyyətin bir əksi kimi qeyd edərək, insanların 6 şəxsiyyət tipindən (Realist, İntellektual, Artistik, Sosial, Sahibkar və Konvensial) birinə mənsub olduğunu və bu mənsubiyyətin peşə seçimində uyğun peşələrdən birinin seçilməsində başlıca rol oynadığını iddia edir.

| Şəxsiyyət tipi | Şəxsiyyətin səciyyəvi xüsusiyyətləri | Peşə nümunələri |
|---|---|---|
| **Realist** | "Əşyalar"la işləməyi xoşlayırlar. Düşünməkdənsə, fəaliyyət göstərməyi üstün tuturlar. Səbirli, tolerant, praktik, materialist, təbii, səmimi, əzmkar | İxtisaslı texniki işçilər, elektrik, mühəndis, aqronom, memar, idmançı, sürücü |
| **İntellektual** | "İdeya və mülahizələrlə" işləməyi sevir, düşünmək və müşahidə etməyi üstün tuturlar. Daha çox fərdi çalışmağı xoşlayırlar. Analitik düşünən, tənqidi yanaşan, diqqətcil, səbirli, müstəqil, çəkingən, introvert | Tədqiqatçı alim, fizik, riyaziyyatçı, bioloq, genetik, antropoloq, tibbi texnik |
| **Artistik (Yaradıcı)** | "İdeyalar və insanlar" ilə işləməyi sevirlər. Yaradıcı, orijinal, həssas, müstəqil, emosional, xəyalpərəst, impulsiv | Yazıçı, rəssam, aktyor, memar, dekorator, musiqiçi, jurnalist |
| **Sosial** | İnsanlarla işləməyi sevirlər. Yardımsevər, məsuliyyətli, sosial, empatik, səbrli, nəzakətli, anlayışlı, mehriban | Psixoloji məsləhətçi, psixoloq, sosial işçi, müəllim, din xadimi |
| **Sahibkar** | "İnsanlar və məlumatlar" ilə işləməyi sevirlər. Ekstravert, enerjili, özünə inamlı, iddialı, inandırma bacarığı yüksək, dilavər, diqqət mərkəzində olmağı xoşlayan | Satıcı, marketoloq, vasitəçi, menecer, siyasətçi, vəkil |
| **Konvensial** | Diqqətli, itaətkar, sistemli, sərt, səliqəli, tarazlı, əzmkar, dürüst | Xəzinədar, bank işçisi, kitabxanaçı, poçtalyon, mühasib, maliyyəçi |

Holland testindən istifadə edərək 7-9-cu sinif şagirdlərinin peşəyönümü marağının müəyyənləşdirilməsi mümkündür **(Əlavə 8).**

**Nəticələrin təhlili növbəti səhifədə verilmişdir**

| Realist | İntellektual | Artistik | Sosial | Sahibkar | Konvensial |
|---|---|---|---|---|---|
| **1A** | 1B | 5B | 2B | 4B | 3B |
| **2A** | 6A | 9B | 6B | 8B | 7B |
| **3A** | 7A | 12B | 10A | 11B | 10B |
| **4A** | 8A | 14B | 11A | 13B | 13A |
| **5A** | 9A | 15B | 12A | 15A | 14A |
| **16A** | 16B | 21B | 17B | 18B | 18A |
| **17A** | 20A | 24B | 20B | 23B | 19B |
| **19A** | 22A | 27B | 25A | 25B | 22B |
| **21A** | 23A | 29B | 26A | 26B | 29A |
| **28A** | 24A | 30B | 27A | 28B | 32B |
| **31A** | 31B | 34B | 36B | 30A | 35B |
| **32A** | 35A | 37B | 38A | 33B | 38B |
| **33A** | 36A | 41A | 39A | 39B | 40A |
| **34A** | 37A | 42B | 41B | 40B | 42A |
| **Cəmi:** | Cəmi: | Cəmi: | Cəmi: | Cəmi: | Cəmi: |

### *3.2.2 Sorğu 5: Şagirdlərin müxtəlif fəaliyyət sahələrinə olan maraqlarının öyrənilməsi*

**Təlimat**

Sorğu ümumtəhsil məktəblərinin 7-9-cu sinif şagirdlərinin müxtəlif fəaliyyət sahələrinə olan maraq və meyllərini öyrənmək üçün hazırlanmışdır. 23 fəaliyyət sahəsi ayırd edilmişdir: fizika, riyaziyyat, kimya, astronomiya, biologiya, tibb, kənd təsərrüfatı, filologiya, jurnalistika, tarix, incəsənət, geologiya, coğrafiya, ictimai fəaliyyət, hüquq, nəqliyyat, pedaqogika, sosial işçi peşələri, xidmət sektoru, inşaat, yüngül sənaye, texnika və elektrotexnika.

**QEYD:** Şagirdlərin peşə seçimi maraq və meyllərinin **müəyyənləşdirilməsi** üçün sorğu anketi **Əlavə 9**-da verilmişdir.

**Nəticələrin təhlili və interpretasiyası**

Cavab kartında "++" işarəsi "+2" bal, "+" işarəsi üçün "+1" bal, hər "-" işarəsi üçün "-1" bal, "--" işarəsi "-2" bal, "0" qoyulduqda isə "0" bal hesablanır. Cavab kartında 29 sütunun hər birində müsbət və mənfi cavabların sayı hesablanır. Cavab kartına əsasən aşağıdakı peşə maraqlarının növləri müəyyən edilir (sütunlarla).

Sütunda müsbət cavabların sayı nə qədər çox olarsa, həmin növ peşə fəaliyyətinə maraq dərəcəsi bir o qədər yüksək olacaq.

1. Biologiya
2. Coğrafiya
3. Geologiya
4. Tibb
5. Yüngül və qida sənayesi
6. Fizika
7. Kimya
8. Texnika
9. Elektronika və radiotexnika
10. Metal emalı
11. Ağac emalı
12. İnşaat
13. Nəqliyyat
14. Aviasiya, dənizçilik
15. Hərbi ixtisaslar

16. Tarix
17. Ədəbiyyat
18. Jurnalistika
19. İctimai fəaliyyət
20. Pedaqogika
21. Hüquqşünaslıq
22. Xidmət sahəsi
23. Riyaziyyat
24. İqtisadiyyat
25. Xarici dil
26. İncəsənət
27. Səhnə sənəti
28. Musiqi
29. Bədən tərbiyəsi və idman

Nəticə:
-12 dən -6 qədər – marağın yüksək dərəcədə inkar edilməsi;
-5 dən -1 qədər - maraqlandırmır;
+1 dən +4 qədər – marağın zəif olması;
+5 dən +7 qədər – maraqlıdır;
+8 dən +12 qədər – çox maraqlıdır.

### *3.2.3 Sorğu 6: Fəaliyyət sahələri üzrə "maraqlar və meyllər" sorğusu*

**Təlimat**

Yuxarı sinif (7-9-cu) şagirdlərinin maraq və meyllərinin üzə çıxarılması üçün istifadə edilən **"Maraqlar və meyllər"** sorğusu hər bir fəaliyyət sahəsi üzrə maraqların ifadə dərəcəsini müəyyən etmək məqsədi daşıyır. Fəaliyyət sahələrini belə qruplaşdırmaq olar: "insan-təbiət", "insan-texnika", "insan-insan", "insan-işarə", "insan-bədii obraz".

**QEYD**: Şagirdlərin peşə seçimi maraq və meyllərinin müəyyənləşdirilməsi üçün sorğu anketi **Əlavə 10**-da verilmişdir.

**Nəticələrin təhlili:**

1. Hər on sətirdəki nəticələri toplamaq.
2. Əldə edilmiş nəticəni cüt-cüt toplamaq və 5-ə bölmək; nəticəni bütöv ədədə yuvarlayaraq

"Fərdi profil" sətrinə sıra ilə elə yazmaq lazımdır ki, 1 rəqəmi ilə başlayan sətrlərin cavabı "Təbiət", 2 rəqəmi ilə başlayanların cavabı "Texnika", 3 rəqəmi ilə başlayanların cavabı "İnsan", 4 rəqəmi ilə başlayanların cavabı "İşarə" və 5 rəqəmi ilə başlayanların cavabı "Bədii obraz" sözünün qarşısında yazılsın.

**QEYD**: Şagirdlərin peşə seçimi maraq və meyllərinin müəyyənləşdirilməsi üçün cavab kartı Əlavə 5-də verilmişdir.

**"İnsan-Təbiət" tipi.**

Bu tipə aid olanlar, əsasən, aşağıdakı fəaliyyətlərə maraq göstərirlər:
1. canlı və cansız təbiətin öyrənilməsi (mikrobioloq, aqrokimyaçı, geoloq və s.);
2. bitki və heyvanlara qulluq (fermer, zootexnik, bağban, tərəvəzçi və s.);
3. heyvanların sağlamlığının profilaktika və müalicəsi ilə məşğul olmaq (baytar və s.).

*Meyllər və qabiliyyətlər:*

| |
|---|
| heyvanları müşahidə etmək, onların qayğısına qalmaq; |
| bitkiləri becərmək və heyvanları bəsləmək; |
| ərzaq məhsullarının tədarükü (meyvə, giləmeyvə, balıq və s.); |
| zərərvericilər və xəstəliklərlə mübarizə; |
| meyvə və tərəvəz becərmək; |
| təbiət hadisələrini ayırd etmək; |
| müxtəlif təbiət hadisələrini müşahidə etmək, öyrənmək; |
| diqqətlə müşahidə etmək; |
| sistemləşdirməyə meyllilik; |
| diqqətin dayanıqlılığı; |
| hərəki aktivliyə ehtiyac. |

**"İnsan-Texnika" tipi.**

Bu tipə aid olanlar, əsasən, aşağıdakı fəaliyyətlərə maraq göstərirlər:
1. texniki qurğuların hazırlanması, montajı, quraşdırılması (mühəndis, qaynaqçı, radiomontajçı və s.);
2. texniki vasitələrin istismarı (sürücü, elektrik, dərzi və s.);
3. texnikanın təmiri (mexanik, elektrotəmirçi və s.).

*Meyllər və qabiliyyətlər:*

| |
|---|
| araşdırmaq, müşahidə etmək; |
| yeni nümunələri yaratmaq və sınaqdan keçirmək; |
| planlaşdırmaq, hazırlamaq, tərtib etmək, modelləşdirmək; |
| yeni fəaliyyət növlərinə maraq göstərmək; |
| özünün və başqalarının işini müstəqil şəkildə təşkil etmək; |
| qeyri-standart qərarlar qəbul etmək; |
| texniki təfəkkür bacarıqları nümayiş etdirmək; |
| məkan təfəkkürünün inkişaf etməsi; |
| praktik əməyə meyllilik; |
| emosional sabitlik. |

**"İnsan - insan" tipi.**

Bu tipə aid olanlar, əsasən, aşağıdakı fəaliyyətlərə maraq göstərirlər:
1. tibbi xidmət (həkim, tibb bacısı və s.);
2. təlim və tərbiyə (tərbiyəçi, məşqçi, müəllim və s.),
3. istehlakçı xidməti (satıcı, bələdçi, ofisiant və s.),
4. hüquq müdafiəçisi (vəkil, müfəttiş və s.)

*Meyllər və qabiliyyətlər:*

| |
|---|
| insanlara xidmət; |
| müalicə işi ilə məşğul olmaq; |
| təlim-tərbiyə işi; |
| hüquq və təhlükəsizliyin müdafiəsi; |
| insanları idarəçilik; |
| yeni insanlarla ünsiyyət; |
| insanları diqqətlə dinləmək; |
| səlis danışmaq və kütlə qarşısında çıxış etmək bacarığı; |
| ünsiyyət bacarıqları; |
| emosional dayanıqlılıq; |
| diqqətin bir obyektdən digərinə keçirilmə çevikliyi; |
| empatiya bacarığı; |
| müşahidə qabiliyyəti; |
| təşkilatçılıq bacarıqları. |

**"İnsan-İşarə" tipi.**

Bu tipə aid olanlar, əsasən, aşağıdakı fəaliyyətlərə maraq göstərirlər:
1. mətnlərlə işləmək (korrektor, tərcüməçi və s.);
2. rəqəm, düstur və cədvəllərlə iş (proqramist, mühasib, kassir və s.);
3. xəritə, sxemlərlə işləmək;
4. sxemlərlə çalışmaq (şturman, çertyojçu, xəritəçi və s.);
5. səs siqnalları ilə işləmək.

*Meyllər və qabiliyyətlər:*

| |
|---|
| mətn və cədvəlləri təhlil etmək; |
| hesablamalar aparmaq; |
| məlumatları emal etmək; |
| xəritə, sxemlə işləmək; |
| siqnal və mesajları qəbul etmək və ötürmək; |
| şifahi hesablama aparmaq; |

| |
|---|
| işarə və simvollarla işləmək; |
| səhvləri axtarıb tapmaq; |
| riyazi bacarıqlar; |
| abstrakt düşüncə; |
| diqqətin yüksək dayanıqlılığı; |
| ünsiyyətə meyllilik; |
| səliqə və səbrlilik. |

**"İnsan – Bədii obraz" tipi.**

Bu tipə aid olanlar, əsasən, aşağıdakı fəaliyyətlərə maraq göstərirlər:
1. sənət əsərlərinin yaradılması, dizaynı, modelləşdirilməsi (rəssam, heykəltəraş, yazıçı, saç ustası, bəstəkar və s.);
2. müxtəlif sənət əsərlərinin hazırlanması (zərgər, modelyer, aktyor və s.).

*Meyllər və qabiliyyətlər:*

| |
|---|
| tərtibat və dizayn işləri ilə məşğul olmaq; |
| bədii yaradıcılıqla məşğul olmaq (rəsm, heykəltəraşlıq, fotoşəkil, film...); |
| şeir, nəsr əsəri yazmaq; |
| səhnədə çıxış etmək; |
| gözəl əl işlərini hazırlamaq; |
| oxumaq, musiqi alətlərində ifa etmək. |
| çevik təfəkkür; |
| yaradıcı təxəyyül; |
| yaradıcılığa meyllilik; |
| hisslərin canlılığı; |
| xüsusi bacarıqlar; |
| funksional bacarıqların inkişafı (eşitmə, görmə, nitq, dad və s.) |



## 3.3 Şagirdlərin peşə maraqlarının müşahidə metodu ilə təyini

Müşahidə elmi metod kimi artıq XIX əsrin axırlarından klinik, sosial, pedaqoji psixologiya və inkişaf psixologiyasında geniş istifadə edilirdi. Bu metod təbii şəraitdə insan davranışlarını öyrənmək məqsədi ilə tətbiq olunur. Müşahidə eyni zamanda psixoloqdan peşəkar biliklər və psixoloji analiz bacarıqları da tələb edir.

Müşahidə psixi hadisələrin gedişinə qarışmadan onları sadəcə olaraq izləmək yolu ilə empirik məlumatların əldə edilməsindən ibarət əsas tədqiqat metodudur. Psixoloqun şəraitə, psixi hadisələrin gedişinə qarışmaması, müdaxilə etməməsi müşahidə metodunu xarakterizə edən başlıca xüsusiyyətdir. Psixoloji diaqnostikanın metodlarından biri olan müşahidə məqsədyönlü və planlı şəkildə izləmə yolu ilə uşaqların müəyyən şəraitdə psixi həyatında baş verən dəyişikliklərin öyrənilməsini nəzərdə tutur. Psixoloji təcrübədə müşahidə metodundan istifadə yolu ilə əldə edilmiş nəticələrin digər müayinə metodlarının nəticələri ilə müqayisəsi praktik psixoloqa uşaq haqqında obyektiv rəy tərtib etməyə imkan yaradır. Praktik psixoloqun həyata keçirdiyi diaqnostik müayinə zamanı müşahidənin aparılmasına bir sıra tələblər (planlaşdırma, protokol tərtibi, nəticələrin təhlili və s.) irəli sürülür. Müşahidə protokollarında uşağın davranış reaksiyaları, özünü necə aparması, qarşılıqlı münasibət formaları, fəaliyyət növü və psixi hadisənin kəmiyyət və keyfiyyət göstəricilərinin dinamikası qeyd olunur.

Müşahidə psixoloqun subyektiv mövqeyinin təsirinə məruz qala bilər, ancaq mütəxəssis çalışmalıdır ki, subyektiv mövqeyini əks etdirməsin. Burada psixoloqun elmi baxışları, təcrübəsi, peşə hazırlığı ilə yanaşı formalaşmış qiymətləndirmə stereotipi, etik prinsipləri və s. öz təsirini göstərə bilər. Şübhəsiz, müşahidə aparan psixoloq bu kimi təsirlərin aradan qaldırılmasına çalışmalıdır. Müşahidənin çətinliklərindən biri də, bu və ya digər psixi hadisənin, davranış tərzinin təzahürünü uzun müddət gözləmək lazım gəlməsi ilə bağlıdır.

Aşağıdakı tipik müşahidə səhvlərinə rast gəlinir:

**1. Halo-effekt.** Müşahidəçi görünənləri ümumiləşdirir, kiçik fərqlərə, detallara diqqət yetirmir. Məsələn, psixoloqda 2-ci sinif şagirdləri haqqında bir təəssürat formalaşıb. O, sinifdə müşahidə keçirəndə uşaqların hamısında oxşar davranışlara fikir verir, fərqləri nəzərdən qaçırır.
**2. Güzəşt effekti.** Baş verənlərə daim pozitiv yanaşma, situasiyanı müsbət qiymətləndirmə. Məsələn, uşağın psixi inkişafında problem varsa da, psixoloq müşahidə edilən çətinlikləri tənbəllik, utanma kimi qeyd edəcək, heç bir ciddi problem olmadığını söyləyəcək.
**3. Oreol effekti.** İnsanın konkret bir situasiyada, şəraitdə əldə etdiyi müşahidə nəticələri digər situasiyalara da aid edilir. Məsələn, psixoloq dərs zamanı şagirdin bütün suallara cavab verdiyini, tapşırıqları hamıdan tez yerinə yetirdiyini, müəllimin sözünə qulaq asdığını müşahidə edir. Bir müddət sonra həmin şagird məktəbin dəhlizində digər, özündən yaşca kiçik şagirdi döyür. Psixoloqdan bu hadisəni araşdırmağı xahiş edirlər. Psixoloq "belə bir şey ola bilməz", "bu şagird belə edə bilməz, çox güman ki, bunu başqası edib, əvəzində bu şagirdi günahlandırıb" kimi ifadələrlə şagirdin təqsirsiz olduğunu bəyan edir. Yəni psixoloq qəbul edə bilmir ki, şagird ağıllı, diqqətli, müəllimə hörmətlə yanaşan olmaqla yanaşı, həm də aqressivlik nümayiş etdirərək digərlərinə xəsarət yetirə bilər.
**4. Yanlış razılıq effekti.** Davranışın qiymətləndirilməsi zamanı müşahidəçi real davranışlara deyil, şəxs haqqında digərlərinin söylədiyi fikir və mülahizələrə əsaslanır. Məsələn, müəllim psixoloqa şagird haqqında məlumat verərkən onun dərsə hörmətsiz yanaşdığını, maraqlarının qeyri-sabitliyini, dərs zamanı digər şagirdləri ünsiyyətə cəlb edərək dərsə mane olduğunu qeyd edir. Psixoloq isə həmin şagirdi müşahidə edərkən sanki müəllimin dediklərinin təsdiqini axtarır.

**5. Mərkəzi tendensiya səhvi.** Müşahidəçi hər zaman müşahidə edilən hadisəni, davranışı orta qiymətləndirir. Məsələn, psixoloq müşahidə protokoluna əsasən şagird haqqında rəy yazır, orada qeyd edir: “Ümumilikdə hər şey normaldır. Şagirdlə iş zamanı çətinliklər oldu, amma ciddi bir problemlə qarşılaşmadıq. Dərs zamanı fəal olmasa da, hərdən cavab verirdi”.

**6. Korrelyasiya səhvi.** Müşahidə edilən hər hansı bir davranışa digər müşahidə edilmiş davranış növü, bacarıq və ya psixi funksiya əsasında qiymət verilir. Məsələn, psixoloq şagirddə nitqin sürətlilik xüsusiyyətinin əsasında intellekti yüksək qiymətləndirir.

**7. Kontrast səhvi.** Müşahidə etdiyi obyektdə özünə xas hər hansı bir xüsusiyyətin əksini qeyd etmək. Məsələn, psixoloq müəllimin tədris etmə prosesini müşahidə edərkən bir neçə məqamda “Mən belə etməzdim”, “Müəllim olsaydım, mövzunu fərqli şəkildə izah edərdim” deyib bu məqamları xüsusilə seçir və qeyd edir.

**8. İlk təəssürat səhvi.** Sonrakı müşahidələrin nəticələrinə ilk müşahidə zamanı yaranan təəssüratın təsiri. Məsələn, əgər ilk görüş zamanı psixoloq şagirdi dəcəl, dərs oxumayan kimi tanıyıbsa, gələcəkdə də ona elə yanaşacaq, sinifdə müşahidə keçirərkən kimsə səs salarsa, o şagirddən biləcək.

Müşahidə qeydlərinə verilən tələblər:



### Müşahidə protokolu

Müşahidənin məqsədindən asılı olaraq, iki tip müşahidə və onlara uyğun iki tip protokol qeyd edə bilərik

1. Axtarış məqsədli müşahidə - ümumi məlumat toplamaq, problemi müəyyən etmək üçün tətbiq olunur.
2. Araşdırma məqsədli müşahidə - problemi araşdırma, səbəbi tapma, detalları müəyyən etmə məqsədi ilə keçirilir.

Axtarış yönümlü müşahidə zamanı adətən protokol tətbiq olunur. Bu zaman foto və videolardan da istifadə etmək olar (icazə varsa). Protokol sadə, rubrikalara bölünməyən mətndən ibarət olur. Bu tip protokol müşahidə zamanı yazılır. Müşahidə olunan hər bir şey qeyd olunur. Daha sürətlə yazmaq üçün sözləri qısaltmaq və ya şərti işarələrdən istifadə etmək olar. Gündəlikdən də istifadə edə bilərik. Gündəlik tipli protokol toplusu həftələr və ya aylar davam edən müşahidələr üçün tətbiq olunur.

Araşdırma tipli müşahidə zamanı protokol standartlaşdırılmış olur. Müşahidə ediləcək kateqoriyalar öncədən seçilir və müşahidə zamanı onların elementləri fiksə olunur. Kateqoriyaları (aktivlik, nitq, müəllimlə ünsiyyət) öncədən müəyyən edib dərs zamanı elementləri əlavə edə bilərik. Bu protokol növündə hər dəfə konkret elementi müşahidə etdikdə onun qarşısında işarə qoyulmalıdır. Bu "+" və ya digər işarələr ola bilər.

**QEYD**: Şagirdlərin peşəyönümü maraq və meyllərinin müəyyənləşdirilməsi üçün müşahidə protokolu **Əlavə 11-də** verilmişdir.

## *3.4 Valideynlərlə işin təşkili*

Qeyd etmək lazımdır ki, ümumtəhsil müəssisələrində peşəyönümü xidmətinin təşkilinə pedaqoji işçilərlə yanaşı, təhsilalanların valideynləri də cəlb olunur. Valideynlər övladlarının peşə seçimində mühüm rola malikdirlər. Uşaqlar peşələr haqqında ilkin təsəvvürləri məhz valideynlərinin, yaxın qohumlarının peşəsi vasitəsilə əldə edirlər. Bu və ya digər peşəyə qarşı təhsilalanlarda münasibət həm valideynlərin öz peşəsinə qarşı münasibəti, həm də valideyn-övlad münasibətlərinin xüsusiyyətləri ilə səciyyələnir.

Valideynlərlə iş baxımından Anna Roenin valideynlərlə iş nəzəriyyəsi diqqətəlayiqdir. Nəzəriyyə karyera inkişafında erkən həyat təcrübələrinin əhəmiyyətini göstərir. Roenin psixoloji ehtiyaclar nəzəriyyəsinə görə fərdin peşə seçimində həyatının ilk illərində yaşanan məmnunluq və məyusluq müəyyən bir sahəyə istiqamətlənməyi müəyyənləşdirir. Bu istiqamətlər, əsasən, şüursuz olur. Roe, xüsusilə valideyn övlad münasibətlərinin, valideynlərin övladlarına göstərdikləri sevgi və etdikləri nəzarət dərəcəsinin uşağın peşə seçimində təsirli olduğunu qeyd edirdi. Roe-ya görə üç növ valideyn münasibəti müşahidə olunur.

- Həddindən həvəsli valideynlər;
- Uşağa soyuq yanaşan valideynlər;
- Uşağı qəbul edən valideynlər.

**Həddindən həvəsli valideynlər:** Bu kateqoriyaya aid valideynlər uşağın ehtiyaclarını ödəməyə böyük əhəmiyyət verirlər. Bu rəftarın bir ucunda həddindən artıq qoruma, digər tərəfində həddindən artıq istək var. Həddindən artıq qorunan uşaqlarda asılı şəxsiyyət quruluşu inkişaf edir. Nəticədə insanlarla birlikdə olmağı tələb edən peşəni seçirlər.

**Uşağa soyuq yanaşan valideynlər:** Bu münasibət iki şəkildə baş verir: inkar və laqeydlik. İnkar edən valideynlər uşağın fizioloji ehtiyaclarını qarşılasalar da, sevgi, qayğı, qəbul və bağlılıq ehtiyaclarını ödəmirlər. Digər tərəfdən laqeyd yanaşanlar qəsdən olmasa da, səhlənkarlıq ucbatından uşağın ehtiyaclarını duymurlar.

Valideynləri soyuq davranan uşaqlar sevgisiz bir mühitdə böyüdükləri üçün onlarda başqalarına qarşı müdafiə mövqeyi və ya aqressiv meyllər inkişaf edə bilər. Bu cür uşaqlar insanlarla deyil, daha çox əşyalar və heyvanlarla işləmək tələb olunan peşələri seçirlər. İnsanlarla aktiv işləməyi tələb edən peşələri seçdikdə isə insanlara insani münasibət göstərmirlər.

**Uşağı qəbul edən valideynlər:** Bu cür valideynlərin himayəsində böyüyən uşaqlar sevgi və hörmət ehtiyaclarını təmin etdikləri üçün bu ehtiyaclar davranışı müəyyənləşdirməkdə motivasiyaya çevrilmir. Bu uşaqlar özlərinə uyğun istənilən peşəni seçirlər.

Ümumtəhsil müəssisələrində peşəyönümü işinin təşkilinə valideynlərin cəlb olunması müxtəlif vasitələrlə həyata keçirilir:

Peşə istiqaməti və peşə seçimi ilə bağlı anketləşdirmədə iştirak;

Peşəyönümü və övladlarının gələcək peşə seçimi ilə bağlı valideyn iclaslarında iştirak;

Məktəbdə müxtəlif təhsil və sənayə müəssisələri ilə birgə təşkil olunan maarifləndirmə tədbirlərinə, seminar və mühazirələrə qatılma;§

Müəllimlər və şagirdlərin valideynləri arasında fərdi söhbətləri;

Valideynlərin öz peşələri ilə bağlı şagirdlər qarşısında çıxışları;

Şagird valideynlərinin dərnək, idman seksiyası, bədii studiya, uşaq teatrlarının rəhbəri kimi işləməyə cəlb edilməsi;

Tətil zamanı təhsilalanların müvəqqəti işlə təmin olunmasında valideynlərdən kömək;

Yuxarı sinif və peşə təmayül siniflərinin şagirdləri üçün müəssisələrdə peşə sınağı tədbirlərinin təşkilində valideynlərin köməyi

Ümumi təhsil müəssisəsinin işçiləri, şagirdlərin valideynləri, məktəbə sponsorluq edən şirkətlərin sahibkarları, patronaj təşkilatlarının nümayəndələri və s. daxil olmaqla qəyyumlar şurasının yaradılması

Valideynlər üçün sorğu anketinin nümunəsi əlavədə verilmişdir (**Əlavə 12**).

**Təlimat**: Hörmətli sorğu iştirakçısı! Övladınızın peşə istiqaməti və peşə seçimi ilə əlaqədar maraqlarının müəyyənləşdirilməsində valideynin rolu ilə bağlı keçirilən sorğuda iştirak etdiyiniz üçün təşəkkür edirik.
Suallara dürüst və səmimi cavab verməyinizi xahiş edirik. Anket anonim şəkildə aparılır, bütün məlumatlar yalnız ümumiləşdirilmiş formada istifadə olunacaqdır.

**Əlavə 1: "Peşə təmayüllü layihələr barədə ümumi məlumat, iş şəraitində əmək, təhlükəsizlik və sağlamlıq qaydaları" üzrə proqram materiallarının nümunəvi planı**

| № | Standart | Qiymətləndirmə meyarları | Mövzular (nəzəri və təcrübü) | Saat | Tarix |
|---|---|---|---|---|---|
| **Təlim nəticəsi: B.3.1. Peşə təmayüllü layihələr (kənd təsərrüfatı, xidmət və tikinti – təmir və s.) haqqında ümumi məlumatı, onun yeniyetmə və gənclərin həyatında əhəmiyyətini şərh edir, layihələrdə istifadə olunacaq avadanlıq, alət və cihazlar və regionda olan mühüm müəssisə ilə tanış olur.** | | | | | |
| 1 | B.3.1.1. | Peşə təmayüllü layihələr (kənd təsərrüfatı, xidmət və tikinti – təmir və s.) haqqında ümumi məlumatı şərh edir | Peşə təmayüllü layihələr (kənd təsərrüfatı, xidmət, tikinti-təmir və s.) haqqında ümumi məlumat | 1 | |
| 2 | B.3.1.2. | Peşə təmayüllü layihələrin yeniyetmə və gənclərin həyatında əhəmiyyətini bilir | Peşə təmayüllü layihələrin yeniyetmə və gənclərin həyatında əhəmiyyəti | 1 | |
| 3 | B.3.1.3 | Peşə təmayüllü layihələr üzrə avadanlıq, alət və cihazlar barədə ümumi məlumata malikdir | Peşə təmayüllü layihələr üzrə avadanlıq, alət və cihazlar haqqında ümumi məlumat | 2 | |
| 4 | B.3.1.4 | Regionda fəaliyyət göstərən müəssisə ilə tanış olur. Müvafiq müəssisəyə ekskursiya | Müvafiq müəssisəyə ekskursiya ***(müəssisənin adını yazmaq)*** | 6 | |
| **Təlim nəticəsi: İş yerində əməl ediləcək təhlükəsizlik tədbirlərini bilir və qaydaları tətbiq etməyi bacarır.** | | | | | |
| 5 | B.3.2.1 | Əməyin təhlükəsizliyi və əmək fəaliyyəti ilə bağlı ümumi faktorları və təlimatları şərh edir. | Əməyin təhlükəsizliyi termini. Əmək fəaliyyəti haqqında məlumat | 2 | |
| 6 | B.3.2.2 | Əməyin mühafizəsi ilə bağlı məqsəd, norma və standartları yerinə yetirir. | Əmək mühafizəsinin əsas məqsədi. Əməyin normaları. Əməyin mühafizəsi standartları. | 3 | |
| 7 | B.3.2.3 | İş yerlərində əməyin mühafizəsi və texniki təhlükəsiz iş üsullarına riayət edir. | Müəssisələrdə, təşkilatlarda sağlam və təhlükəsiz əmək şəraitinin təmin edilməsi. Texniki təhlükəsizlik tələbləri. | 2 | |
| 8 | B.3.2.4 | İstehsal sahələri və istehsal meydançaları ilə bağlı təhlükəsizlik tələblərini sadalayır. | İstehsal sahələri ilə bağlı təhlükəsizlik tələbləri. | 2 | |
| | KSQ | | | 1 | |
| **Təlim nəticəsi: Alətlərlə işləyərkən, aqreqatları sınaq edərkən əmək təhlükəsizliyi və iş zamanı yarana biləcək yanğın təhlükəsizliyi tədbirlərini bilir və tətbiq etməyi bacarır.** | | | | | |
| 9 | B.3.3.1 | Elektriklə işləyən alətlərdən istifadə zamanı əməl ediləcək təhlükəsizlik tədbirlərini sadalayır. | Elektrik avadanlıqları və alətləri ilə işləyən zaman təhlükəsizlik tələbləri. | 2 | |
| 10 | B.3.3.2 | Elektrik maşınları quraşdırılmış otaqlarda ilkin mühafizə vasitələri – yanğın söndürən və quru qum olan yeşikdən istifadə qaydalarını təsvir edir. | Yanğın təhlükəsizliyi sisteminə dair tələblər. | 3 | |

| | | | | | |
|---|---|---|---|---|---|
| **11** | **B.3.3.3** | Yanğın təhlükəsinin qarşını ala biləcək tədbirləri və yanğının yayılmasına qarşı mübarizədə yanğın söndürmə vasitələrini seçir. | Yanğın söndürmə maddələri və vasitələri, onlardan istifadə qaydaları. | 3 | |
| **12** | **B.3.3.4** | Nərdivanların, meydançaların və pilləkənlərin tətbiqi zamanı təhlükəsizlik tələblərini əlaqələndirir. | Nərdivanlar və ayaqaltılar üzərində işləyən zaman təhlükəsizlik qaydaları. | 3 | |
| **Təlim nəticəsi: İstehsalat zədələnmələrinin növlərini, yaranma səbəblərini bilir və müvafiq tədbirlər görməyi bacarır.** | | | | | |
| **13** | **B.3.4.1.** | İstehsalat zədələnmələrinin növlərini və səbəblərini izah edir. | İstehsalat travmatizmi və əsas səbəbləri. | 2 | |
| **14** | **B.3.4.2** | Zədələnmə və peşə xəstəliklərinin əsas səbəblərini təsvir edir. | İstehsalat zədələri və peşə xəstəliklərinin səbəbləri. Bioloji zərərli amillər. Psixofizioloji amillər. | 2 | |
| **15** | **B.3.4.3** | İstehsalatda zədələnmə səbəblərinin qarşısını almaq üçün müəyyən tədbirlər görür. | Zədələnmələrin qarşısının alınması tədbirləri. | 3 | |
| **16** | **B.3.4.4.** | İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarında icbari sığorta olunanlar və onların iqtisadi fəaliyyət növləri üzrə kateqoriya və risk qruplarını seçir. | İstehsalatda bədbəxt hadisələrin araşdırılması və zərərçəkmiş şəxslərə dəyən zərərin ödənilməsi. Riskin qiymətləndirilməsi, dəyərləndirilməsi və görüləcək tədbirlər. | 3 | |
| | **KSQ** | | | 1 | |
| **Təlim nəticəsi: Əmək gigiyenası haqqında bilir.** | | | | | |
| **17** | **B.3.5.1.** | Əmək gigiyenası haqda ümumi bilgiləri və onun inkişafının əsas mərhələlərini izah edir. | Əmək gigiyenası haqqında ümumi məlumat | 2 | |
| **18** | **B.3.5.2.** | Zərərli və təhlükəli faktorların təsnifatını təsvir edir. | İstehsalın təhlükəli və zərərli amilləri. | 3 | |
| **19** | **B.3.5.3** | Əməyin gigiyenası, əmək prosesini və istehsalat şəraitini, onların orqanizmlə qarşılıqlı təsirini müəyyən edir. | Əməyin gigiyenası, əmək prosesi və istehsal şəraiti. | 3 | |
| **20** | **B.3.5.4** | Əmək prosesinin xüsusiyyətlərindən və rejimindən asılı olan zərərləri kateqoriyalara (qruplara) bölür. | Əmək prosesinin xüsusiyyətlərindən asılı olan zərərlər. | 3 | |
| **Təlim nəticəsi: İstehsalat səs-küylərinin və titrəyişlərin insan orqanizminə təsirini bilir.** | | | | | |
| **21** | **B.3.6.1** | İstehsalat səs-küylərinin təsnifatını şərh edir. | İstehsalat səs-küyləri haqqında anlayış. | 2 | |
| **22** | **B. 3.6.2** | İşçilərin orqanizminə səs-küylərin təsirini izah edir. | İşçilərin orqanizminə səs-küyün təsiri. | 1 | |
| | | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 23 | **B. 3.6.3** | Səs-küylərin insan orqanizminə xoşagəlməz təsirinin profilaktikasını təsvir edir. | Səs və vibrasiyalarla mübarizə üsulları. | 3 | |
| 24 | **B.3.6.4** | Müxtəlif güclü və tezlikli səslərin nizamsız (xaotik) birləşməsindən səs-küy (gurul-tu) yaranmasını müəyyən edir. | Müxtəlif güclü və tezlikli səslərin nizamsız (xaotik) birləşməsindən yaranan səs-küy (gurultu). | 3 | |
| | **KSQ** | | | **2** | |
| **Təlim nəticəsi: Ətraf mühitin mühafizəsi və yanğınsöndürmə vasitələrinə dair ilkin tədbirləri bilir və həyata keçirməyi bacarır.** | | | | | |
| 25 | **B. 3.7.1** | Ekoloji qanuna dair məlumatları bilir. | Ekologiya haqqında. | 1 | |
| 26 | **B. 3.7.2** | Ekoloji şəraitin yaxşılaşdırılmasına yardımçı olan üsulları sadalayır. | Atmosferi çirkləndirən sənaye sahələri. | 2 | |
| 27 | **B.3.7.3** | Müəssisədə olan yanğınsöndürmə vasitələrindən düzgün istifadə edir. | Müəssisədə olan yanğınsöndürmə vasitələrindən istifadə. | 2 | |
| 28 | **B. 3.7.4** | Yanğın baş verərkən yanğın təhlükəsizliyinin əsas və fərdi ehtiyat tədbirləri ilə otaqlardan çıxma qaydalarını uyğunlaşdırır. | Yanğın baş verərkən yanğın təhlükəsizliyinin əsas və fərdi ehtiyat tədbirləri. | 3 | |
| 29 | **B.3.7.5.** | İşləri başa çatdırdıqdan sonra ətraf mühitin qorunması naminə ərazini təmizləyir. | Ətraf mühitin qorunması. | 2 | |
| | **BSQ** | | | 4 | |
| | **Cəmi:** | | | **80** | |

**Əlavə 2: Çiyələk əkini modulu üzrə proqram materiallarının nümunəvi planı**

**Modulun adı: Çiyələk əkini**
**Modulun nömrəsi: B.3.4.1**
**İxtisasın adı: Çiyələyin yetişdirilməsi**
Cəmi dərs saatı: 226 saat
İxtisas üzrə nəzəri dərslər: 75 saat
İxtisas üzrə praktik dərslər: 151 saat

| № | Standart | Qiymətləndirmə meyarları | Mövzular (nəzəri və təcrübü) | Tələb olunan materiallar (10 nəfər üçün) | Saat | Tarix |
|---|---|---|---|---|---|---|
| **Təlim nəticəsi:B.3.4.1. Çiyələk bitkisi haqqında ümumi məlumatları və onun bio-botaniki xarakteristikasını bilir.** | | | | | | |
| 1 | **B.3.4.1.1.1.** | Çiyələk bitkisi haqqında ümumi məlumat verir. | Çiyələk haqqında ümumi məlumatlar. Çiyələyin botaniki təsviri və bioloji xüsusiyyətləri | | 8 | |
| 2 | **B.3.4.1.1.2.** | Çiçək saplağının funksiyasını təsvir edir. | Çiçək saplağının funksiyası. Çiçək saplağının funksiyası-nın təsvir edilməsi | | 12 | |
| 3 | **B.3.4.1.1.3.** | Yarpaqların əhəmiyyətini və foto-sintez prosesinin rolunu müəyyən edir. | Yarpaqların əhəmiyyəti və fotosintez prosesinin rolunun müəyyən edilməsi | | 12 | |
| 4 | **B.3.4.1.1.4.** | Kök sisteminin rolunu qiymətləndirir | Kök sisteminin rolu və onun qiymətləndirilməsi | | | |
| **Təlim nəticəsi: İş yerində əməl ediləcək təhlükəsizlik tədbirlərini bilir və qaydaları tətbiq etməyi bacarır.** | | | | | | |
| | **KSQ** | | | | 4 | |
| **Təlim nəticəsi: B.3.4.1.2 . Çiyələyin əkilmə qaydasını bilir və əkin sahəsini hazırlamağı, çiyələyin əkilmə prosesini bacarır.** | | | | | | |
| 5 | **B.3.4.1.2.1** | Sahənin seçilməsini təsvir edir | Sahənin seçilməsi və onun təsviri | | 8 | |
| 6 | **B.3.4.1.2.2** | Əkin qaydalarını və üsullarını müəyyən edir | Əkin qaydaları və üsulları. Onların müəyyən edilməsi | | 12 | |
| 7 | **B.3.4.1.2.3.** | Torpağın hazırlanmasını həyata keçirir | Torpağın hazırlanması qaydaları. Torpağın çiyələk əkininə hazırlanması | | 12 | |
| 8 | **B.3.4.1.2.4.** | Şitiləkmə texnikası və cərgələrin yerini müəyyən edir. | Şitiləkmə texnikası və cərgələrin yerinin müəyyən edilməsi | | 12 | |
| | **KSQ** | | | | 4 | |
| **Təlim nəticəsi: B.3.4.3. Çiyələyin çoxaldılması, suvarılması üsullarını, qida maddələrinin qəbulunu bilir və tətbiqini bacarır.** | | | | | | |
| 9 | **B.3.4.1.3.1.** | Toxumla çoxalma-nı və bığcıqların rolunu izah edir. | Toxumla çoxalma və bığcıqların rolu | | 8 | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **10** | **B.3.4.1.3.2.** | Suvarılma üsullarından danışır. | Suvarılma üsulları | | 12 | |
| **11** | **B.3.4.1.3.3** | Qida maddələrinin əhəmiyyətini, formalarını və qəbul yollarını sadalayır. | Qida maddələrinin əhəmiyyəti, formaları və qəbul yolları | | 12 | |
| **12** | **B.3.4.1.3.4** | Çiyələk bitkisinin çoxaldılmasını həyata keçir. | Çiyələk bitkisinin çoxaldılması | | 12 | |
| **13** | **B.3.4.1.3.5** | Suvarılma üsullarını düzgün formada tətbiq edir. | Suvarılma üsulları və onların yerinə yetirilməsi | | 8 | |
| | **KSQ** | | | | **4** | |
| **Təlim nəticəsi: B.3.4.4. Qida maddələrinin çatışmazlıq və xəstəliklərini bilir, onlara qarşı mühafizə tədbirləri həyata keçirməyi bacarır.** | | | | | | |
| **14** | **B.3.4.1.4.1** | Əlavə yemləmə kimi mineral maddələrin (azot, fosfor, kalium, kalsium, maqnezium) çatışmazlıq simptomlarını ayırd edir. | Əlavə yemləmə kimi mineral maddələrin (azot, fosfor, kalium, kalsium, maqnezium) çatışmazlıq simptomlarının ayırd edilməsi | | **12** | |
| **15** | **B.3.4.1.4.2.** | Çiyələk bitkisinin xəstəlikləri və zərərvericiləri haqqında məlumat verir. | Çiyələk bitkisinin xəstəlikləri və zərərvericiləri | | 12 | |
| **16** | **B.3.4.1.4.3** | Çiyələkdə xəstəlik və zərərvericilərə qarşı qabaqlayıcı tədbirləri şərh edir. | Çiyələkdə xəstəlik və zərərvericilərə qarşı qabaqlayıcı tədbirlər | | 8 | |
| **17** | **B.3.4.1.4.4** | Alaq otlarının mənfi təsirlərini izah edir. | Alaq otlarının mənfi təsirləri | | 4 | |
| **18** | **B.3.4.1.4.5** | Çiyələkdə hər hansı çatışmazlığın, torpaq və hava şəraiti ilə qarşılıqlı təsirini qeyd edir | Çiyələkdə hər hansı çatışmazlığın, torpaq və hava şəraiti ilə qarşılıqlı təsiri | | 8 | |
| **19** | **B.3.4.1.4.6.** | Mühafizə tədbirlərini həyata keçirir. | Mühafizə tədbirlərinin həyata keçirilməsi. | | 4 | |
| | **KSQ** | | | | 4 | |
| **Təlim nəticəsi: B.3.4.1.5. Çiyələyin toplanması, çiyələk meyvəsinin texniki emalını və bazara hazırlanmasını bacarır.** | | | | | | |
| **20** | **B.3.4.1.5.1.** | Çiyələyin toplanmasını həyata keçirir. | Çiyələyin toplanması. | | 4 | |
| **21** | **B.3.4.1.5.2.** | Çiyələk meyvəsinin texniki emalını yerinə yetirir. | | | | |
| **22** | **B.3.4.1.5.3.** | Hazır məhsulu bazara hazırlayır. | Hazır məhsulun bazara hazırlanması. | | 4 | |
| | **Ehtiyat vaxt** | | | | 2 | |
| | **KSQ** | | | | 4 | |
| | **BSQ** | | | | 4 | |
| | **Cəmi** | | | | 226 | |

**Əlavə 3: Çilingər köməkçisi modulu üzrə proqram materiallarının nümunəvi planı**

**Modulun adı: Çilingər (su – kanalizasiya quraşdırma) köməkçisi**
**Modulun nömrəsi: B.3.6.2.**
**İxtisasın adı: Çilingər (su – kanalizasiya quraşdırma) işləri**
Cəmi dərs saatı: 226 saat
İxtisas üzrə nəzəri dərslər: 75 saat
İxtisas üzrə praktik dərslər: 151 saat

| № | Standart | Qiymətləndirmə meyarları | Mövzular (nəzəri və təcrübü) | Material (10 nəfər üçün) | Saat | Tarix |
|---|---|---|---|---|---|---|
| **Təlim nəticəsi: B.3.6.2.1. Ölçmə, kəsmə, yiyələmə, deşmə, yiv açma alətlərindən istifadə qaydalarını bilir və müvafiq işləri yerinə yetirməyi bacarır.** | | | | | | |
| **1** | **B.3.6.2.1.1** | Müxtəlif növ alətlərin istifadə qaydalarını izah edir. | Çilingər işi. Çilingər alətləri. İstifadə qaydaları | Çilingər alətləri - 10 komplekt | 2 | |
| **2** | **B.3.6.2.1.2** | Ölçmə alətlərindən istifadə edərək bütün növ ölçmə işlərini aparır. | Ölçmə işləri. Ölçü xətkeşi. Ştangerpərgar. | Ölçü xətkeşi – 10 əd. Ştanger- 10 əd.<br>pərgar – 10 əd.<br>material | 12 | |
| **3** | **B.3.6.2.1.3** | Kəsici alətlərlə düzgün davranaraq, kəsmə əməliyatlarını yerinə yetirir. | Əl dəmirkəsən mişarı. Kəsici bıçaqlar. Kəsmə əməliyyatı və təhlükəsizlik qaydaları. Polietilen boruların kəsilməsi. | Polietilen boru. 20-lik boru- 20 metr. 15-lik boru-20 metr. 20-lik traynik-10 ədəd. 20-lik uqolnik-20. 20-lik mufta-10. 20-lik zqon 20-lik zqon komplekt-10. 20-15 traynik-5 ədəd. 20 –lik baqonka bronza-10 ədəd. 20-lik zaqluşik uq rezba-5 ədəd. 20 lik zaqluşqa rol rezba 10 ədəd. 15lik traynik- 5 ədəd. 15 lik uqolnik-20 ədəd komplekt-10 | 4 | |
| **4** | **B.3.6.2.1.4** | Yiyələmə işini yerinə yetirərkən yiyələmə alətlərindən düzgün istifadə edir. | Yiyələmə işlərinin məqsədi. Yiyələrin növləri və formaları. Yiyələrə qulluq və təhlükəsizlik qaydaları. | Çilingər alətləri - 10 komplekt Dəmir materiallar | 4 | |
| **5** | **B.3.6.2.1.5** | Ölçülərə uyğun deşmə əməliyatlarını həyata keçirir. | Deşmə əməliyyatı və təhlükəsizlik qaydaları. Burğu (iynə). Burğulama alətləri. | Çilingər alətləri - 10 komplekt Dəmir materiallar | 8 | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 6 | **B.3.6.2.1.6** | Yiv açma alətləri ilə yivləri açır. | Yivlərin növləri haqqında anlayış. Yivaçan alətlər. | 15 lik traynik-5 ədəd. 15-lik uqolnik-20. 15 lik mufta-10. 15 lik zqon komplekt 5 ədəd. 15 lik zaqluşik iç rezba -10 ədəd. 15 lik zaqluşqa çöl rezba-10 ədəd. Rezba açan komplekt. Açar 2 razmer qaz üçün-3 ədəd. Disk borunu sıxmaq , tutub saxlamaq rezbaya sarımaq üçün 160 lıq. | 8 | |
| | **KSQ** | | | | 4 | |
| **Təlim nəticəsi: B.3.6.2.2. Metal, polietilen boruların birləşdirmə üsullarını yerinə yetirməyi bacarır.** | | | | | | |
| 7 | **B.3.6.2.2.1** | Metal su – qaz borularını bir-birinə, fitinqlərə, armaturlara birləşdirir. | Metal su-qaz ötürücü boruları. Metal borular üçün fitinqlər. Metal boruların yiv birləşməsi. Metal boruların flyans birləşməsi. Metal boruların qaynaq birləşməsi | Dəmir kəsən mişarın bıçağı 50 ədəd. Tanqit urlok 5 ədəd.1 ədəd radiyator paneli. 2 ədəd radiyator vintili | 4 | |
| 8 | **B.3.6.2.2.2** | Polietilen su və kanalizasiya borularını xüsusi qaynaq üsulu ilə fitinqlərlə, armaturlarla qaynaqlayır. | Polietilen su boruları. Polietilen fitinqlər. Polietilen borunun qaynaq birləşməsi. | f-25-20 metr. f-20-20 metr f-25 uqolnik-50 ədəd f-25 traynik-20 ədəd f-25 mufta-20 ədəd f-25-15 uqolnik iç rezba 20 ədəd. f 25-15 uqolknik, çöl rezba-20 ədəd. f 25-15 mufta iç rezba 20 f 25-15 mufta çöl rezba 20 f 25-20 perexod 10 ədəd. f 25-lik uqolnik 450 20 ədəd ədəd. f 25 qaynaq vintil 5 ədəd. f 20 qaynaq vintil 5 ədəd. f 20 qaynaq zaqluşqa 10 ədəd. f 20 razbal zaqluşqa 10 ədəd. f 25 qaynaq zaqluşqa 10 ədəd. f 25 rezbalı zaqluşqa 10 ədəd | 8 | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **9** | **B.3.6.2.2.3** | Başlıqlı çuqun boruların bir-biri və fasonlu hissələrlə birləşməsini həyata keçirir. | Çuqun kanalizasiya boruları. Çuqun kanaliza-siya boruları üçün fasonlu hissələr. Çuqun kanalizasiya borularının quraşdırılması. | Çuqun kanalizasiya boruları 2 m Çuqun kanalizasiya boruları üçün fasonlu hissələr. | 8 | |
| **10** | **B.3.6.2.2.4** | Polietilen kanalizasiya borularının fitinqlərlə birləşdirmə işlərini yerinə yetirir. | Başlıqlı polietilen kanalizasiya boruları və onlar üçün fasonlu hissələr. Polietilen kanalizasiya borularının quraşdırılması. | 20 lik traynik-20 ədəd. 20 lik mufta 20 ədəd. f 20-15 uqolnik iç rezba 20 ədəd. f 20-25 uqolnik çöl rezba 20 ədəd. f 20-15 mufta iç rezba 20 ədəd. f 20-15 mufta çöl rezba | 4 | |
| | **KSQ** | | | | 4 | |
| **Təlim nəticəsi: B.3.6.2.3, Ölçmə kiçik diametrli boruları əyməyi və müxtəlif armaturları təyinatına görə quraşdırmağı, sökməyi, təmir etməyi bacarır.** | | | | | | |
| **11** | **B.3.6.2.3.1** | Metal boruların əyilməsi əməliyyatlarını yerinə yetirir. | Əyilmə haqqında ümumi məlumat. Metal boruları əymək üçün alət və avadanlıqlar. | Metal boru 5 m | 4 | |
| **12** | **B.3.6.2.3.2** | Metalloplastik su borusunu ölçülərə uyğun əyir. | Metalloplastik su borularının əyilməsi üsulları. | Metalloplastik su boruları | 8 | |
| **13** | **B.3.6.2.3.3** | Müxtəlif armaturları təyinatına görə quraşdırır. | Santexniki armatur dedikdə nə başa düşülür. Bəzi santexniki armaturlar. | Santexniki armaturlar | 8 | |
| **14** | **B.3.6.2.3.4** | Müxtəlif təmir işlərini yerinə yetirir. | Siyirmənin təmiri. Ventillərin təmiri. Tıxaclı kranların təmiri. Əks klapanın təmiri. Suayırıcı və suqarışdırıcı kranların təmiri. | Siyirmələr, ventillər, txac kanları, əks kranlar. Suayırıcı və suqarışdırıcı kranlar | 8 | |
| | **KSQ** | | | | 4 | |
| **Təlim nəticəsi: B.3.6.2.4. Pnevmatik və hidravlik elektrik qurğularından, qaynaq aparatından istifadə etməyi bacarır.** | | | | | | |
| **15** | **B.3.6.2.4.1** | Elektrik və pnevmatik yuva açma maşınlarından istifadə edir. | Elektrik burğulama maşınları. Elektrik dreli. Pnevmatik drel. | Elektrik burğulama maşınları. Elektrik dreli. Pnevmatik drel. | 4 | |
| **16** | **B.3.6.2.4.2** | Metalların elektrik alətləri ilə kəsilmə və doğranma əməliyyatlarını yerinə yetirir. | Metalların elektrik alətləri ilə kəsilmə və doğranması. Müxtəlif funksiyalı elektrik aləti ilə metalların kəsilməsi (Renovator) | Metal Metal kəsən elektrik alətləri | 8 | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **17** | **B.3.6.2.4.3** | Qaynaq işini yerinə yetirmək üçün qaynaq aparatından istifadə edir. | Qaynaq transformatorunun iş prinsipi. Detalların qaynaqla birləşdirilməsi. | Qaynaq transformatoru qaynaqla birləşdiriləcək detallar | 8 | |
| **18** | **B.3.6.2.4.4** | Quraşdırma işində elektrik ütüsündən istifadə edir. | Quraşdırma işində elektrik ütüsü. | Elektrik ütüsü Quraşdırma materialları | 8 | |
| **19** | **B.3.6.2.4.5** | Elektrik rozetlərini təmir edir. | Elektrik rozetlərinin təmiri. | Elektrik rozetkaları Alətlər komplekti | 4 | |
| **20** | **B.3.6.2.4.6** | Elektrik avadanlıqlarında elektrik çəngəlini dəyişdirir. | Elektrik avadanlıqlarında elektrik çəngəllərinin təmiri. | Elektrik çəngəlləri Alətlər komplekti | 4 | |
| **13** | **B.3.6.2.3.3** | Müxtəlif armaturları təyinatına görə quraşdırır. | Santexniki armatur dedikdə nə başa düşülür. Bəzi santexniki armaturlar. | Santexniki armaturlar | 8 | |
| **21** | **B.3.6.2.4.7** | Elektrik avadanlıqlarında yüngül təmir işlərini yerinə yetirir. | Elektrik avadanlığında elektrik mühərrikinin təmiri. Mühərrikin hissələrinin təmiri. | Elektrik çəngəlləri Alətlər komplekti | 8 | |
| | **KSQ** | | | | 4 | |
| **Təlim nəticəsi: B.3.6.2.5. Bina girişinin, sulama kranlarının, ölçü cihazının və yanğın əleyhinə su təchizatı sistemini quraşdırmağı bacarır.** | | | | | | |
| **22** | **B.3.6.2.5.1** | Bina girişinin quraşdırılmasını yerinə yetirir. | Bina girişinin quruluşu. Bina girişinin quraşdırılması. | Bina girişinin sxemi. Bina girişinin quraşdırılması üçün materiallar | 4 | |
| **23** | **B.3.6.2.52.** | Sulama kranlarını quraşdırır. | Sulama su kəmərinin tətbiq sahələri və xüsusiyyətləri. Sulama su kəmərinin və onun elementlərinin quraşdırılması. | Sulama su kəmərinin maketi və materiallar | 8 | |
| **24** | **B.3.6.2.5.3** | Su sərfiyyatını ölçən cihazların quraşdırılmasını həyata keçirir. | Su sərfiyyatını ölçən cihazlar. Su ölçən qovşağın quraşdırılması. | Su sayqacları Alətlər komplekti Materiallar | 4 | |
| **25** | **B.3.6.2.5.4** | Yanğın əleyhinə su təchizatı sistemini quraşdırır. | Yanğın əleyhinə su kəməri nə vaxt quraşdırılır. Daxili yanğın əleyhinə su kəmərinin quraşdırılması. Daxili su təchizatı sxemləri. | Yanğın əleyhinə su kəməri sxemi. Daxili yanğın əleyhinə su kəmərinin sxemi. | 4 | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **26** | **B.3.6.2.5.5** | İsti su xətlərinin quraşdırılmasını yerinə yetirir. | Mərkəzləşmiş isti su təchizatı. Qapalı sxem ilə mərkəzləşmiş isti su təchizatı. Avtonom isti su təchizatı. İsti su xətlərinin quraşdırılması. | Mərkəzləşmiş isti su təchizatı sxemi. Qapalı isti su sxemi. Avtonom isti su təchizatı sxemi. | 8 | |
| **27** | **B.3.6.2.5.6** | Su təchizatı sisteminin sınağını həyata keçirir. | Xarici su kəmərinin sınaqdan keçirilməsi. Daxili su kəmərinin sınaqdan keçirilməsi. | Xarici su kəməri sxemi. Daxili su kəməri sxemi | 4 | |
| **28** | **B.3.6.2.5.7** | Su təchizatı sistemini təmir edir. | Zədələnmələrin müxtəlifliyi. Metal su təchizatı borularının təmiri. Polipropilen su təchizatı borularının təmiri. | Zədələnmələrin müxtəlif nümunələri. Metal su təchizatı borularının təmiri. Polipropilen su təchizatı borularının təmiri | 4 | |
| | **KSQ** | | | | 4 | |
| **Təlim nəticəsi: B.3.6.2.6. Mənzildaxili kanalizasiya xətlərini quraşdırmaq və təmirini bacarır.** | | | | | | |
| **29** | **B.3.6.2.6.1** | Daxili kanalizasiya xətlərini quraşdırır. | Mənzildaxili kanalizasiya xətlərini quraşdırır. Daxili kanalizasiya xətləri üçün borular. | Mənzildaxili kanalizasiya xətlərinin sxemi. Daxili kanalizasiya maketi | 4 | |
| **30** | **B.3.6.2.6.2** | Trapların quraşdırılmasını həyata keçirir. | Kanalizasiya traplarının özəllikləri və növləri. | Kanalizasiya trapları | 8 | |
| **31** | **B.3.6.2.6.3** | Tualet çanaqlarını quraşdırır. | Müasir tualet çanaqlarının çeşidləri. Tualet çanağının quraşdırılması. | Müasir tualet çanaqları çeşidləri. Tualet çanağının quraşdırılması sxemi | 4 | |
| **32** | **B.3.6.2.6.4** | Əl-üzyüyanların quraşdırılmasını həyata keçirir. | Əl-üz yuyanların növ müxtəlifliyi. Əl-üz yuyanın quraşdırılması. | Müxtəlif növ əl-üz yuyanlar. Əl-üz yuyanın quraşdırılması sxemi | 4 | |
| **33** | **B.3.6.2.6.5** | Mətbəx çanaqlarını sistemə birləşdirir. | Mətbəx çanaqlarının çeşidləri. Mətbəx çanaqları¬nın quraşdırılması | Müxtəlif növ mətbəx çanaqları. Mətbəx çanaqlarının quraşdırılması sxemi | 4 | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **34** | **B.3.6.2.6.6** | Vannaları və sifonları sistemə qoşur. | Materialına görə vanna çeşidləri. Akril vannaların quraşdırılması. Sifonun növləri. | Materialına görə vanna çeşidləri. Akril vannaların quraşdırılması sxemi. Müxtəlif sifonun növləri | 4 | |
| **35** | **B.3.6.2.6.7** | Kanalizasiya sistemlərinin quraşdırılmasında tələb olunan şərtləri yerinə yetirir. | Daxili kanalizasiya sistemlərinin quraşdırılma qaydaları. Xarici kanalizasiya sistemlərinin quraşdırılma qaydaları. | Daxili kanalizasiya sistemlərinin quraşdırılma sxemləri. Xarici kanalizasiya sistemlərinin quraşdırılma sxemləri | 4 | |
| | **BSQ** | | | | 4 | |
| | **Cəmi** | | | | 226 | |

## Əlavə 4: İT proqramçı modulu üzrə proqram materiallarının nümunəvi planı

**Modulun adı: İT proqramçı**
**Modulun nömrəsi: B.3.5.2.**
**İxtisasın adı: İT sistem və şəbəkələrin idarə olunması**
Cəmi dərs saatı: 226 saat
İxtisas üzrə nəzəri dərslər: 75 saat
İxtisas üzrə praktik dərslər: 151 saat
***Qeyd:** KSQ və BSQ istisna olmaqla mövzuların tədrisinə ayrılacaq saatların miqdarı müəllim tərəfindən sər-

| № | Standart | Qiymətləndirmə meyarları | Mövzular (nəzəri və təcrübü) | Ləvazimat (10 nəfər üçün) | Saat | Tarix |
|---|---|---|---|---|---|---|
| **Təlim nəticəsi: B.3.5.2.1. Rəqəmsal məzmun hazırlamağı bacarır.** | | | | | | |
| **1** | **B.3.5.2.1.1** | Müvafiq verilənlərin, informasiyanın və rəqəmsal məzmununun keyfiyyətini dəyərləndirir. | Şəbəkədə işin sistem təminatı<br>İnternet texnologiyası<br>Kompüterə informasiyanın daxil edilməsi<br>Kompüterin iş prinsipi<br>Kompüter proqramları<br>Sistem proqramları<br>Köməkçi proqramlar<br>Tətbiqi proqramlar<br>Alqoritmik dillər proqramı<br>VB proqramlaşdırma dilləri<br>Yaddaş qurğusu<br>İnternetdə proqramlaşma dilləri<br>İnformasiyanın axtarışı və işlənməsi<br>Cəmiyyətin informasiyalaşdırılması<br>İnformasiyanın ötürülməsi və saxlanması<br>Verilənlərin, informasiyanın və biliyin xassələri | PK və ya noutbook-10 əd., proyektor, | 2 | |
| **2** | **B.3.5.2.1.2** | Microsoft Office proqramlar paketində müəyyən formatlarda rəqəmsal məzmunu hazırlayır | Mətn redaktorunun işə salınması<br>Pəncərənin elementləri, mətnin daxil edilməsi və<br>hazırlanmış sənədin yadda saxlanması<br>Faylın saxlanmasının standart pəncərəsi və<br>MS Word-işinin tamamlanması.<br>Sətirlərarası interval və abzas dialoq pəncərəsindən<br>İstifadə etməklə intervalların sazlanması.<br>Mausla mətn fraqmentinin seçilməsi<br>Yeni cədvəlin yaradılması<br>Cədvəl hazırlayarkən cədvəldəki sütunların və<br>sətirlərin sayının müəyyən edilməsi<br>Sənədin çapı.<br>MS Excel-in işə salınması<br>MS Excel - də cədvəllər və diaqramlar<br>MS Excel ilə işin sona çatdırılması.<br>Power Point proqramının işə salınması<br>MS Access verilənlər bazasının idarəetmə sistemi<br>Əməliyyat sistemi | PK və ya noutbook-10 əd., proyektor, MS office 2016 paketi | 12 | |
| | | | | | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **3** | | İnternet şəbəkəsindən istifadə edərək mövcud rəqəmsal məzmunu inteqrasiya edərək uyğunlaşdırır | İnternet-kompüter şəbəkələri haqqında ümumi məlumat<br>Qlobal şəbəkənin strukturu<br>Verilənlərin rabitə kanalları ilə ötürülməsi | PK və ya noutbook-10 əd., proyektor | | |
